


«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

HEYDƏR ƏLİYEV

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**Zaur ƏLİYEV** – *Redaksiya Şurasının sədri, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq elmləri doktoru;*

**Vasiliy FELİK** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin rektoru, professor, hüquq elmləri doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq elmləri doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq elmləri doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq elmləri doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq elmləri doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Hüquq" kafedrasının müdiri, professor, hüquq elmləri doktoru;*

**Arif QULİYEV** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Institutu, akademik, hüquq elmləri doktoru;*

**Yaroslav LAZUR** – *Ujqorod Milli Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq elmləri doktoru;*

**Yelena BAQREYEVA** – *Rusiya Federasiyası Hökumətinin yanında Maliyyə Universiteti, professor, hüquq elmləri doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi jurnalın baş redaktoru, professor, hüquq elmləri doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq elmləri doktoru.*

№2(15)

2020-ci ilin yanvar ayından çıxır.

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq elmləri doktoru, professor.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

**Elmi redaktor – *MƏMMƏDOV R.F.*** – Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq elmləri doktoru;

**Elmi məsləhətçi – *MƏMMƏDOV Ə.Q.* –** BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Məsul redaktor — *HÜSEYNOVA F.E.*** – BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı redaktor — *HƏSƏNZADƏ S.B.*** – Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, dosent, hüquq elmləri doktoru.

**Şef-redaktor:**

— ***KƏRİMOV A.T.*** — Dövlət Vergi Xidməti Bakı şəhəri OVNUT Baş idarəsi, rəisin birinci müavini, baş vergi xidməti müşaviri, hüquqşünas.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***HACIBƏYLİ A.K.*** — Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, hüquqşünas.

— ***KƏRİMLİ N.N.*** — Dövlət Gömrük Komitəsinin Akademiyası, "Hüquqşünaslıq" fakültəsi, IV kurs tələbəsi.

— ***HƏSƏNLİ A.V.*** — Sumqayıt Dövlət Universiteti "Filologoiya" fakültəsi, IV kurs tələbəsi.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, polis polkovniki, hüquqşünas.

— ***ƏLİYEV K.A.*** — Bakı şəhər Səbail rayon Ağsaqqallar Şurasının üzvü, hüquqşünas.

***Müəlliḟlə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az
http://www.hmj.az/index.php/hmj

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

9 dekabr 2024-cü il tarixdə 220 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

2024

IV RÜB

# COP29 SƏDRLİYİNİN BƏYANATI

Cari il ərzində COP29 Sədrliyi inkişaf etməkdə olan Tərəf ölkələrin ehtiyac və prioritetlərini nəzərə alaraq ədalətli və ambisiyalı yeni iqlim maliyyəsi hədəfinin müəyyən edilməsi istiqamətində fəal iş aparıb.

Biz səhər saatlarına qədər davam edən geniş və inklüziv məsləhətləşmələr aparmışıq.

Biz bütün qruplara dünən səhər yayımlanmış mətnlər xüsusunda fikir bildirmək imkanı yaratdıq və konstruktiv töhfələrinə görə onlara səmimi qəlbdən təşəkkür edirik.

Biz məsləhətləşmələr zamanı söylənilən rəy və təklifləri, eləcə də dünənki qurultayda Tərəflərin bildirdiyi fikirləri nəzərə alaraq, mətnlərin yenilənmiş versiyalarını dərc etmişik.

Bu mətnlər COP29 üçün balanslaşdırılmış və effektiv sənədlər paketidir. COP29 Sədrliyi Tərəfləri qalan bir neçə variant xüsusunda konsensus əldə etmək üçün bu mətni diqqətlə nəzərdən keçirməyə çağırır.

Tərəflərin ilkin rəyini əks etdirən Yeni Kollektiv Kəmiyyət Hədəfi üzrə qərar bütün Tərəfləri həm dövlət, həm də özəl mənbələrdən istifadə etməklə, 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşməsini ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün əməkdaşlıq etməyə çağırır.

İnkişaf etmiş Tərəf ölkələrin təqdimatlarına əsaslanaraq, bu qərar həm də hər il 100 milyard ABŞ dollarının birgə toplanması hədəfinin genişləndirilməsini təklif edir. Bura inkişaf etməkdə olan ölkələrdə iqlim fəaliyyətinin maliyyələşdirilməsini 2035-ci ilə qədər ildə 250 milyard ABŞ dollarına çatdırmaq üçün inkişaf etmiş Tərəf ölkələrin rəhbərliyi altında yeni hədəfin müəyyən edilməsi daxildir.

Biz açıq qalan bir neçə mühüm məsələyə yekun düzəlişlərlə bağlı kollektiv razılaşmanın əldə olunması üçün Tərəflərlə bundan sonra da danışıqları davam etdirəcəyik.

Biz bütün tərəfləri mümkün ən ambisiyalı nəticəyə təşviq etmək üçün həm inklüziv və şəffaf şəkildə, həm də səylə fəaliyyət göstərəcəyik.

# Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ BƏYANNAMƏSİ

Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilmişdir.

Görüşə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev ev sahibliyi etmişdir. Görüşdə Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkiyə Respublikasının Vitse-prezidenti Zati-aliləri Cevdet Yılmaz, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Zati-aliləri Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

Türk Dövlətləri Təşkilatının dövlət başçıları,

Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək;

Türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini vurğulayaraq;

Bəşəriyyət tarixində Türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq;

2023-cü il noyabrın 3-də "TÜRKTIME" şüarı altında keçirilmiş, TDT-nin gələcək transformasiyasında və Türk dünyasının inteqrasiyası səylərində, eləcə də onların xalqlarının birlik və rifahının gücləndirilməsində növbəti mühüm mərhələ olan TDT-nin yubiley – Astana Zirvə görüşünün uğurlu təşkilinə görə Qazaxıstan Respublikasının sədrliyini dəyərləndirərək;

TDT-nin yaradılmasına dair Naxçıvan Sazişinə uyğun olaraq, Dövlət Başçıları Şurasının (DBŞ) müntəzəm görüşləri ilə yanaşı, ildə bir dəfə DBŞ-nin qeyri-rəsmi görüşlərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin təklifini alqışlayaraq;

Geniş Türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyətini qəbul edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün

və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüşün Türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürü olduğunu bəyan edərək;

Yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün öz ata-baba yurdlarına qayıdışı üçün şərait yaradacaq genişmiqyaslı minatəmizləmə fəaliyyəti və humanitar minasızlaşdırma səyləri də daxil olmaqla, işğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəyliklərini ifadə edərək;

Türk Dövlətləri arasında sabit və çoxşaxəli əlaqələrin inkişafına, o cümlədən iqlim fəaliyyəti vasitəsilə sağlam planetin qorunmasına yönəlmiş birgə səylərlə davamlı gələcəyin mümkün olduğunu təsdiq edərək;

Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışlarının türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb etdiyini və qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələrin aparılmasının zəruriliyini etiraf edərək,

Bəyan etdilər ki, onlar:

**1.** TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşa şəhərində keçirilməsinin tarixi dəyərini vurğulayırlar;

**2.** Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar;

**3.** Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyini qeyd edirlər;

**4.** Türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli trans-regional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar;

**5.** Ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa-Türkiyə-Cə-

nubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırırlar;

Bu məqsədlə nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi və dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılmasını tapşırırlar;

**6.** Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsini, bu yol boyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi ilə bağlı Azərbaycanın, Gürcüstanın və Türkiyənin üçtərəfli səylərini qiymətləndirirlər;

**7.** Bütün TDT regionunda beynəlxalq ticarətin, investisiya və tranzit potensialının artırılmasına da töhfə verəcək Qırğız Respublikasının Nazirlər Kabineti, Çin Xalq Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2024-cü il iyunun 6-da imzalanmış Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin təşviqi istiqamətində birgə əməkdaşlıq üzrə tarixi Sazişi alqışlayırlar;

**8.** Regional ticarət həcminin davamlı artdığını məmnunluq hissi ilə qeyd edirlər, qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensialına çatdırılması üçün konkret tədbirlərin görülməsi barədə razılığa gəlirlər, beynəlxalq öhdəliklərə riayət etməklə ticarətdə texniki maneələrin aradan qaldırılmasının və DEPA (Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi) mətni üzrə müzakirələrin tamamlanmasının sürətləndirilməsinin vacibliyini vurğulayırlar;

**9.** İqlim dəyişikliyi və onun türk dövlətlərinin dayanıqlı inkişafına təsirlərinə birgə iqlim fəaliyyəti yolu ilə cavab verilməsində daha sıx əməkdaşlığın zəruriliyini vurğulayırlar;

**10.** Günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına diqqət yetirməklə dayanıqlı inkişafın təşviq edilməsi və rəqəmsal infrastruktur, ictimai xidmətlər və dayanıqlı təcrübələrin təkmilləşdirilməsi yolu ilə həyat keyfiyyətini yaxşılaşdırmaq, iqtisadi artımı gücləndirmək, iqlim fəaliyyətini dəstəkləmək üçün türk dövlətləri çərçivəsində "ağıllı şəhər və kəndlər" konsepsiyasının iqlimə davamlılığının inkişafını təşviq edir və bu xüsusda TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasının və TDT-nin İqlimə Davamlı Kəndlər Forumunun yaradılması üzrə müzakirələrin aparılması təşəbbüsünü irəli sürürlər;

**11.** Bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla türk dövlətləri arasında enerji sahəsində strateji tərəfdaşlığın

əhəmiyyətini vurğulayır və Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsində (Yaşıl dəhliz) son inkişafları alqışlayırlar;

**12.** Türk dövlətlərində bərpaolunan geniş enerji potensialından, üzv dövlətlər arasında və üçüncü ölkələrə bərpaolunan mənbələrdən də daxil olmaqla elektrik enerjisinin ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişafı imkanlarının istifadəsi məqsədilə onların enerji sistemləri arasında enerji inteqrasiyası və qarşılıqlı əlaqəsi üzrə sıx əməkdaşlığa çağırırlar;

**13.** Təcrübələrin ötürülməsi məqsədilə TDT üzvlərinin aidiyyəti qurumları arasında ticarət, enerji, nəqliyyat kimi ümumi maraq doğuran sahələrdə institusional quruculuq mexanizminin (Tvinninq) inkişafını təşviq edirlər;

**14.** TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsinin fəal yerinə yetirilməsini alqışlayırlar;

**15.** Rəqəmsal hökumət (e-Hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsi üzrə türk dövlətləri arasında əməkdaşlıq və mübadilələri; elektron sənəd mübadiləsi üçün e-imza/rəqəmsal imza mexanizmlərinin uyğunlaşdırılmasını və onlayn dövlət xidmətlərinin inteqrasiyasını; kiberinsidentlərə və kiberhücumlara qarşı ümumi kibertəhlükəsizliyin qorunması tədbirlərini; süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulmasını; məlumat mərkəzlərinin və bulud infrastrukturlarının yaradılması üzrə siyasət və ən yaxşı təcrübələrin inkişaf etdirilməsini təşviq edirlər;

**16.** Süni intellekt layihələrinin uğurlu inkişafı üçün üzv dövlətlərin böyük dil modelinin yaradılmasının və mədəniyyətlərarası ünsiyyəti asanlaşdırmaq, təhsil platformalarını inkişaf etdirmək, səhiyyə texnologiyalarını təkmilləşdirmək və iqtisadi inteqrasiyanı təşviq etmək üçün böyük dil modeli formasında ümumi platformadan istifadənin vacibliyini qeyd edirlər;

**17.** Milli kosmik proqramların potensialının və rəqabət qabiliyyətinin artırılması məqsədilə kosmik layihələrin birgə inkişafı üçün səylərin birləşdirilməsinin, texnoloji inkişaf səviyyəsinin və birgə layihələrin rəqabət qabiliyyətinin artırılması üçün kosmik texnologiyalar sahəsində kompleks inkişafın vacibliyini qeyd edirlər;

**18.** İqlim dəyişikliyi çağırışlarına regional və qlobal reaksiyanın gücləndirilməsi üçün ətraf mühitin mühafizəsi və iqlim gündəliyi sahəsində əməkdaşlıq etmək məqsədilə üzv və müşahidəçi dövlətlərin müvafiq orqanlarının əməkdaşlıq mexanizminin yaradılması ilə bağlı Katibliyə tapşırıq verirlər;

**19.** 2023-cü ildə Astana Zirvə görüşündə bəyan edilmiş, nazirlər səviyyəsində daimi Türk Ekoloji Forumunun yaradılması ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü və onun Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 2024-cü il noyabrın 11-22-də Bakının ev sahibliyi edəcəyi 29-cu sessiyası (COP29) çərçivəsində keçirilməsi nəzərdə tutulan ilk iclasını alqışlayırlar;

**20.** 2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına ev sahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirlər;

**21.** BMT-nin İqlim Dəyişmələri Konfransının illik təqvimində "Dağlar və İqlim" adlı yeni qlobal dialoqun yaradılması təşəbbüsünün təşviqində iştirak etməyə hazır olduqlarını bildirir və "Dağ gündəliyinin irəlilədilməsi üçün fəaliyyətə çağırış: UNFCCC çərçivəsində əsas dağlar" sənəd layihəsinə qoşulmağı nəzərdən keçirirlər;

**22.** Qazaxıstanın 2026-cı ildə BMT və beynəlxalq təşkilatların himayəsi altında Regional İqlim Sammitinə ev sahibliyi etmək təşəbbüsünü alqışlayırlar;

**23.** 2024-cü avqustun 9-da Astanada Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının 6-cı Məşvərət Görüşünün keçirilməsində Qazaxıstan Respublikası Hökumətinə uğurlar arzulayırlar;

**24.** Üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətlərini bir daha vurğulayır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verirlər;

**25.** Qəzzada baş vermiş humanitar fəlakət vəziyyətinə görə dərin narahatlığını ifadə edir və mülki əhalinin seçimsiz hədəfə alınmasını qınayır; dərhal və daimi atəşkəsin təmin edilməsinə, Qəzzaya maneəsiz humanitar yardımın göstərilməsinə, eləcə də beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tam riayət edilməsinə; daha sonra İsrail-Fələstin münaqişəsinin iki dövlətli həll əsasında ədalətli və uzunmüddətli həllinə çağırırlar;

Paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir, Fələstin Dövlətinin BMT-yə üzvlüyə yararlı olduğunu və buna görə də onun BMT-yə üzvlüyə qəbul edilməli olduğunu müəyyən edən BMT Baş Assambleyasının 2024-cü il 10 may tarixli qətnaməsinin qəbul olunmasını məmnuniyyətlə alqışlayır; habelə bunu etməyən bütün ölkələri Fələstin Dövlətini tanımağa çağırırlar;

**26.** Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələrini alqışlayırlar;

**27.** Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlığı və artan sinerjini təqdir edirlər;

**28.** Qırğız Respublikası 2024-cü il oktyabrın 24-də Bişkekdə TDT-nin 11-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğunu bir daha təsdiq etdi;

**29.** Hökumət Başçıları/Vitse-Prezidentlər Şurasına dair Qırğız Respublikasının təklifini nəzərə alırlar;

**30.** Türk dünyasının nizamnaməsi ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü dəstəkləyir və Katibliyə Bişkekdə keçiriləcək növbəti Zirvə görüşündə qəbul edilməsi üçün sənəd layihəsinin yekunlaşdırılması tapşırığını verirlər;

**31.** TDT çərçivəsində iqtisadi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli mərhələsi kimi Macarıstanın Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişə qoşulmasını alqışlayırlar;

TDT-nin Dövlət başçıları Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə Türk dünyasının birliyi, həmrəyliyi, təhlükəsizliyi və rifahına verdiyi böyük və davamlı töhfəsinə, TDT-nin vahid ruhunun gücləndirilməsində qətiyyətli liderliyinə və Şuşada qeyri-rəsmi Zirvə görüşündə uğurla yekunlaşan müzakirələrə sədrlik etdiyinə görə dərin təşəkkür bildirir, Azərbaycan Hökumətinin və xalqının səmimi qonaqpərvərliyini yüksək qiymətləndirirlər.

TDT-nin Baş katibinə bu Bəyannamədə nəzərdə tutulan qarşılıqlı fəaliyyəti və birgə səyləri əlaqələndirmək tapşırığı verilir.

2024-cü il iyulun 6-da Şuşa şəhərində Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanmışdır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev**

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov**

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev**

**Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz.**

# HEYDƏR ƏLİYEV MİSSİYASI

## 55 il öncə milli inkişafın və tarixin ən qüdrətli Azərbaycanının təməli qoyuldu

XX yüzillikdə milli tariximizin və taleyimizin bir çox dönüş anları müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Heydər Əliyevin adı və parlaq əməlləri ilə bağlı olmuşdur. Heydər Əliyev şəxsiyyəti o qədər böyük, o qədər misilsizdir ki, bu gün onun xalqımız və dövlətçiliyimiz qarşısındakı xidmətlərindən danışarkən, təkcə bu böyük şəxsiyyətin respublikamıza rəhbərliyi illərində həyata keçirilmiş nəhəng işləri və nailiyyətləri qeyd etməklə kifayətlənmək mümkün deyil.

Onun ölməz ideyaları, xalqımıza miras qoyduğu zəngin irs Azərbaycanın inkişaf salnaməsində əbədiyaşarlıq hüququ qazanmışdır. İllər sürətlə ötüb keçsə də Heydər Əliyevin adı, onun misilsiz əməlləri xalqımızın və tarixin yaddaşından əsla silinməyəcək və Azərbaycan yaşadıqca Heydər Əliyev də var olacaq!

## Azərbaycanı yenidən qurmaq taleyi

Öz xalqının taleyini dəyişdirən, onu dünyanın qabaqcıl xalqları sırasına çıxaran böyük şəxsiyyət və liderləri müasirlərindən fərqləndirən ən mühüm cəhətlərdən biri budur ki, onlar zaman və məkan fərq etmədən, situasiya və şəraitdən asılı olmayaraq, yalnız milli mənafe və maraqlara xidmət etmiş, xalqının inkişafı və parlaq gələcəyi naminə mümkün olan hər şeyi etmişdir. Belə liderlər təkcə bayraqdar kimi gələcəyə işıq tutmamış, həm də böyük əzmlə xalqının gələcəyini qurmuş, yaratmışlar. Ulu Öndər Heydər Əliyev də məhz belə bir qətiyyətli lider və rəhbər olmuşdur.

Heydər Əliyev bənzərsiz siyasət ustası, yüksək təşkilatçılıq bacarığına malik olan rəhbər, ən mürəkkəb zamanlarda belə doğru qərarları qəbul etmək gücündə olan böyük lider idi. Heydər Əliyevə nə sovet Azərbaycanında, nə də müstəqilliyin bərpasından sonra hakimiyyət olimpinin zirvəsinə yüksələrkən, sələflərindən heç də oturuşmuş düzənə, işlək mexanizmlərə malik bir sistem "miras" qalmamışdır. Əksinə, Ulu Öndər xaos, böhran içində olan siyasi, iqtisadi institutlar, ruhdan düşmüş xalq və gələcəyi ciddi suallar doğuran respublika təhvil almışdır. İstər keçmiş Sovet İttifaqı dövründə, istərsə də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizə rəhbərlik etdiyi illərdə Ulu Öndər Heydər Əliyevin həyat amalı xalqımıza ləyaqətlə xidmət etmək, onun firavan, xoşbəxt gələcəyini təmin etmək olmuşdur. O, bütün mənalı həyatını Azərbaycan xalqının xoşbəxt gələcəyinin təmin olunmasına həsr etmişdir. Heydər Əliyev harada olmasından, hansı vəzifədə çalışmasından asılı olmayaraq, onun nəbzi Vətənin nəbzi ilə bir vurmuş, bütün istedadını, bilik və bacarığını milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə sərf etmişdir.

Ulu Öndər Heydər Əliyevin taleyinə Azərbaycanı qurmaq, yaratmaq yazılmışdır. O, xilaskarlıq, xalqını bəlalardan qorumaq

missiyasını nə qədər uğurla həyata keçirmişdisə, ölkəmizi kərpic-kərpic qurmaq, şəhərləri, kəndləri yaratmaq, abadlaşdırmaq vəzifəsini də eyni müvəffəqiyyətlə yerinə yetirmişdir. 1969-cu ilin iyul plenumu ərəfəsində Azərbaycan keçmiş ittifaq miqyasında ən geridə qalmış aqrar respublikalardan biri idi. Respublika həyatının bütün sahələrində ciddi geriləmə, iqtisadiyyat və sosial sahədə dərin böhran meyilləri baş vermişdi. 55 il öncə iyul ayının 14-də Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra isə vəziyyət köklü surətdə dəyişmiş, artıq 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin yüksək idarəçilik məharəti, yenilməz iradəsi, düşünülmüş və uzaqgörən fəaliyyəti sayəsində keçmiş ittifaqda ən qabaqcıl respublikalardan birinə çevrilmişdi. Bu, Heydər Əliyevin peşəkar siyasətçi və bacarıqlı rəhbər olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olan görkəmli dövlət xadimi olmasını təsdiqləyir. Onun rəhbərliyi ilə həyata keçirilən iqtisadi və sosial tədbirlər sayəsində respublikada iqtisadiyyatın bütün sahələrinin, elm və mədəniyyətin inkişafına, xalqın həyat səviyyəsinin əsaslı şəkildə yüksəldilməsinə nail olunmuşdur. Həmin illərdə Ümummilli Liderin təşəbbüsü ilə reallaşdırılan islahatların sayəsində Azərbaycan geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevrilmişdir.

Ulu Öndərin respublikamıza rəhbərliyinin birinci dövründə aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, səhiyyə müəssisələri tikilmiş, ən ucqar dağ kəndlərinə belə yollar salınmışdır. Məhz Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsalat sexləri və digər obyektlərin istifadəyə verilməsi ilə əhalinin yeni iş yerləri ilə təmin olunması həyata keçirilmişdir. Bu dövrdə yaradılan yeni nəhəng sənaye obyektləri, neft, neft - kimya, maşınqayırma müəssisələri istehsal gücü baxımından keçmiş ittifaq miqyasında ən qabaqcıl yerləri tuturdu. Məhz o illərdə formalaşmış çox möhkəm sənaye potensialı və icra edilmiş infrastruktur layihələri bu gün də müstəqil Azərbaycana xidmət göstərir.

### 14 il ərzində gələcək müstəqilliyin möhkəm təməli yaradıldı

Heydər Əliyev milli mənsubiyyəti ilə fəxr edən və milli kimliyimizi qürur mənbəyinə çevirən böyük şəxsiyyət və lider olmuşdur. O, heç vaxt və heç bir halda milli məsələlərdə güzəşt etməmiş, xalqımızın milli, tarixi dəyərlərini, ənənələrini ləyaqətlə qorumuş və yaşatmışdır. Ona görə də biz Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edərkən, onun tarixi yaddaşın bərpası, xalqımızın milli ruhunun canlanması, milli özünüdərk istiqamətində atdığı addımları və qəbul etdiyi qərarları fəxrlə qeyd edirik. Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda və Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları

və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmış, minlərlə azərbaycanlı gənc SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilmiş, azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilmişdir. Çünki Heydər Əliyev gələcəyi görürdü, gələcəyi qururdu və bir gün həmin kadrlara xalqımızın ehtiyac duyacağını bilirdi. Ona görə də ciddi maneələrə baxmayaraq, milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə respublikamızda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb təşkil olundu. Ulu Öndər Heydər Əliyev bu məktəbin əhəmiyyəti barədə sonralar belə deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da".

Ulu Öndər həmin dövrdə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail oldu. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və digər hərbi məktəblərdə yetişən milli zabit kadrlarımızın Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində misilsiz igidliklər göstərmişlər.

Ulu Öndərin qətiyyəti nəticəsində Azərbaycan dilinin respublikanın dövlət dili olması ilə bağlı müddəa 1978-ci il Konstitusiyasına daxil edilmişdir. Ulu Öndərin azərbaycançılıq ideologiyası da xalqımızın və soydaşlarımızın milli birlik və həmrəyliyini təmin etmiş, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə azərbaycançılıq müstəqil dövlətimizin ideya əsasını təşkil etmiş, məhz Heydər Əliyevin rəhbərliyi ilə bu ideologiya dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Bu cəsarətli qərarlar Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, onun qətiyyətinin və dönməzliyinin Azərbaycan xalqının dünəni, bu günü və gələcəyindəki əvəzsiz yerini çox aydın ifadə edirdi.

Beləliklə, Ulu Öndərin 14 illik fəaliyyəti ilə təkcə ittifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməli, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının əsasları yaradılmışdır.

**Ürəyi daim doğma vətəni ilə birgə döyünürdü**

Ulu Öndər Heydər Əliyevin respublikamıza uğurla rəhbərliyi, Azərbaycanın Onun rəhbərliyi altında əldə etdiyi nəhəng nailiyyətlər, şübhəsiz ki, diqqətlə izlənilmiş, Ümummilli Liderin yüksək rəhbərlik və liderlik bacarığı, səriştəsi, üzərinə götürdüyü bütün vəzifələri müvəffəqiyyətlə həyata keçirməsi ittifaq mərkəzində hər kəsin diqqətini cəlb etmişdir. O, 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilmiş, SSRİ Nazirlər

Soveti sədrinin birinci müavini təyin edilmişdir.

Heydər Əliyev böyük bilik və təcrübəsi, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və yüksək işgüzarlığı ilə ətrafdakı hər kəsdən seçilir, həlli mürəkkəb görünən, ən mühüm layihələrə rəhbərlik məhz Ulu Öndərə həvalə edilirdi. Təkcə Heydər Əliyevin birbaşa rəhbərliyi ilə inşa olunan və cari ilin aprel ayında 50 illik yubileyi qeyd edilən Baykal-Amur Magistralının adını çəkməklə biz onun bu vəzifədə olarkən, hansı səviyyədə böyük işlərə imza atdığının bir daha şahidinə çevrilirik.

Əlbəttə, SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasının ən üst pillələrində bir azərbaycanlının təmsil olunması çox qürurverici hadisə idi. Bu eyni zamanda Ulu Öndər Heydər Əliyev üçün respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanmaq, öz dəstəyini göstərmək üçün böyük imkan idi. Əgər biz o illərdə Heydər Əliyevin respublikamızın inkişafı üçün gördüyü işləri, onun dəstəyi ilə həyata keçirilən tədbirləri nəzərdən keçirsək, bir daha onun xalqını nə qədər sonsuz bir məhəbbətlə sevdiyinin şahidi olarıq. Ona görə də belə bir haqlı və obyektiv fikri söyləyə bilərik ki, Heydər Əliyev harada olmasından asılı olmayaraq, onun ürəyi doğma vətəni ilə birgə döyünürdü. Onun mərkəzi hakimiyyətdə yüksək vəzifə tutması ermənilərin də Azərbaycanla bağlı məkrli planlarının həyata keçməsinə mane olur, ölkəmizlə bağlı bədnam niyyətlərin qarşısına sədd çəkirdi. Heç də təsadüfi deyil ki, 1987-ci il oktyabrın 21-də Heydər Əliyevin Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz olaraq tutduğu vəzifədən istefa verməsindən sonra Azərbaycana qarşı təxribatlar genişlənmiş və ölkəmizə qarşı işğalçılıq siyasəti baş qaldırmışdır.

**Xalqın böyük hamisi**

Ötən əsrin sonlarında baş verən bir sıra hadisələr bütün dünya nizamına əsaslı şəkildə təsir göstərmişdir. Keçmiş ittifaqın süqutu və dağılması, yeni müstəqil dövlətlərin dünya xəritəsinə çıxması tamamilə yeni situasiya yaratmışdı. Azərbaycan xalqı da əlverişli tarixi şəraitdən istifadə edərək, illərdir qəlbində yaşatdığı müstəqillik arzusunu gerçəkləşdirdi.

Təəssüf ki, Azərbaycan xalqı bu proseslərdən ən çox zərər çəkən, faciəvi hadisələrlə üz-üzə qalan xalqlardan biri olmuşdur. 1990-cı ilin 20 Yanvar hadisələri isə Azərbaycan xalqına qarşı törədilən növbəti qanlı təxribat idi. 20 Yanvar hadisələrinə ilk etiraz səsini ucaldan, informasiya blokadasını yararaq, baş verən hadisələri beynəlxalq ictimaiyyətə çatdıran məhz Heydər Əliyev olmuşdur. Həmin vaxt özünün və ailə üzvlərinin həyatlarına təhdidlərə, təzyiqlərə baxmayaraq, Ulu Öndər hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqımıza qarşı törədilən cinayəti pisləmiş, onun törədilməsi səbəblərini, təşkilatçılarının, günahkarlarının adlarını açıq mətnlə bəyan etmiş və Azərbaycan xalqı ilə həmrəyliyini ifadə etmişdir. Bununla da Ümummilli Lider tərəfindən bütün dünya ictimaiyyəti bu böyük faciə haqqında tam detalları ilə məlumatlandırıl-

mışdır. Heydər Əliyev qanlı cinayətə etiraz olaraq, daha bir cəsarətli addım ataraq, Kommunist partiyasının sıralarını tərk etmişdir. Dövrün şərtlərini nəzərə alanda əmin olursan ki, bu qərarı yalnız Heydər Əliyev kimi böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan, bütün varlığı ilə xalqını sevən qətiyyətli bir lider qəbul edə bilərdi və Azərbaycan xalqı Ulu Öndərin timsalında özünün böyük hamisini görürdü.

Heydər Əliyev kimi nəhəng şəxsiyyətlərin qəbul etdiyi qərarlar, atdıqları addımlar öz xalqlarının taleyini dəyişir. Onun Naxçıvana qayıdışını da biz taleyin hökmü kimi qiymətləndirə bilərik. Bu dönüş həm Onun siyasi fəaliyyətinin, həm də xalqımızın tarixinin növbəti parlaq səhifələrini təşkil edir. Ulu Öndər blokada altında olan, məhrumiyyətlərlə yaşayan Naxçıvanı xilas etməklə yanaşı, eyni zamanda böyük rəhbərin yandırdığı müstəqillik, azadlıq məşəli bütün respublikamızın üzərinə işıq saldı və Azərbaycanın müstəqilliyə gedən yolda ilk addımları məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda atıldı. Ona görə də Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövrünü Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik, Azərbaycanın tarixinə parlaq hərflərlə yazılmış mərhələ hesab edirik.

Heydər Əliyev Naxçıvanda dövlətçilik tarixi baxımından çox qısa bir dövrdə bir xalqın, millətin taleyinə yön verən mühüm qərarlar qəbul etdi. Məhz bu dövrdə Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin – ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edilmiş, eyni qərarın Azərbaycan Ali Soveti tərəfindən də qəbul olunması üçün vəsatət qaldırılmış, Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından "sovet" və "sosialist" sözlərinin çıxarılması haqqında qərar qəbul etmişdir. 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis olunması haqqında qərar qəbul etmişdir. Həmin dövrdə SSRİ-nin saxlanması məqsədilə respublikada keçirilən referendum Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda boykot edilmiş, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Azərbaycan Ali Sovetinin 1991-ci il sentyabrın 8-nə təyin etdiyi prezident seçkilərinin muxtar respublikanın ərazisində keçirilməsi dayandırılmışdır.

Bu dövrdə muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüş, siyasi böhran aradan qaldırılmış, iqtisadi islahatlar həyata keçirilmiş, hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirilmiş, keçmiş sovet ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb Milli Ordu hissələrinə verilmiş, Naxçıvan erməni işğalından xilas olmuş və muxtar respublikanın iqtisadi-sosial blokadadan çıxarılması üçün ilk və sağlam addımlar atılmışdır.

Azərbaycanın müasir siyasi sisteminin əsasları da məhz həmin dövrdə yaradılmışdır. 1992-ci ilin noyabr ayının 21-də Azərbaycanın siyasi palitrasının avanqardı və lokomotivi olan Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizə yeni siyasi dəyərlər, siyasi mədəniyyət gətirmişdir. YAP Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik ənənələrin formalaşmasında flaq-

man olmuş, ölkəmizin dövlətçilik sütunlarının yaradılmasına və möhkəmləndirilməsinə yönəlmiş dövlət siyasətinə özünəməxsus töhfələr vermişdir.

**Dövlət müstəqilliyinin əbədiliyinin və dönməzliyinin təmin edildiyi taleyüklü mərhələ**

Muxtar respublikada Azərbaycanın dövlətçilik tarixi baxımından örnək qərarlar qəbul edilib, Heydər Əliyevin liderliyi ilə möhtəşəm addımlar atılarkən, təəssüf ki, mərkəzdə və respublikanın digər ərazilərində hadisələr ölkəmizin gələcəyi baxımından tamamilə bədbin əhvali-ruhiyyədə davam edirdi. Səriştəsiz və bacarıqsız iqtidarların yanlış siyasəti nəticəsində respublika həyatının bütün sahələrində dərin böhran yaranmış, ölkədə siyasi və hərbi vəziyyət daha da gərginləşmişdir. Hərbi hissələrdə nizam-intizamın zəifləməsi, orduda vahid komandanlığın və təşkilatçılığın olmaması Ermənistanın işğalçılıq siyasətinin və ərazilərimizin işğalının daha da genişlənməsinə gətirib çıxarmışdı. Respublikanın bir çox rayonlarında qanun pozuntuları, hakimiyyətə yaxın qrupların özbaşınalığı, hərc-mərclik və zorakılıq halları artmışdı. Azərbaycan bir dövlət kimi yox olmaq təhlükəsi ilə üzləşmişdi.

Heydər Əliyevin siyasi portretinin mühüm cizgilərindən birini onun xalqı vahid amal və ideya ətrafında birləşdirmək bacarığı təşkil etmişdir. O inandırmaq, birləşdirmək gücü sayəsində cəmiyyəti ümummilli məqsədlər naminə səfərbər etməyə nail olmuşdur. Azərbaycan xalqı özünün böyük oğlu Heydər Əliyevi sevirdi, ona inanırdı. Bu sevgini, inamı da Ulu Öndər Heydər Əliyev xalqımız qarşısındakı əvəzsiz xidmətləri ilə qazanmışdır. Ulu Öndər bütün həyatını xalqına həsr etmiş, onun parlaq gələcəyi naminə misilsiz fədakarlıqlar göstərmiş böyük vətənpərvər idi. O, parlaq siyasi fəaliyyətinin hər bir mərhələsində, fərqli ictimai-siyasi, iqtisadi, mədəni və ideoloji şəraitdə xalqımıza və Azərbaycana ləyaqətlə xidmət etmişdir. Ona görə də xalqımız ən çətin günlərində yenə də Heydər Əliyevə üz tutmuş, Ulu Öndər də xalqımızın etimadını ləyaqətlə doğrultmuşdur. 1993-cü il iyun ayının 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur.

1993-cü ilin iyun ayına qədər ölkəmizdə baş verən hadisələr bir daha Ümummilli Lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir".

Doğrudan da, əgər müstəqilliyin bərpası zamanı Azərbaycanda hakimiyyət sükanı arxasında Ulu Öndər Heydər Əliyev olsaydı, şübhə yoxdur ki, ölkəmiz o dövrdə üzləşdiyi çətinliklərdən, xaos və böhrandan xilas ola, bu gün gəldiyi zirvələri daha qısa müddətə qət edə bilərdi. Və yaxud əgər 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər hakimiyyətə qayıtmasaydı, bəlkə də Azərbaycan müstəqil dövlət olaraq dünya xəritəsindən tamamilə silinmiş ola bilərdi. Nə yaxşı ki, xalqımız Heydər Əliyev kimi bir xilaskara

malik idi və öz dövlətçiliyini qoruyub saxlaya bildi. Möhtərəm Prezident İlham Əliyev də Ulu Öndərin hakimiyyəti dövrünü Azərbaycanın sabitlik və inkişaf dövrü kimi xarakterizə edərək, bu illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələ kimi dəyərləndirmişdir.

**Yeni strateji inkişaf mərhələsi**

1993-cü ildə Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edilmişdir. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlanmış və müvəffəqiyyətlə icra edilmişdir. Heydər Əliyev Azərbaycanın strateji hədəflərini dəqiqliklə müəyyənləşdirmiş, yeni, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesinə başlayarkən, ölkəmizin gələcək inkişafı baxımından ən doğru qərarı qəbul edərək, ölkəmizin demokratik inkişaf və bazar iqtisadiyyatı yolu ilə irəliləyəcəyini bəyan etmişdir.

Bu dövrdə dövlət müstəqilliyini təhdid edən bütün ünsürlər və risklər zərərsizləşdirilmiş, davamlı və sarsılmaz əsaslara malik sabitlik təmin edilmişdir. Bu isə həyatın bütün sahələrində çoxşaxəli inkişaf trendlərinin yaradılmasına imkan vermişdir. Ulu Öndərin rəhbərliyi ilə ölkədə yeni iqtisadiyyat quruculuğuna başlanılmış, ölkənin iqtisadi resursları yeni islahatlar strategiyasının reallaşdırılması üçün səfərbər olunmuşdur. Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir.

Sosial sferada ardıcıl tədbirlərə başlanılmış, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmişdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkənin yeni enerji strategiyasının icrasına start verilmiş, bu sənəd ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycana xarici investisiyaların cəlb olunmasına şərait yaratmışdır.

Azərbaycanın uğurlu xarici siyasət strategiyası müəyyənləşdirilmiş və icra olunmuş, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu möhkəmlənməyə başlamış, məhz Ulu Öndər Heydər Əliyevin çox və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişmiş, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl tədbirlər reallaşdırılmış, ölkədə insan hüquq və azadlıqlarının, qanunun aliliyinin başlıca prinsiplərinin bərqərar olması üçün möhkəm əsaslar yaradılmışdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyası qəbul edilmişdir. Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, fikir və ifadə azadlığı təmin edilmiş, demokratik institutların formalaşdırılması və inkişafına etibarlı zəmin yaranmışdır.

Beləliklə, 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin liderliyi ilə Azərbaycan özünün qurtuluş konsepsiyasını müvəffəqiyyətlə həyata keçirərək, inkişaf yollarına qədəm qoymuşdur.

**Müasir, qüdrətli Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir**

Azərbaycanın qazandığı hər bir nailiyyətin altında böyük öndərin parlaq imzası vardır. Onun ən böyük xidmətlərindən biri isə, şübhəsiz ki, başlatdığı islahatların, əldə olunan nailiyyətlərin qarşıdakı dövrdə, yeni əsrdə və yeni minillikdə davamlılığının, uğurlu dövlət idarəçiliyinin, siyasi varisliyin hüquqi, demokratik yolla təmin olunmasının həyata keçirilməsidir. Bu, növbəti tarixi seçim anında xalqımızın və onun liderinin düzgün strateji qərar qəbul etməsinin əyani təsdiqidir.

2003-cü ildə "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir", – deyən Heydər Əliyev ideyalarının, siyasi xəttinin ən layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirmiş, özünün çoxəsrlik dövlətçilik tarixində ən böyük nailiyyətləri qazanmışdır. Möhtərəm Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı möhkəm təməllərə istinad edərək, ölkəmizə və xalqımıza özünün çoxəsrlik dövlətçilik tarixinin ən möhtəşəm nailiyyətlərini qazandırmışdır. 1993-cü ildə Heydər Əliyev qətiyyəti, onun səriştəsi və bacarığı, xalqın bu böyük şəxsiyyətin ətrafında yumruq kimi birləşməsi sayəsində müstəqilliyini xilas edən, həqiqi müstəqilliyinə qovuşan Azərbaycan bu gün ən sürətlə inkişaf edən ölkələrdən biridir.

Sözü imzası qədər dəyərə malik, bütün dünyada hörmət və rəğbətlə qarşılanan, bu gün regionun gündəliyini diktə edən Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu irsin qorunmasında, onun ideyalarının həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi və Ulu Öndərin adını daşıyan fondun misilsiz xidmətləri vardır. Hörmətli Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi fond Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsinə, ölkəmizin daha da inkişafına müstəsna töhfələr verir.

Ata vəsiyyətini yerinə yetirərək torpaqlarımızı azadlığına qovuşduran, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin özü qədər sevdiyi Azərbaycan onun görmək istədiyi zirvələri inamla fəth edir. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir.

**Sahibə QAFAROVA,**
**Milli Məclisin Sədri**

# TARİXİ UĞURLARIN SARSILMAZ TƏMƏLİ

**Azərbaycan xalqı bu gün milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan Heydər Əliyev siyasətinin təntənəsi olaraq davamlı yüksəlişin qürurunu yaşamaqdadır. Bu ülvi hissləri bizlərə bəxş edən 1993-cü ildə Ümummilli liderimizin qətiyyəti sayəsində Azərbaycanın çağdaş təqviminə qızıl hərflərlə yazılmış milli qurtuluş tarixidir. Vətən müharibəsində qazandığımız möhtəşəm tarixi Zəfərin işığında və bütövləşmiş, suveren Azərbaycanın reallıqları fonunda bu həqiqət daha mükəmməl siyasi baxışların subyektinə çevrilir.**

1993-cü ilin 15 iyunu – Qurtuluş Günü Heydər Əliyevin Bakıya siyasi rəhbərliyə qayıdışı idi. Amma Ulu öndərin Moskvadan Azərbaycana qayıdışı hələ 1990-cı ilin yayında baş tutduğundan Milli Qurtuluş Gününə dövlət quruculuğu baxımından məhz o tarixi hadisələr fonunda qiymət verilməlidir. Heydər Əliyevin sovet rəhbərliyində vəzifədən kənarlaşdırılması ilə paralel olaraq həm onun özünə qarşı, həm də Azərbaycana qarşı qərəzli münasibət başladı. Ulu öndərin Sovet Azərbaycanında rəhbər olduğu dövrdə qanuni cəza almış adamlar Moskvada yaşayan bir çox ermənilərlə əlbir olub, onun əleyhinə saxta anonim məktublar hazırlayırdılar. Erməni lobbisi bütövlükdə və Azərbaycanda millətinə, xalqına, Vətəninə nankor baxan, xain çıxan adamlar fürsətdən istifadə edib cinayətkar erməni lobbisi ilə birləşərək Heydər Əliyevin əleyhinə iş aparırdılar.

1990-cı ildə bütün təhdidlərə və təzyiqlərə baxmayaraq Azərbaycana qayıdarkən Heydər Əliyev, nə qədər acı olsa, Bakıda Moskvadakından daha təhlükəli təqiblərlə üzləşdi. Ona qarşı sui-qəsd təhdidləri açıq xarakter aldı və o, Naxçıvana yollandı. Beləliklə, Heydər Əliyevin Moskvadan qayıdışı, təəssüf ki, o mərhələdə Azərbaycanın qurtuluşu ilə tamamlanmadı. 1990-cı il noyabrın 17-də muxtar respublikanın Ali Məclisinin sədri seçildikdən sonra dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev nadir liderlərə məxsus fövqəladə və bənzərsiz keyfiyyətləri ilə yüksək səviyyəli dövlətçilik və idarəçilik nümunəsini ortaya qoydu, Naxçıvanı erməni işğalının real təhlükəsindən xilas etdi.

Siyasi mübarizənin sivil qaydalarını, siyasi mədəniyyət formulunu cəmiyyətə təqdim edən, Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının ideoloji sütununa çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması da Ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə təsadüf edir və onun adı ilə bağlı olan ən əhəmiyyətli siyasi və tarixi hadisə kimi dəyərləndirilməlidir.

Növbəti mərhələdə məhz Moskvanın təşəbbüsü ilə SSRİ-nin dağıdılması nəticəsində hətta Rusiya Federasiyası da öz suverenliyi haqqında Konstitusiya Aktını Azərbaycandan əvvəl qəbul etmişdi. Yəni bu şəraitdə artıq Heydər Əliyev kimi təcrübəli bir dövlət adamının Azərbaycanın siyasi rəhbərliyinə qayıdışı vətənimizin mürəkkəbləşmiş bəlalardan qurtuluşu ola bilərdi.

Amma təəssüf olsun ki, vaxtilə, guya, Azərbaycanın müstəqilliyi mövzusunda müzakirələr aparan, əslində isə Qorbaçovun yenidənqurma siyasətinin yetişdirdiyi xəya-

nətkar kommunistlər və cəbhəçilər Heydər Əliyevin əleyhinə birləşmişdilər. Guya, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını müzakirə edən bu satqınlar əslində Heydər Əliyevin parlament rəhbərliyində təmsil olunmasına imkan verən müvafiq Konstitusiya maddəsinə qarşı çıxırdılar. Bununla da Azərbaycan xalqı tarixi qurtuluş imkanından o mərhələdə də məhrum oldu.

Ona görə də Sovet respublikalarının öz dövlət müstəqilliklərini elan etməsi fonunda ən faciəvi və acınacaqlı durum məhz Azərbaycanda yarandı. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində postsovet respublikalarında, o cümlədən Qazaxıstanda, Özbəkistanda, Ukraynada təcrübəli şəxslər rəhbərliyə gəldikləri halda, Azərbaycanda, öz vətənində Heydər Əliyev kimi dünya miqyaslı fenomen şəxsiyyət, xalqın istəyinin əleyhinə olaraq, ali siyasi rəhbərlikdən kənarda saxlanıldı. Ulu öndər isə bütün bu təhdidlərə baxmayaraq məharət və cəsarətlə bu milli xəyanətkarların yaratdıqları maneələri aşırdı. Çünki onun gücü başqaları kimi vəzifədə deyil, polad iradəsində və xalqın ona inamında idi.

Sonrakı hadisələr isə daha faciəvi oldu. 1992-ci ildə cəbhəçilərin artıq müstəqilliyini bərpa etmiş Azərbaycanda hakimiyyəti ələ keçirməsi ilə bolşeviklərin 1920-ci ildə Xalq Cümhuriyyətini zəbt etməsi arasında mahiyyətcə fərq yox idi. Əgər var idisə, bu da əsrin əvvəlində Sovet Azərbaycanının, heç olmasa, Qarabağı qoruyub saxlamağa nail olması idi. Bu dəfə isə həm Qarabağ işğal olundu, həm də ölkə iqtisadiyyatı dağıdıldı.

Hələ o zaman Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdə idi ki, əgər Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsaydı, nə Qarabağ işğal olunardı, nə də ölkə müstəqilliyinin ilk illərində böhran yaşayardı. Təəssüf ki, biz daha əvvəl bu real tarixi qurtuluş şanslarından yararlana bilmədik və bunun acı nəticələrini gördük.

1993-cü ilin iyununda ölkədə artıq vətəndaş müharibəsi təhlükəsi yarandı. Şuşanı və Laçını düşmənə peşkəş etməklə hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü bu dəfə – 1993-cü ilin iyul-avqust aylarında digər rayonların işğalına şərait yaratmaqla hakimiyyətdə qalmaq kimi mənfur niyyətlərini həyata keçirmək istəyirdilər. Prezident İlham Əliyev Ulu öndərin anadan olmasının 101-ci ildönümündə – mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışında şəhərə köçmüş ilk sakinlər qarşısında çıxış edərkən bir daha və bu hadisələrə yeni reallıqlar kontekstində siyasi qiymət vermiş və “cəbhəçilərin” antimilli mahiyyətini ifşa etmişdir: “Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər... O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün tör-töküntüləri, onların böyük əksəriyyəti bizim Zəfərimizə sevinməyiblər, əksinə peşman olublar. Bizim Qələbəmizə bu günə qədər kölgə salmağa çalışırlar, ermənilərlə əlbir olub bizim Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışırlar...”

O mərhələdə dövlət idarəçiliyində ən böyük maneə ondan ibarət idi ki, Heydər Əli-

yev parlament rəhbərliyində olsa da, orduda və yerlərdə real səlahiyyət xəyanətkar AXC – Müsavat cütlüyünün və kriminal qruplaşmaların əlində idi. Lakin bütün bu təhdidlərə baxmayaraq Ulu öndər ölkədəki sağlam qüvvələri toplayaraq Qarabağda 1993–94-cü ilin qış aylarında uğurlu Horadiz əməliyyatı keçirdi. Zaman gəldi, Azərbaycan ordusu bu uğuru 2016-cı ilin aprel döyüşlərində təkrarladı və 2020-ci ildə isə Ali Baş Komandan Qarabağı işğaldan tam azad etdi.

Beləliklə:

– Milli Qurtuluş Qarabağın işğaldan qurtuluşuna aparan yolun başlanğıcı oldu;

– Azərbaycan o illərdə özünə yad populist, qaragüruh qüvvələrdən qurtularaq Heydər Əliyev dövlətçilik və azərbaycançılıq təfəkkürünə qayıtdı;

– Azərbaycan xarici və daxili düşmənlərin müdaxiləsinə son qoyaraq tarixi hadisələrin gedişatını öz təbii axarına qaytardı;

– Azərbaycan demokratiya şüarları ilə hakimiyyətə gəlmiş diktatura rejimindən qurtulmuş oldu;

– Azərbaycan xalqı qəlbində yaşatdığı azadlıq və müstəqillik simvolu – Heydər Əliyev ilə yenidən qovuşdu;

– Ulu öndər Heydər Əliyevin qayıdışı və Milli Qurtuluşla nəhayət ki, Azərbaycanda əsl milli müstəqil hakimiyyət quruldu.

– Milli Qurtuluş, nəticədə, dövlət quruculuğumuzun uğuru kimi müasir Azərbaycan cəmiyyətini siyasi həmrəylik dəyəri üzərindən vahid dövlətçilik mövqeyinə daşıdı.

Mühüm qənaətlərdən biri budur ki, Ulu öndərin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri üçün ən böyük xidmətlərindən biri siyasi varisliyi təmin etməsidir. O, özündən sonra Azərbaycan dövlətini zirvələrə daşıyacaq Lider yetişdirməklə dövlətçilik tariximizə ən böyük töhfələrindən birini vermiş oldu. Prezident İlham Əliyevin müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində bu gün Azərbaycan regional güc mərkəzinə və Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevrilmişdir. Gerçək dövlət müstəqilliyinin təmin edilməsi və ərazi bütövlüyünün bərpası dövlətçilik tariximizin qızıl səhifələridir.

Tarixi paralellər aparsaq, əmin olarıq ki, əgər müstəqilliyin ilk onilliyində Prezident Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini xilas etmişdisə, sonrakı 2 onillikdə xalqın etimadına və ordumuzun gücünə güvənən dövlət başçısı İlham Əliyev ölkəni ərazi bütövlüyünün itirilməsi təhlükəsindən qurtardı, Qarabağ da daxil olmaqla ölkənin bütün ərazisində onun suverenliyini və konstitusiya quruluşunu təmin etdi. Əgər Ulu öndər Azərbaycan xalqını parçalanmaqdan qorumuşdusa, Prezident İlham Əliyev bütün dünya azərbaycanlılarının həmrəyliyinə yeni nəfəs verdi, yüz minlərlə qaçqın və köçkün vətəndaşımızın doğma yurd-yuvalarına böyük qayıdışının "yol xəritəsini" tərtib etdi. Dövlətçilik prinsipləri baxımından Milli Qurtuluş kimi sarsılmaz təməl üzərində inkişaf etmiş və məntiqi ardıcıllıqla bir-biri ilə üzvi surətdə bağlı olan bu hadisələr Azərbaycan tarixinin çağdaş mərhələsinin ən şərəfli səhifələridir.

**Əli HÜSEYNLİ,**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin deputatı,**
**Hüquq siyasəti və dövlət**
**quruculuğu komitəsinin sədri**

# ÇAĞDAŞ TARİXİMİZƏ QIZIL XƏTLƏ YAZILMIŞ GÜN

**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin liderlik fəaliyyəti zirvə təşkil edir. Milli özünüdərkin, soykökə qayıdışın, tərəqqinin, müstəqilliyə aparan yolun başlanğıcı sayılan – qüdrətli rəhbərin hakimiyyətə gəldiyi və tarixə qızıl hərflərlə yazılmış 1969-cu ilin 14 iyul gününü xalqımız hər il qürur və qədirbilənliklə xatırlayır.**

Məhz həmin gün Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrü, özünəqayıdışın inkişaf mərhələsi başlayıb. Hakimiyyətə gəldiyi andan etibarən müdrik və uzaqgörən fəaliyyəti ilə müasir Azərbaycan tarixinin ən şanlı və parlaq salnaməsini yaratmış Heydər Əliyev mənalı ömrünü və misilsiz fəaliyyətini xalqının rifahına, tərəqqisinə həsr etmişdir. Bu qüdrətli insan tarixi fəaliyyəti ilə Ümummilli lider zirvəsinə yüksələrək sağlığında canlı əfsanəyə çevrilmişdir. Məhz bu tarixdən başlayaraq hər bir Azərbaycan vətəndaşı dövlət müstəqilliyinə qovuşacağına inanırdı. Ulu öndərin hakimiyyətinin birinci dövrü bu inamın təntənəsi olaraq xalqın milli dirçəlişi, eyni zamanda, özünüdərkin başlanğıcı kimi tarixə yazıldı.

Müstəqilliyi əldə etmək üçün möhkəm təməl yaradan amillərdən biri də iqtisadi inkişafın vacibliyidir. Heydər Əliyev də hakimiyyətinin birinci dövründə Azərbaycan iqtisadiyyatının gücləndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirdi. 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə SSRİ məkanında tanınan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmişdi. 1969–1982-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuş, milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı.

İqtisadiyyatın inkişafına təsir göstərən amillər sırasında elm, intellektual potensial da ön sırada dayanmışdı. Heydər Əliyev siyasətinin və uzaqgörənliyinin bir uğurlu nümunəsi də o illərdə 10 mindən çox azərbaycanlı gəncin Moskvanın, eləcə də keçmiş SSRİ-nin 170-dən artıq aparıcı elm və təhsil ocağına təhsil almağa göndərilməsi olmuşdu.

Ötən əsrin 70-80-ci illərində Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdı. Ümummilli liderin həmin illərdə başlatdığı hərbi quruculuq prosesi sonralar müstəqillik qazanan bir ölkənin ordusu üçün zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Bu gün 55 ilin möhtəşəm təntənəsi saysız-hesabsız belə xidmətləri yada salır.

Ulu öndər böyük cəsarət və siyasi müdrikliklə hakimiyyətə gəlişinin ilk aylarında “Xalq qəzeti”nin (o vaxtkı “Kommunist”) və Azərbaycan Dövlət Universitetinin 50 illik yubiley mərasimlərində Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxdığını bəyan etmiş və xalq arasında özünə böyük hörmət, məhəbbət qazanmışdı.

XX əsrin 90-cı illərinin əvvəlləri o zamankı iqtidarın zəif idarəçiliyi, xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdmələri, hakimiyyətsizlik, vətəndaş qarşıdurması ölkəni işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir vaxtda taleyin ümidinə buraxımış Naxçıvanda xilaskarlıq və milli dövlət quruculuğu missiyasını cəsarət və məharətlə gerçəkləşdirən ümummilli lider Heydər Əliyev ölkədə də xalqın ümid yerinə çevrilmişdi. Hamı xilas yolunu Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü.

Belə bir dövrdə xalq ayağa qalxaraq Naxçıvana – öz xilaskarına, Heydər Əliyevə üz tutdu, onu təkidlə Naxçıvandan Bakıya siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də Ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı çağdaş tariximizə Milli Qurtuluş missiyasının başlanğıcı kimi daxil odu. Onun dövlətçilik təcrübəsi, dünyagörüşü, düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində ölkəmiz təlatümlər burulğanından xilas oldu. Azərbaycanın müstəqilliyi qorundu, vətəndaş müharibəsinin qarşısı alındı.

Azərbaycan təməli 1969-cu ildə qoyulan inkişaf yoluna qayıtdı. Dahi şəxsiyyət o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdir: “Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir”.

Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii və milli sərvətlərindən, o cümlədən Azərbaycanın “qara qızılın”dan səmərəli istifadə məqsədilə “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafına, yerli və xarici investisiyalar cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, ən əsası isə yeni iş yerlərinin açılmasına imkan yaratdı. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb oldu.

Böyük iftixarla qeyd edilməlidir ki, Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsi, onun ayrılmaz tərkib hissəsi olan kitabxanalar və təhsil müəssisələri özünün həqiqi inkişaf yoluna qədəm qoydu. Bu inkişaf tendensiyaları içərisində ölkəmizdə kitabxana quruculuğu işi, yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanması məsələləri də önəmli yer tuturdu.

Məhz Ulu öndərin diqqət və qayğısı ilə o zaman ləğv edilmiş mədəniyyət obyektlərinin, eləcə də kitabxanaların bərpası, yenilərinin yaradılması, ixtisaslı kadrların çoxaldılması məqsədilə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə qəbul planının artırılması hakimiyyətə xilaskar və qurucu liderin gəlməsinin təzahürü idi.

Bir faktı da qeyd etmək yerinə düşər ki, əgər 1970-ci ildə respublikada 7,9 milyon nüsxə kitab fondu olan 3 min 749 məktəb kitabxanası var idisə, 1981-ci ildə onların sayı 4 min 238-ə, kitab fondu isə 25,2 milyon nüsxəyə çatmışdı.

Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində də böyük dəyişikliklər baş vermiş və bu, akademiya kitabxanasının işində də özünü göstərmişdir. Elmi kitabxana keçmiş SSRİ məkanında ilk dəfə mərkəzləşdirməyə nail olmuşdu. Ümummilli liderin təşəbbüsü ilə 1973-cü ildə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının 50 illik yubileyinin keçirilməsi də Heydər Əliyev fenomeninin respublikamızda kitabxana işinə qayğısının yüksək göstəricisi idi.

Ulu öndər hakimiyyətə ikinci dəfə gəlişindən sonra da həm milli dövlətçiliyi, həm mədəniyyət və təhsil sahəsini, o cümlədən kitabxana işini öz himayəsinə aldı. O, bununla zəngin kitab sərvətinin toplandığı kitabxanaları xalqın istifadəsinə qaytardı. Müstəqil Azərbaycanın kitabxana quruculuğunda atılan uğurlu addımların davamı kimi, "Özəlləşdirməyə münasibətdə dövlət mülkiyyət obyektləri"nin siyahısında kitabxanalar özəlləşdirməyə qadağan olunmuş obyektlər qrupuna aid edildi. 1998-ci ildə "Kitabxana işi haqqında" Qanun qəbul olundu.

Ulu öndər Heydər Əliyevin nəsillərə örnək olan zəngin və çoxşaxəli həyat yolu, xalqına təmənnasız xidməti, müstəqil Azərbaycanın əbədiliyini təmin edib, yeni və müasir Azərbaycan dövlətçiliyinin əsasını qoyub. Müasir və qüdrətli Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xalqımız qarşısında sadalamaqla bitməyən xidmətləri çoxəsrlik tariximizdə zəngin və şərəfli səhifələr yaratmışdır.

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini müdriklük və uzaqgörənliklə bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevə əmanət etmişdir. Bu gün ölkəmiz Heydər Əliyev siyasətinin ən layiqli davamçısının rəhbərliyi altında zəfərlər qazanaraq yeni tarix yazır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm qələbə və sonrakı qətiyyətli addımlar məhz 1969-cu ilin 14 iyulundan başlanan siyasətin nəticəsidir. Bütün bunlar 55 il əvvəl başlanmış yolda Azərbaycan milli dövlətçiliyinin təntənəsidir.

**Hüseyn HÜSEYNOV,**
**AMEA Mərkəzi Elmi**
**Kitabxanasının direktoru, dosent**

# *MÖHTƏŞƏM 55 İL:* DÖVLƏT MÜSTƏQİLLİYİNƏ APARAN MİLLİ İNTİBAH VƏ HƏRTƏRƏFLİ TƏRƏQQİ

**Ulu öndərin xalqa bəxş olunmuş ömrünün liderlik zirvəsi**

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişindən 55 il keçir. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda respublika rəhbərliyində kifayət qədər məsul vəzifədə çalışan, Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Heydər Əliyev MK-nın birinci katibi seçilərək respublikanın ali rəhbəri səviyyəsinə yüksəlmişdi.

Ötən 55 ilin tarixi dönə-dönə sübut etmişdir ki, Azərbaycanın sürətli yüksəlişinin, sovet imperiyası tərkibində qısa müddətdə böyük mədəni intibaha nail olaraq milli varlığını dirçəltməsinin və dünyaya tanıtmasının, 22 il sonra qazanılmış dövlət müstəqilliyinə hərtərəfli hazırlıqla qədəm qoymasının təməlləri bu tarixi başlanğıcdan qaynaqlanmışdır. Azərbaycan xalqı əsrlərdən gələn arzu-istəklərinin möhtəşəmliyi ilə Heydər Əliyev kimi milli bir fenomen – dünya siyasətinə boy verən nəhəng bir rəhbər yetişdirmişdi. Bu lider isə xalqının bəlalı taleyinə sahib çıxaraq onu milli haqlarına qovuşdurmaq üçün ilk gündən müqəddəs bir savaşa başlamışdı.

Ulu öndər Heydər Əliyev bir qərinəlik liderlik fəaliyyəti ilə dünya miqyasında tanınan, etiraf edilən görkəmli siyasət və dövlət xadimi olduğunu tarixə məharətlə həkk etmişdir. XX əsrin 90-ci illərində – Azərbaycan beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi ulu öndər Heydər Əliyevə görə tanıyırdılar. Ümummilli liderin parlaq zəkası, fitri istedadı, böyük enerjisi, uzaqgörənliyi sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Bir çox xalqlar, millətlər bizə qibtə edirdi ki, Heydər Əliyev kimi lideriniz var.

Heç şübhəsiz, Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlmiş, dünya inteqrasiya sisteminə qoşula bilmişdir. Xalqımızın Ümummilli liderinin Sovet İttifaqı kimi nəhəng bir dövlətdə yüksək vəzifə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutması isə Azərbaycana beynəlxalq nüfuz və hörmət qazandırmışdır.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev dünyanın bütün dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamış və fəaliyyət göstərmişdir. Ulu öndər hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir, xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir tariximizin yarım əsrlik bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dünyanın ən güclü dövlət və siyasi xadimləri, ekspertləri bu qüdrətli Azərbaycan oğlunu, çoxəsrlik tariximizin yetirdiyi ən mükəmməl şəxsiyyəti, beynəlxalq miqyaslı siyasət və dövlət xadimini fenomen lider kimi qiymətləndirmişlər. Ulu öndər

haqqında müasiri olan dünya liderləri, tanınmış dövlət xadimləri, siyasi xadimlər, məşhur elm adamları, yazıçılar çox dəyərli, qiymətli sözlər söyləmişlər.

S.Dəmirəl, C.Buş, R.T.Ərdoğan, V.Putin, Bill Klinton, Jak Şirak, Toni Bleyer, Ç.Aytmatov, E.Şevardnadze, Xu Szintao, G.Şröder, II İohan Pavel, çox sayda digər dövlət və siyasət xadimlərinin verdiyi yüksək dəyərdə qeyd olunmuşdur ki, Heydər Əliyev qeyri-adi şəxsiyyət, xalqının xilaskarı, bütün dünyada böyük nüfuz sahibi, Cənubi Qafqazın ən əsas şəxsiyyətidir. O da vurğulanmışdır ki, Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, dünya dövlətləri ilə beynəlxalq əlaqələrin, dostluq, əməkdaşlıq əlaqələrinin yaradılmasına çalışmış, onun müstəqil dövlətə çevrilməsində, suverenliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində, Qafqazın lider dövlətinə çevrilməsində müstəsna rol oynamış, ölkəsini çiçəklənmə yoluna gətirib çıxarmışdır.

Həqiqətən, Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi, firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur. Ümummilli liderin şəxsiyyəti və onun həyatı elə mənalı, elə fəlsəfi, elə müqəddəs məktəbdir ki, bu məktəbin dirilik, əbədiyyət, saflıq, paklıq, humanizm və halallıq kimi insani keyfiyyətlərdən gələcək nəsillər bəhrələnəcək və milli təntənəyə dərin inam bağlanacaqdır.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, çox böyük çətinliklərdən, manelərdən keçərək SSRİ DTK-nin siravi leytenantından general-mayor rütbəsinədək, kommunistlər ordusunun sıravi üzvündən Kreml liderlərindən biri səviyyəsinə ucalan Heydər Əliyevin adı tarixə Azərbaycan xalqının Qurtuluş mübarizəsinin qalibi, müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Ümummilli lider Heydər Əliyev XX əsrin ikinci yarısı üçün Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük ərməğan idi.

Xalqımızın böyük oğlu Heydər Əliyev doğma Azərbaycanına iki dəfə rəhbərlik etmişdir: bir totalitar kommunist rejiminin, inzibati amirliyin hökmranlığı dövründə – 1969–1982-ci illərdə, bir də müstəqil Azərbaycanın xilaskar Prezidenti olaraq 1993–2003-cü illərdə. Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərliyinin birinci dövrü xalqımızın tarixində milli oyanışın, özünəqayıdışın başlanması, cəmiyyətin keyfiyyətcə irəliyə və müstəqilliyə doğru dönüş illəridir.

XX əsrin 70-ci illəri və 80-ci illərinin əvvəlləri Azərbaycanın inkişafında özünəməxsusluğu ilə səciyyələnən bir dövrdür. Bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX əsrin 60-cı illərində respublikanın sosial-iqtisadi həyatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özünü göstərməyə başlamışdı. Respublikada uzunmüddətli gerilik hökm sürürdü. İnkişaf getdikcə ləngiyir və bu, əhalinin sosial-maddi vəziyyətinə mənfi təsir göstərirdi.

İstehsalın, o cümlədən sənaye və kənd təsərrüfatı məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsindən geri qalırdı və bu gerilik getdikcə artırdı. Respublikanın kənd təsərrüfatında vəziyyət da-

ha ağır idi. Elmi-texniki tərəqqinin nailiyyətləri də istehsalata tətbiq olunmurdu. Əmək intizamı aşağı səviyyədə idi. Korrupsiya, rüşvətxorluq getdikcə artırdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda XX əsrin 60-cı illərində yaranmış vəziyyəti sonralar belə xatırlayırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi."

Prezident İlham Əliyev isə Ulu öndərin o dövr siyasi liderliyini belə qiymətləndirmişdir: "Müstəqil Azərbaycan dövlətinin qurulmasında, onun müstəqilliyinin qorunub saxlanmasında Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi."

1969-cu il iyulun 14-də, respublikada problemlərin, çətinliklərin, sosial-iqtisadi geriliyin hökm sürdüyü, artıq böhran vəziyyətinin yarandığı ağır şəraitdə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi. Doğma xalqının, Vətəninin böyük təəssübkeşi olan Ulu öndər totalitar rejimin hökm sürdüyü mürəkkəb tarixi şəraitdə Azərbaycanı SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirmək üçün bütün sahələrdə geniş islahatlar proqramı hazırladı və həyata keçirməyə başladı. Beləliklə, XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqına, Vətəninə həsr olunmuş fəaliyyətində yeni dövr başlandı. Sovetlər ölkəsində bu dövrdə durğunluq halları gücləndiyi halda, Azərbaycan tərəqqi yoluna qədəm qoydu.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti tədbirlər görməyə başladı. 1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu oldu. Respublikanın yeni rəhbəri Azərbaycanın sosial-iqtisadi böhran vaziyyətinin, uzunmüddətli geriliyinin təhlilini verdi, səbəblərini açıqladı, çıxış yollarını müəyyənləşdirdi. O, uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramlarını hazırlatdı və dərhal onların icrasına başlanıldı. Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah dövrü başladı.

Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər respublikanın digər sahələri kimi, iqtisadiyyatının da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensiallarından xalqın maddı rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə səciyyələnir. Ötən əsrin 70-80-ci illərində Ulu öndərin Azərbaycana rəhbərliyi ilə xal-

qımız öz iqtisadiyyatını yenidən yaratmışdır. Əgər o zamankı nailiyyətlər olmasaydı, Azərbaycan sonralar müstəqil dövlət kimi yaşaya bilməzdi.

1969-1982-ci illərdə müdrik, zəngin təcrübəyə malik Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmiş, böyük uğurlar qazanılmış, elmi-texniki tərəqqidə ciddi irəliləyişlər baş vermiş, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Totalitar rejimin bütün xüsusiyyətlərinə yaxşı bələd olan, zəngin idarəçilik təcrübəsi olan Ulu öndər SSRİ-nin çöküşə doğru getdiyini görürdü. Bu baxımdan da onu Azərbaycan xalqının və dövlətçiliyinin taleyi, müstəqil yaşamasının mümkünlüyü məsələsi daim düşündürürdü. XX əsrin 70–80-ci illərinin Azərbaycan iqtisadiyyatının 60-cı illəri ilə müqayisədə yüksəliş dövrü olması da məhz bu tarixi perspektivə hesablanmışdı.

Azərbaycanda 70-ci illərdən iqtisadi tərəqqi başladı. Sərmayə qoyuluşunun həcmi 1971–1985-ci illərdə 32 milyard manat təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi. Respublikada 70-ci illərdən başlayaraq məhsuldar qüvvələrin inkişafı, onun imkanlarından daha səmərəli istifadə edilməsi və müasir inkişaf meyillərinin vəzifələrinə uyğun möhtəşəm quruculuq proqramı iqtisadiyyatın strukturunda zəruri təkmilləşmənin əsasını qoydu.

Azərbaycanın tarixi inkişafının sonrakı gedişi sübut etdi ki, bu gün müstəqil dövlətimizin sosial-iqtisadi və idarəçilik əsasları hələ 1969–1982-ci illərdə Heydər Əliyevin fədakar əməyi, uzaqgörən, müdrik siyasəti, düşüncəsi sayəsində qurulmağa başlamışdır.

Heydər Əliyev sovet rəhbərliyindəki nüfuzundan istifadə edərək Azərbaycanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün sovet hökumətinin respublika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən aşağıdakı tarixi qərarlarının qəbul edilməsinə nail olmuşdu: 1970-ci il iyulun 23-də "Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında"; 1970-ci il 25 iyulda "Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında"; 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"; 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində"; 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında".

Onu da qeyd edək ki, bu qərarların yerinə yetirilməsini təmin etmək üçün İttifaq büdcəsindən Azərbaycana xeyli vəsait ayrılmışdı. Azərbaycan iqtisadiyyatı barədə qəbul edilmiş bu qərarların həyata keçirilməsi ölkədə kənd təsərrüfatı istehsalının daha da inkişafına, intensivləşdirilməsinə, ixtisaslaşdırılmasına, üzümçülük və şərabçılığın inkişaf etdirilməsinə, sənaye potensialının və xəritəsinin genişləndirilməsinə imkan verdi. Nəticədə, respublika iqtisadiyyatında tənəzzüldən tərəqqiyə dönüş baş verdi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi, iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələri və dünya iqtisadiyyatına getdikcə daha dərindən inteqrasiya olunması hələ 1969–1982-ci illərdə təməli qoyulmuş sosial-iqtisadi potensiala əsaslanır. Ulu öndər 1969-1982-ci illərdə bütün bacarığını Azərbaycanın ümumi tərəqqisi və inkişafı üçün səfərbər edə bildi. O illər Azərbaycan SSR-in tarixinə dinamik inkişaf, intibah dövrünün başlanması kimi daxil oldu. İqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının, sənayenin bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında ciddi struktur dəyişiklikləri həyata keçirildi. Müasir və mütərəqqi sənaye sahələri yaradıldı.

1969–1982-ci illərdə respublikada əmək məhsuldarlığının yüksəldilməsinə, bütün ictimai istehsalın səmərəliliyinin durmadan artırılmasına diqqət yetirilmiş, istehsalın intensivləşdirilməsi, səmərəlilik iqtisadi inkişafın həlledici amili hesab edilmişdi. Respublika iqtisadiyyatının uzun sürən geriliyinə son qoyulmuşdu. Azərbaycan İttifaq respublikaları arasında qabaqcıl respublikalardan birinə çevrilmiş, ölkə əhalisinin yaşayış səviyyəsinə əhəmiyyətli dərəcədə təsir edən nailiyyətlər əldə edilmişdi. Sosial-mədəni quruculuğun bütün sahələrində – elm, təhsil, səhiyyə, incəsənətdə, əhaliyə mədəni-məişət və kommunal xidmətlərdə böyük irəliləyişlər baş vermişdi.

Ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi altında respublika iqtisadiyyatının başlıca sahəsi olan sənaye sahələrində mövcud olan qüsurlar, geriləmələr qısa müddətdə aradan qaldırıldı, istehsalın surəti xeyli genişləndi, məhsuldarlıq yüksəlməyə başladı, yeni-yeni sənaye sahələrinin təməli qoyuldu, bu sahədə böyük uğurlar qazanıldı, yeni müasir istehsal sahələri yaradılmağa başlandı. Azərbaycan 1969–1982-ci illərdə müttəfiq respublikalar arasında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük, tərəvəzçilik diyarına çevrildi.

1969–1982-ci illərdə neft və neftayırma, qaz sənayesi əsaslı şəkildə yenidən qurulmuşdu. “Azərneft” və “Xəzər Dəniz Neft” Birliyinin işində 60-cı illərdə yaranmış nöqsanların aradan qaldırılması ilə bağlı Ulu öndərin rəhbərliyi və köməyi ilə bir sıra mühüm tədbirlər görülmüş, əhəmiyyətli qərarlar qəbul edilmişdi. Neftçıxarma texnologiyası xeyli yaxşılaşmışdı. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyularının qazılmasına başlanmışdı. Burada müasir “Xəzər”, “Bakı”, “Self-1”, “Self-3” qazma qurğularından istifadə olunurdu. Bunun nəticəsi idi ki, XX əsrin 70-ci illərində bu sahəyə Heydər Əliyevin böyük diqqəti və qayğısı sayəsində neft hasilatında, bütövlükdə, neft sənayesində ciddi dönüş yaranmış, uzun illərdən bəri mövcud olan bəzi problemlər aradan qaldırılmışdu.

Araşdırmalar göstərir ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan keçmiş SSRİ-də elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdi. XX əsrin 70-ci illərinin ikinci yarısında (1976-1980-ci illərdə) Elektrotexnika Sənayesi Nazirliyi müəssisələrində istehsalın həcmi 2,4 dəfə artmışdı. Yeni sahələrin inkişafına xüsusi əhəmiyyət verməklə, məsələn radioelektronikanı inkişaf etdirməklə yanaşı, Heydər Əliyev yüngül sanayeni də, ənənəvi sahələri

də – ipəkçilik, xalçaçılıq, çini qablar istehsalını da unutmurdu.

Azərbaycanın paytaxt əhalisinin su ilə təchizatındakı problemləri daim aktual olduğuna görə 1970-ci ilin əvvəllərində Heydər Əliyev bu məsələnin həllini diqqət mərkəzinə çəkdi. Belə ki, Bakı şəhəri və Abşeron yarımadası əhalisinin içməli su ilə təchizatının yaxşılaşdırılması barədə Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə – 1971-ci il avqustun 1-nə kimi tam başa çatdırılması haqqında qərar qəbul edildi.

1969–1982-ci illərdə Heydər Əliyevin uzaqgörənliyi sayəsində respublikanın enerji müstəqilliyi təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su elektrik stansiyaları, "Azərbaycan" DRES-i işə salındı. Heydər Əliyev ilə respublikada elmin inkişafına və təhsil səviyyəsinin yüksəldilməsinə böyük diqqət yetirilirdi. Azərbaycanda onlarla yeni elmi-tədqiqat müəssisəsi yarandı. Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənən iqtisadiyyatının mühüm istiqamətlərinin, o cümlədən kənd təsərrüfatının inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirildi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən birini kənd təsərrüfatının dinamik inkişaf etməsi, ölkənin və respublikanın bütün iqtisadiyyatında onun rolunun artması təşkil edirdi. Bu dövrdə istehsalın elmi əsaslarla intensivləşdirilməsi kənd təsərrüfatının dinamik inkişafında mühüm rol oynamışdı. Respublikada kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981–1985-ci illərdə orta hesabla 1966–1970-ci illərin orta səviyyəsinə nisbətən 2,6 dəfə çoxalmışdı.

Yekun olaraq deyə bilərik ki, 1969-cu il 14 iyulda Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətə gəlməsi ilə 1970-1980-ci illər Azərbaycan tarixinin intibah, dönüş, dirçəliş, milli özünəqayıdış dövrü kimi qiymətləndirilir. SSRİ-də durğunluğun gücləndiyi dövr olduğu halda, Azərbaycanda yüksəliş dövrü olmuşdu. Respublika həyatının bütün sahələrində olduğu kimi, iqtisadiyyatda da dirçəliş, sürətli inkişaf, kənd təsərrüfatının ixtisaslaşdırılması, sənayenin yeni sahələrinin yaradılması, neft, neft-kimya, neft-maşınqayırma sənayelərinin yenidən qurulması dövrü kimi xarakterizə olunur. Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, zəngin idarəçilik və təşkilatçılığı ilə iqtisadi inkişaf dinamikası Azərbaycanda keçmiş İttifaq respublikalarından xeyli yüksək olmuşdu.

Respublikada elmin inkişafına və təhsilin səviyyəsinin qaldırılmasına, Azərbaycan xalqının milli dəyərlərinə böyük diqqət yetirildi. Görkəmli elm, təhsil, incəsənət, ədəbiyyat xadimlərinin yubileyləri keçirilir, onlara fəxri adlar verilirdi. Azərbaycanın xarici əlaqələri bu illərdə xeyli genişlənmiş, Avropa, Yaxın və Orta Şərq ölkələri, Ön Asiya və digər region ölkələri ilə münasibətlər qurulmuşdu.

Beləliklə, XX əsrin 70-ci illəri – 80-ci illərin əvvəlləri dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə yüksəliş dövrü kimi səciyyələnir. Məhz bugünkü müstəqilliyimizin siyasi, sosial-iqtisadi əsasları da həmin illərdə yaradılmışdı.

**İbrahim ZEYNALOV,**
**BDU-nun tarix fakültəsinin**
**dekanı, professor**

# AZƏRBAYCAN TARİXİNİN MÖHTƏŞƏM 55 İLİ MİLLİ İNTİBAHDAN DÖVLƏT MÜSTƏQİLLİYİNƏ GEDƏN YOL

**Müasir Azərbaycanın taleyində tarixi dönüş mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 55 ildir ki, Azərbaycan dünya miqyasında ulu öndər Heydər Əliyev kimi nəhəng şəxsiyyətin qəlbinin işığında, iradəsinin möhkəmliyində, Vətən sevgisində qəbul edilir və örnək bir məmləkətə çevrilir. O, xalqını qorumaq üçün Tanrının göndərdiyi bir elçi idi.**

1969-cu il iyul ayının 14-də respublikanın rəhbərliyinə gələn Heydər Əliyev Azərbaycanın Sovetlər İttifaqı kimi nəhəng bir imperiyanın tərkibində olmasına baxmayaraq, böyük uzaqgörənliklə gələcəyə hesablanmış bir sıra mühüm və zəruri addımlar atmağa nail ola bildi. O, Azərbaycanın tərəqqisi və inkişafı baxımından müstəsna xidmətlər göstədi. Hər şeydən əvvəl, kadrların düzgün seçilib yerləşdirilməsinə, onlara qarşı tələbkarlığın artırılmasına, dövlət və əmək intizamının möhkəmləndirilməsinə, idarəçilik sisteminin təkmilləşdirilməsinə diqqət göstərdi. Təsəvvür edin, Sovetlər İttifaqında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ilk dəfə olaraq Azərbaycanda, məhz Heydər Əliyevin rəhbərliyi ilə başlandı.

Ulu öndərin fəaliyyətinin əhəmiyyətli bir hissəsi Dövlət Təhlükəsizlik Komitəsi ilə bağlıdır. Bu illərdə o, şərəfli xidmət yolu keçərək DTK sədri vəzifəsinə, general-mayor rütbəsinə qədər yüksəlmişdi. DTK-da çalışdığı dövrdə o, bu sistemdə milli kadrların sayının artmasına köməklik göstərmiş, həmçinin, Azərbaycanın bir çox elm və mədəniyyət xadimlərini – Bəxtiyar Vahabzadəni, Ziya Bünyadovu, İsa Hüseynovu, Maestro Niyazini və başqa görkəmli şəxsiyyətləri sovet təhlükəsizlik sisteminin cəzasından xilas etmişdi.

Paralel olaraq, iqtisadi sahədə çox mühüm uğurlara imza atıldı, böyük nailiyyətlər əldə eidildi. Statistikaya ötəri nəzər salaq: Ulu öndərin respublika rəhbərliyinə gəlməsi ilə Azərbaycan qısa zaman kəsiyində iqtisadi baxımdan özünü təmin etməyə başladı, ölkədə adambaşına düşən ümumdaxili məhsul istehsalında 2,5, sənaye istehsalında 3, kənd təsərrüfatı məhsullarında isə 2 dəfə artım əldə olundu. Onun rəhbərlik etdiyi 1969-cu ildən 1982-ci ilə qədərki dövrdə respublikada 250 zavod, fabrik və sex tikildi. Azərbaycan həmin illərdə iqtisadi sahədə əldə etdiyi bu uğurlara görə 12 dəfə ümumittifaq yarışının qalibi oldu, Lenin ordeni ilə təltif edildi.

Umummilli iderin Azərbaycana rəhbərlik etdiyi birinci dövrü sosial həyat sahəsində böyük nailliyyətlərlə əlamətdar oldu. Belə ki, 630 min iş yeri açıldı, 20 min kvadrat kilometr ərazidə Əhmədli,

Yeni Əhmədli, Günəşli, Batamdar, Hövsan kimi yaşayış massivləri salındı, 2 milyondan artıq vətəndaşın mənzil problemi öz həllini tapdı. 101 min məktəbəqədər, 1058 ümumtəhsil müəssisəsi tikilib istifadəyə verildi. Heydər Əliyev Sovet Azərbaycanına rəhbərliyi dövründə 15 mindən artıq azərbaycanlı gəncin keçmiş SSRİ-nin müxtəlif şəhərlərində yerləşən 170-dən çox ali məktəbdə təhsil almasına, respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail oldu.

Ulu öndər respublika rəhbərliyinə gələndən bir neçə il sonra o vaxt Sovetlər İttifaqı üçün gözlənilməz olan daha bir təşəbbüsə imza atdı. Heydər Əliyev böyük əzmkarlıqla 1972-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasının qoyulmasına və azərbaycanlı gənclərin həm bu məktəbdə, həm də SSRİ-nin digər hərbi təhsil müəssisələrində oxumalarına nail oldu və böyük bir yolun başlanğıcını qoydu. Bu illər ərzində yetişən azərbaycanlı hərbi kadrlar 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yenidən baş qaldırdığı bir vaxtda silaha sarılaraq Vətənin müdafiəsinə qalxdılar. Onlar müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşmasında və torpaqlarımızın müdafiəsində müstəsna rol oynadılar.

1993-cü ildə ulu öndərin ikinci dəfə Azərbaycan rəhbərliyinə gəlişi isə milli dövlətçiliyimizi təhlükədən xilas etdi. Həmin ilin iyununda Azərbaycan hakimiyyət böhranı ilə üz-üzə qalmışdı. Azərbaycanın müstəqilliyini istəməyən xarici güclərin dəstək verdiyi silahlı birləşmələr və onların müdafiəsinə qalxan bəzi siyasi qurumlar hakimiyyətin zəifliyindən istifadə edib ölkəni xaosa sürükləyirdilər. Belə bir çətin şəraitdə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev antiazərbaycan qüvvələrin planlarını alt-üst edərək ölkəni böyük bir uçurumdan qorudu.

Ulu öndər müstəqil Azərbaycanın idarəçilik sükanı arxasına keçərək sabitliyin, sosial-iqtisadi inkişafın və tərəqqinin qarantına çevrildi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart aylarında dövlət çevrilişinin qarşısı alındı, dövlətçiliyimiz təhlükədən xilas edildi.

Azərbaycanın ağır günlər yaşadığı bir vaxtda yenidən hakimiyyətə gələn və dövlət müstəqilliyimizin dayanıqlılığına nail olmaq üçün səylərini ilk növbədə ölkə daxilində siyasi sabitliyin bərqərar olmasına yönəldən Ulu öndər, paralel olaraq, strateji əhəmiyyət daşıyan bir sıra iqtisadi layihələrin gerçəkləşməsinə də öz töhfəsini verdi. Bu layihələrdən ən mötəbəri isə 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan, "Əsrin müqaviləsi" oldu. Ulu öndərin dəmir iradəsi, siyasi nüfuzu sayəsində nəhayət, 20-ci əsrin ən böyük neft müqaviləsi imzalandı və Azərbaycanın müstəqilliyinin qarantına çevrilən bir layihə gerçəkləşdi.

Azərbaycanın qarşısında uzun və maneəsiz inkişaf yolu açıldı. Bu inkişaf qısa zaman kəsiyində bütün istiqamətlərdə özü-

nü göstərdi. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da yaratdı.

Bundan əlavə, Azərbaycan qazının qərb bazarına ixracının təmin olunması baxımından ulu öndərin şəxsi təşəbbüsü ilə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verildi. Beləliklə, Azərbaycan həm neft, həm də təbii qaz satışı bazarında özünə xüsusi yer tutdu. Zaman keçdikcə dövlətimiz Avropanın enerji təhlükəsizliyində əsas rol oynamağa başladı. Bu isə Azərbaycanın söz sahibi olan bir dövlət kimi böyük nüfuz qazanması deməkdir. Beynəlxalq imicə, yüksək nüfuza malik dövlətimiz bu gün dünyanın aparıcı dövlətlərindən biri, regionun söz sahibi olan ölkələrindəndir.

Ümummilli liderin hakimiyyəti dövründə Azərbaycanda senzura ləğv edildi, azad mətbuatın inkişafı təmin olundu, xaricdə diaspor təşkilatları yaradıldı, informasiya blokadası yarıldı və Azərbaycanın haqq səsinin dünyaya çatdırılması prosesi başlandı.

Ümumiyyətlə, Azərbaycanın inkişaf tarixinin son 55 ilinə nəzər salsaq, gələcəyə istiqamətlənmiş, dayanıqlı inkişafı təmin edən və cəmiyyətin hər bir üzvünün rifahına xidmət göstərən müdrik və uzaqgörən siyasətin nəticələrini görərik. Bütün bunlar Ulu öndər Heydər Əliyevin Vətən üçün sonsuz xidmətləri hesabına başa gəlib. O, öncə vətənpərvər, ölkəsini sevən bir insan, sonra isə böyük dövlət xadimi idi. Təsadüfi deyil ki, 2001-ci il Dünya Azərbaycanlılarının Birinci Qurultayında Heydər Əliyevin söylədiyi tarixi ifadə kiçikdən–böyüyə qədər hər bir azərbaycanlının dilində əzbərə çevrilib: "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam". Ölkəmizdə yaşlı və orta nəslin nümayəndələri də fəxr edirlər ki, Heydər Əliyev kimi dünya şöhrətli siyasət və dövlət xadiminin, çağdaş Azərbaycanın qurucusunun müsirləri olublar.

İstər Vətəndə, istərsə də qürbətdə yaşayan bütün dünya azərbaycanlıları da qürur duyurlar, fəxr edirlər ki, onların Azərbaycan kimi Vətəni, Heydər Əliyev kimi soydaşı, ümummilli lideri var. Biz hər birimiz onun əmanəti olan müstəqil, güclü, qüdrətli Azərbaycanın övladlarıyıq. Azərbaycanın təməli dahi şəxsiyyət tərəfindən qoyulan iqtisadi, siyasi, sosial və mədəni inkişaf xəttini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Uğurlu inkişaf modelinə uyğun olaraq, Azərbaycanın dünyanın qabaqcıl, aparıcı dövlətləri sırasında tutduğu mövqe hər il daha da möhkəmlənir.

**Mədət MƏMMƏDOV,**
**Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi İctimai Birliyinin sədri**

# YENİ TARİXİ DÖVRÜN İNKİŞAF HƏDƏFLƏRİ

**Tarixinin ən qüdrətli Azərbaycanının ictimai-siyasi həyatında, daxili və xarici siyasətində tam yeni dövr başlayıb.**

**2003-cü ildən Ulu Öndər Heydər Əliyev yolunun uğurlu davamı ilə tarixi Zəfərinə, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına qovuşan Azərbaycan indi daha böyük hədəflərə doğru inamla addımlayır.**

**Bu bir həqiqətdir ki, müasir Azərbaycan indi dünya miqyasında güclü ölkələr sırasındadır. Qüdrətli dövlətimiz həm beynəlxalq aləmdə, həm regionda, həm də daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkə üçün nümunə sayılır, özünəməxsus inkişaf modelləri ilə tanınır.**

**Son 20 ilin mənzərəsi göstərir ki, möhtərəm Prezident cənab İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyası əsasında gedilən yol düzgün yoldur. Bunu xalqın mütləq əksəriyyətinin fevralın 7-də bütöv Azərbaycanda ilk dəfə keçirilən prezident seçkilərində yenidən cənab İlham Əliyevə verdiyi etimad mandatı bir daha təsdiqlədi.**

**Bütün dövrlərdə siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə təşkil olunmuş andiçmə mərasimində qarşıdakı 7 ildə dövlətimizin bütün istiqamətlər üzrə prioritetlərinin dəqiq müəyyən olunduğu konseptual xarakterli yol xəritəsini təqdim edərək əsas hədəfləri göstərdi.**

## Yeni hədəflər, vəzifələr, əsas prioritetlər

Hər bir seçki yeni dövrün başlanğıcı sayılır. Azərbaycan xalqı son 20 ildə inandığı, güvəndiyi, etibar etdiyi möhtərəm Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətin nəticələrini çox yaxşı görür və hər zaman onu düzgün qiymətləndirə bilir. Elə şanlı Zəfərimizi, qazandığımız bütün uğurları şərtləndirən əsas amil də məhz bu sarsılmaz birlikdir.

Daim xalqın firavan yaşaması, dövlətimizin nüfuzunun yüksəlməsi, Azərbaycanın daha da qüdrətlənməsi üçün yeni inkişaf hədəflərini müəyyənləşdirən cənab Prezidentimiz andiçmə mərasimində onları xalqa bir daha təqdim etdi.

Prezident bəyan etdi ki, Azərbaycan xalqının alnıaçıq, başı dik daxil olduğu yeni dövrün böyük nailiyyətləri olacaq. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilir.

Hazırda cəmiyyətdə hökm sürən çox müsbət ab-hava Azərbaycanı daha da gücləndirir. Güclü Azərbaycan isə hər zaman hədəfimiz olub. Cənab İlham Əliyevin söylədiyi kimi, əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdə qətiyyəti ilə bu gün Azərbaycan bayrağı ölkəmizin bütün ərazilərində dalğalanır. Xalqımızı mütəşəkkilləşdirən də məhz bu reallıqdır.

Qarşıda duran yeni vəzifələri müəyyənləşdirən dövlət başçımız dedi ki, ilk vəzifə Silahlı Qüvvələrimizin gücünə güc qatmaqdır.

Düzdür, İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atılıb və bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür. Təkcə ötən ilin sentyabr ayında cəmi bir neçə saat davam edən antiterror tədbirləri bunun bariz nümunəsidir. Bu gün həmçinin Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı mühüm addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış Komando silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. 2024-cü ilin dövlət büdcəsində bu gün də ən böyük xərclərin hərbi xərclərin təşkil etməsi bunu təsdiqləyir.

Müzəffər Ali Baş Komandanımız bu gün elə bir ordu yaradıb ki, özünün də söylədiyi kimi, kimsə bizə sataşa və gələcəkdə də belə bir fikirdə ola bilməz. Ermənistanın nə qədər havadarları olsa da, hansısa qüvvə Azərbaycanı öz yolundan dayandıra bilməz. Çünki Azərbaycanın siyasəti beynəlxalq hüquqa əsaslanır. Azərbaycanla əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələr və onu yəqin ki, hər kəs görür. Aprelin 5-də keçiriləcək ABŞ-Aİ-Ermənistan görüşündə qəbul ediləcək hər hansısa qərar yalnız Hayastanın ziyanına ola bilər. Çünki bu ölkə hər zamankı kimi alət rolunu oynadığını bununla bir daha sübut edər.

Qarşıda duran vəzifələrdən biri sərhədlərimizin daha da güclü qorunmasıdır. Bunu da qarşıya önəmli vəzifə kimi qoyan dövlətimizin başçısı vurğuladı ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-İran sərhədinə qayıtdığımız, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşdiyimiz üçün sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır. Sərhədimiz elə güclü bağlı olmalıdır ki, onun üzərindən bir quş belə uça bilməsin. Prezidentin də söylədiyi kimi, sərhədlərimizin möhkəmliyi, keçilməzliyi, eyni zamanda bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır.

Məhz bu səbəbdən da möhtərəm Prezidentimiz təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsini vacib vəzifə kimi qarşıya qoydu. Çünki təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki, həm də ideoloji risklərdən özümüzü qorumalıyıq. Bunun səbəbi isə aydındır. Yeni dövrdə ideoloji risklər sərhəd tanımır. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Cənab İlham Əliyev bu məsələyə çox ciddi yanaşmanın vacibliyini vurğulayaraq əsas vəzifələrdən biri kimi qarşıya qoydu. Prezident qəti şəkildə bildirdi ki, gənc nəslin düzgün tərbiyə edilməsi gələcəyimizin təmini deməkdir. Elə bir gənc nəsil yetişdirilməlidir ki, onlar daim milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq qalsınlar. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın. Belə olan halda heç bir kənar qüvvə bizə qarşı hansısa bir məkrli plan həyata keçirə bilməz.

Dövlət başçısının bu fikirləri əlbəttə ki, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının üzərinə düşən sosial və ictimai missiyanı tamlıqla və dolğun şəkildə, yeni çağırışları adekvat səviyyədə həyata keçirə bilmək üçün səfərbər olmağa vadar etməlidir.

Prezident həmçinin azərbaycançılıq ideologiyasının daha da gücləndirilməsini, iqtisadiyyatımızın inkişaf etdirilməsini, türk dünyası ilə müanasibətlərin daha da genişləndirilməsini vacib məsələlər hesab edərək vurğuladı ki, ən prioritet vəzifə isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Böyük qayıdış planına uyğun olaraq azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş məcburi köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlayıb. Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min insan öz dədə-baba torpaqlarına qayıdacaq.

**İqtisadi müstəqilliyin yaratdığı reallıq**

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün ən prioritet məsələ iqtisadiyyatın dayanıqlı inkişafını təmin etməkdir.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının son illərdəki yüksəlişi ölkənin hərtərəfli tərəqqisini təmin edib. İqtisadi müstəqillik siyasi müstəqilliyimizi daha da möhkəmləndirib. 20 ilin uğurlu statistik göstəriciləri bunu bir daha təsdiqləyir.

Möhtəşəm uğurları şərtləndirən iqtisadi imkanlarımız Qarabağ və Şərqi Zəngəzuru heç kimdən yardım almadan yenidən qurmağa zəmin yaradıb. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması hər bir çətinliyin, problemlərin aradan qaldırılmasında da sözünü deyir.

Təkcə bu ilin yanvar ayının sosial-iqtisadi göstəriciləri Azərbaycanın dayanıqlı iqtisadi inkişafı barədə aydın təsəvvür yaradır. Belə ki, bu ilin yanvar ayında ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə ümumi daxili məhsulumuz 7 milyard dollar idisə, keçən ilin yekunlarına görə bu rəqəm 72 milyard dollardır. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 68,5 milyard dollardır. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini buna uyğun şəkildə aparır. Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə minimum əməkhaqqı 9 manat idisə, indi bu 345 manatdır. Minimum pensiya 2003-cü ildə 20 manat idisə, bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır.

Ümumiyyətlə, yola saldığımız 2023-cü il xalqımız və ölkəmiz üçün uğurlu il olub. Bunu Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun martın 15-də Milli Məclisdə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair təqdim etdiyi hesabat da bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə 2023-cü ildə də Azərbaycanda məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatların davam etdirildiyini, makroiqtisadi və maliyyə sabitliyinin təmin olunduğunu qeyd edən Baş nazir bildirdi ki, ötən il ölkəmiz üçün çox əlamətdar il kimi tarixə yazılıb. 2023-cü ili əhatə edən hesabat dövründə də Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatlar, həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin edilib.

Məhz cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir ki, ötən il ölkədə 123 milyard manatlıq və ya 2022-ci illə müqayisədə real ifadədə 1,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əhalinin hər nəfərinə düşən ÜDM isə 0,5 faiz artaraq 12,1 min manat (7,1 min ABŞ dolları) təşkil edib. ÜDM istehsalı 2022-ci illə müqayisədə neft-qaz sektorunda 1,7 faiz azaldığı halda, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,7 faiz artıb. Qeyri-neft-qaz sənayesi 8 faiz çoxalıb. Xarici ticarət dövriyyəmiz təxminən 45 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 10,3 milyard dollar olub. Qeyri-neft ixracı 9,8 faiz artaraq 3,3 milyard dolları üstələyib.

2023-cü ildə ölkənin strateji valyuta ehtiyatları 17 faiz və ya 10 milyard ABŞ dolları artaraq 68,5 milyard dollar təşkil edib və xarici dövlət borcunu 10 dəfədən çox üstələyib. Ötən il dövlət büdcəsinin gəlirləri təxminən 35,6 milyard manat olub ki, bu da 2022-ci illə müqayisədə 4,9 milyard manat çoxdur. Xərcləri isə 36,5 milyard manat və ya 99,5 faiz səviyyəsində icra olunub ki, bu da 2022-ci illə müqayisədə 4,4 milyard manat çoxdur. 2023-cü ildə əldə olunmuş müsbət makroiqtisadi göstəricilərdən biri olan inflyasiya xarici və daxili amillərin, o cümlədən həyata keçirilən antiinflyasiya siyasətinin təsirindən azalıb. Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyinin idxal inflyasiyasına azaldıcı təsiri, qəbul edilmiş büdcə qaydasının parametrləri və monetar siyasət qərarları inflyasiya təzyiqlərini yumşaldıb.

2023-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 36 faizi və ya 13,1 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. Minimum əməkhaqları 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb. Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan 700 min nəfər işçinin əməkhaqqı orta hesabla 15 faiz artırılıb. Həmçinin minimum pensiya məbləği 16,7 faiz, orta pensiya məbləği 17,3 faiz, yaşa görə pensiya məbləği isə 16,5 faiz artıb. Yaşayış minimumu və ehtiyac meyarının həddi bərabərləşib və müvafiq olaraq 246 manat müəyyən edilib.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə 2023-cü ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə təqribən 5,9 milyard manat vəsait ayrılıb. Bu, 2022-ci illə müqayisədə 19,6 faiz çoxdur.

Səhiyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması məqsədilə əhalinin icbari tibbi sığortalanması üzrə dövlət büdcəsinin payına düşən vəsait 1 milyard 264 milyon manat təşkil edib.

Prioritet məsələlərdən biri də şəhid ailələri, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə dövlət tərəfindən göstərilən dəstək tədbirləridir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə postmüharibə dövründə şəhid ailələrinə, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə 6000 mənzil verilib, habelə müharibə əlillərinə 474 avtomobil təqdim edilib. Keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədlərinə 2023-cü ilin dövlət büdcəsindən 354 milyon manat vəsait yönəldilib. Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çər-

çivəsində hərbi qulluqçulara 473 ədəd tam təmirli mənzil alınıb.

2023-cü ildə təhsil sisteminin inkişafı üçün dövlət büdcəsində təhsil xərclərinə 4,4 milyard manat vəsait ayrılıb, 186 təhsil müəssisəsində əsaslı təmir və tikinti işləri aparılıb. Habelə ötən il Heydər Əliyev Fondu tərəfindən 17 ümumi təhsil müəssisəsi tikilib, 2-si əsaslı təmir olunub və 9-nun isə tikinti işləri davam etdirilir. Prezidentin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universiteti yaradılıb.

### Qarabağ və Şərqi Zəngəzurda quruculuq işləri

Ötən il qarşıda duran əsas vəzifələrdən biri də Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərinin davam etdirilməsi olub. Möhtərəm Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə ötən il də işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işləri aparılıb və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində işlər sürətlə davam etdirilib.

Baş nazir Əli Əsədov vurğulayıb ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 2022-2026-cı illərdə ümumilikdə təqribən 32 milyard manatdan çox vəsait tələb olunur. 2021-2023-cü illərin dövlət büdcəsindən bu məqsədlər üçün 12,1 milyard manat vəsait ayrılıb, o cümlədən 2023-cü ildə 5,6 milyard manat, 2024-cü ildə isə 4 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulur.

2023-cü ilin sonunadək işğaldan azad olunmuş ərazilərə ümumilikdə 1186 ailə (4691 nəfər keçmiş məcburi köçkün) köçürülüb. 2024-cü ilin sonunadək işğaldan azad olunmuş 25 yaşayış məntəqəsi üzrə ümumilikdə 5171 ailənin (20 min nəfərdən çox) köçürülməsi planlaşdırılır.

Bu gün Azərbaycan dövləti heç bir beynəlxalq maliyyə təşkilatından yardım almadan öz iqtisadi qüdrəti hesabına işğaldan azad edilmiş ərazilərdə bütün sosial infrastruktur obyektləri, yollar, tunellər və körpülər inşa edir. Elektrik təsərrüfatı yenidən qurulur, dəmir yolları çəkilir. 24 yaşayış məntəqəsində isə qaz xəttinin çəkilməsi həyata keçirilib. Azad edilmiş ərazilərdə 165 MVt gücündə 20 stansiya "Azərenerji" tərəfindən istismar edilməkdədir. İşğaldan azad olunan ərazilərdə "yaşıl enerji" potensialının yaradılması məqsədilə 122 MVt gücündə 17 ədəd su-elektrik stansiyası yenidən qurulub, tikilib və ya bərpa edilib, 73 MVt gücündə 9 ədəd SES-in tikintisi davam etdirilib.

Genişmiqyaslı layihələrin həyata keçirilməsi üçün işğaldan azad olunmuş ərazilərdə 2023-cü ildə Minatəmizləmə Agentliyi və minatəmizləmə əməliyyatlarına cəlb olunmuş dövlət və qeyri-dövlət qurumları tərəfindən ümumilikdə 53,1 min hektar ərazi minalardan təmizlənib. 2024-cü ildə isə 60 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

### "Yaşıl enerji" ixracı, Orta dəhlizə mühüm töhfə

Ötən il Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində və nəqliyyat dəhlizlərinin inkişafında rolu daha da güclənib. Azərbaycan qazı ilə təchiz edilən ölkələrin sayı 8-ə çatıb.

Mart ayının əvvəlində Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası Azərbaycanın uğurlu enerji strate-

giyasından xəbər verir. Bu bir daha sübuta yetirir ki, "Cənub qaz dəhlizi" bütövlükdə region üçün uğur hekayəsidir və gələcəkdə ixrac coğrafiyamız Avropa istiqaməti üzrə daha da artacaq. Məşvərət Şurasında səsləndirilən fikirlərə əsasən deyə bilərik ki, yeni dövrdə artıq yeni çağırışlar var. Azərbaycanda "yaşıl enerji"yə keçid müşahidə olunur. Ümumiyyətlə, regionda alternativ mənbələrdən enerji istehsalına ən çox sərmayə yönəldən ölkələrdən biri olaraq Azərbaycanın qısa zamanda "yaşıl enerji" hasilatını artırması və ixracını təşkil etməsi gözlənilləndir. Azərbaycanla Avropa İttifaqı arasındakı anlaşmaya əsasən, 2026-cı ildən sonra ölkəmizdə istehsal edilən "yaşıl enerji" Gürcüstan, eləcə də Qara dəniz vasitəsilə Avropaya çatdırılacaq. Bu isə ondan xəbər verir ki, Azərbaycan Avropaya yalnız ənənəvi enerji resursları məhsulları ilə deyil, həm də innovativ "yaşıl enerji"si ilə daxil ola biləcək.

Eyni zamanda ölkəmiz böyük bərpaolunan külək və günəş enerjisi potensialına malikdir. Prezident İlham Əliyevin uğurlu enerji siyasəti nəticəsində bu istiqamətdə mühüm işlər görülür. Ölkədə, habelə Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ" stansiyası istismara verilib.

2023-cü ildə Naxçıvanda 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlığa dair memorandum imzalanıb.

Azərbaycanın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin artırılması və tranzit potensialının reallaşdırılması üçün kompleks tədbirlər həyata keçirilməkdədir. Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar onu deməyə əsas verir ki, bu dəhlizin fəaliyyətə başlaması ilə Azərbaycan Orta dəhlizə çox mühüm töhfə vermiş olacaq.

### 2024-cü ildə qarşıda duran əsas vəzifələr və çağırışlar

Şanlı Zəfərimizdən sonra regionda yaranmış reallıqlar bütün planların yeni çağırışlar əsasında hazırlanmasını labüd edir.

Prezident İlham Əliyev hər zaman olduğu kimi, artıq 2024-cü il və ondan sonrakı dövrdə ölkənin əsas inkişaf istiqamətini və hədəflərini müəyyənləşdirəcək yol xəritəsini tərtib edib.

Baş nazir Əli Əsədov da Milli Məclisdəki çıxışının yekununda hökumətin 2024-cü il və gələcək illərdə qarşıda duran əsas vəzifələri və çağırışlarını açıqlayaraq bildirib ki, əsasən, müasir ordu quruculuğu prosesi, milli təhlükəsizlik potensialının artırılması, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi tədbirləri davam etdiriləcək.

Beləliklə, qarşıda duran hədəflərə gəlincə, ilk olaraq, 2026-cı ilədək 34500 ailənin (140 min nəfərin) doğma torpaqlarına qayıtması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur qeyri-neft iqtisadiyyatının inkişafında yeni drayverlərdən biri olacaq.

İqtisadi sahədə aparılacaq islahatlar çərçivəsində sağlam rəqabətə əsaslanan, şəffaf və sağlam biznesin inkişafı ilə bağlı zəruri addımlar atılacaq. Ölkədə pul və kapital bazarlarının inkişafının dəstəklənməsi, qiymətli kağızlar bazarında investisiyaların cəlbediciliyinin artırılması və ümumən investisiya aktivliyinin yüksəldilməsi, Azərbaycanın tranzit-logistika potensialının genişləndirilməsi istiqamətində zəruri işlər davam etdiriləcək. Büdcə xərclərinin səmərəliliyinin

qiymətləndirilməsi, Ortamüddətli Xərclər Çərçivəsinin əhatə dairəsinin genişləndirilməsi və nəticə əsaslı büdcə mexanizminə keçidlə bağlı islahatlar sürətləndiriləcək.

Möhtərəm Prezidentin hökumət qarşısında qoyduğu hədəflərdən biri də 2030-cu ilin sonunadək Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji istehsalına nail olmaqdır. Eləcə də ölkəmiz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji" ixrac edən vacib tərəfdaşlardan biri olmağı planlaşdırır. Məhz cənab Prezident tərəfindən aparılan məqsədyönlü və uğurlu "yaşıl enerji" siyasətinin nəticəsidir ki, COP29 beynəlxalq konfransı Bakıda keçiriləcək. Azərbaycandan dünyaya mühüm mesajlar veriləcək. Bütün bu vəzifələrə və hədəflərə nail olmaq üçün dayanıqlı və diversifikasiya olunmuş iqtisadiyyatın inkişafı təmin edilməlidir.

Bir sözlə, iqtisadi göstəricilər, mövcud potensial göstərir ki, son 20 ildə Azərbaycan kifayət qədər fərqli dövr keçib. Bu dövr Azərbaycan iqtisadiyyatının güclənməsi, qeyri-neft sektoru üçün imkanların genişlənməsi, eyni zamanda ölkəmizin Cənubi Qafqazda aparıcı iqtisadi gücə çevrilməsi anlamına gəlir. Bütün bunlar Azərbaycanda yeni hədəflərin formalaşmasına gətirib çıxarıb, son 20 il isə dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilmiş hədəflərə nail olunmasına imkan yaradıb. Həm iqtisadi, həm siyasi, həm də ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası mümkün olub.

Yeni dövrümüzün hədəfləri Azərbaycan iqtisadiyyatı üçün vacib imkanlar deməkdir. Yeni hədəflər kontekstində Azərbaycan iqtisadiyyatında islahatların dərinləşməsi, o cümlədən bu sahədə addımların atılması, rəqabətin gücləndirilməsi kimi strateji tədbirləri müşahidə edəcəyik. Bu isə Azərbaycanda yeni dövr, yeni iqtisadi inkişaf deməkdir.

Bu fakt inkaredilməzdir ki, Prezident İlham Əliyev 2003-cü ildən məlum hədəfləri qarşıya qoyub – iqtisadi tərəqqi yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında da öz əksini tapmalıdır. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi dövlətimizin siyasətinin əsas amilləridir.

Müasir inkişafın Azərbaycan modelini yaratmış Prezident İlham Əliyevin yenilməz siyasi iradəsi, müdrik rəhbərliyi ilə ölkəmiz bundan sonra da inamla, uğurla inkişaf edəcək və qarşıya çıxan bütün çağırışların, vəzifələrin öhdəsindən layiqincə gələcək.

Sonda onu da vurğulamaq yerinə düşər ki, bu gün Zəfər yolumuzun başlanğıcı hesab edilən Aprel döyüşlərindən 8 il ötür. Azərbaycan xalqının döyüş əzminin güclənməsində, düşmənə qarşı mübarizədə həmrəylik nümayiş etdirməsində mühüm rol oynayan tarixi hadisələrdən biri də 2016-cı ilin şanlı Aprel döyüşləridir. Aprel döyüşlərinin əhəmiyyəti çox böyükdür. Məhz bu döyüşlərdən sonra Ali Baş Komandanın rəhbərliyi ilə şəhadəti şərəf sayan Azərbaycan xalqının və rəşadətli ordumuzun vəhdəti nəticəsində 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi və Müzəffər Ali Baş Komandanımızın Xankəndidə dalğalandırdığı bayrağın kölgəsi bütöv Azərbaycanın üzərinə düşür.

**Səttar MÖHBALIYEV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan Həmkarlar İttifaqları**
**Konfederasiyasının sədri**

# AZƏRBAYCAN XALQININ BÖYÜK OĞLU

**Heydər Əliyev böyüklüyün, müdrikliyin, öz xalqına dönməz sədaqətin rəmzidir. Ulu öndərin həyat və fəaliyyəti Azərbaycan tarixində unudulmaz iz qoyub, onu müasir firavan dövlətə çevirib. Heydər Əliyev təkcə siyasətçi deyildi, o, həm də xalqın liderliyinə milyonların heyran olduğu mənəvi atası idi.**

Sadə bir ailədə dünyaya göz açan Heydər Əliyev hələ kiçik yaşlarından diqqətəlayiq liderlik və ziyalılıq keyfiyyətləri nümayiş etdirib. Sarsılmaz iradəsi və öyrənmək həvəsi sayəsində, o, təhsil alıb və karyera nərdivanlarını sürətlə qalxıb. Onun hakimiyyət zirvələrinə gedən yolu sınaqlarla dolu olsa da, hər addımı xalqının rifahına xidmət edib.

Heydər Əliyev əsl dövlət xadimi kimi misilsiz müdrikliyə, strateji təfəkkürə malik idi. O, ölkəsinin dərin ehtiyaclarını duyur və onları təmin etmək üçün düzgün yollar tapmağı bacarırdı. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan siyasi qeyri-sabitlikdən iqtisadi tərəqqiyə doğru irəliləyərək, öz inkişafında nəhəng sıçrayış etmişdir. Onun gələcəyə baxışı həmişə hər bir vətəndaşın rifahı və ləyaqəti üçün qayğı ilə dolu idi.

Heydər Əliyev həmişə öz xalqına sədaqətlə xidmət etmişdir. Onun həyatı Vətənə qeyd-şərtsiz xidmət nümunəsi idi. O, Azərbaycan tarixinin ən çətin anlarında ağır bir məsuliyyət yükünü üzərinə götürərək dövlət başçısı oldu. Ulu öndərin ölkəsinə, xalqına məhəbbəti hədd-hüdud tanımır, cəsarəti və qətiyyəti Azərbaycanın dirçəlişinin açarı idi.

Heydər Əliyev inanılmaz xarizmaya malik şəxsiyyət idi və insanları böyük nailiyyətlərə ruhlandırmağı bilirdi O, insanları necə birləşdirməyi, onları böyük məqsədə çatmaq üçün səfərbər etməyi bacarırdı. O, xalqı üçün əsl tərbiyəçi və müəllim idi.

***

Heydər Əliyevin ən böyük əsəri güclü, müstəqil və çiçəklənən müasir Azərbaycandır. Dövlətin inkişafına onun verdiyi töhfəni qiymətləndirmək çətindir. İqtisadiyyatın bərpası, siyasi sistemin sabitliyi, beynəlxalq mövqelərin möhkəmlənməsi – bütün bunlar onun yorulmaz fəaliyyəti və parlaq rəhbərliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyev təkcə maddi nailiyyətlər deyil, həm də azərbaycanlıların gələcək nəsillərini ruhlandıracaq əbədi dəyərlər qoyub getmişdir.

Adı Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılmış Ulu öndərin həyat və fəaliyyəti sarsılmaz iradə, müdriklik və Vətənə sonsuz məhəbbət nümunəsidir. O, milli qürur və ümid rəmzi, öz ölkəsinə və xalqına xidmət etməyə çalışan hər kəs üçün əbədi ilham mənbəyi idi və belə də qalır.

***

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyət

böhranı, dövlətin idarə olunması uğrunda ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedir və bu, ictimai həyatın bütün sahələrində təhlükəli xaos yaradırdı.

Xalq səfil vəziyyətinə düşmüşdü, sosial gərginlik artırdı. Nəticədə 1993-cü ilin yayında real vətəndaş müharibəsi təhlükəsi yarandı. Suverenliyinin ilk illərində ölkə müstəqil inkişaf yoluna qədəm qoya bilmədi. Üstəlik, atılan bütün addımlar yeni problemlər yaradırdı və bunlar suverenliyin itirilməsinə gətirib çıxara bilərdi. O zaman ölkədəki çaşqınlığı və Ermənistanın elan etmədiyi müharibəni dayandırmaq, qaçqınlarla bağlı problemi tez həll etmək, respublikanın həyatını normal məcraya yönəltmək lazım idi. Belə bir çətin dövrdə uzun illər öz müstəqilliyi uğrunda mübarizə aparan xalqın ziyalıları millətin xilası üçün məsuliyyəti öz üzərinə götürməyi Heydər Əliyevdən israrla xahiş etdilər.

Ulu öndər Azərbaycan dövlətinin və doğma xalqının bu halına biganə qala bilməzdi. O, xalqın dəvətini qəbul edərək, iyunun 9-da Bakıya gəldi və ayın 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev ölkə Prezidenti seçilərək, öz ölkəsinin inkişafının siyasi kursunu dəqiq müəyyənləşdirdi, Azərbaycanı düşmüş olduğu dərin böhrandan, çətinliklə də olsa, xilas etdi.

Heydər Əliyev müstəqil Azərbaycanın rəhbəri kimi öz zəngin təcrübəsi və səriştəli fəaliyyəti ilə çox qısa müddətdə ölkədə sosial gərginliyi aradan qaldırıb, vətəndaş müharibəsinin qarşısını almaqla yanaşı, müstəqil və güclü dövlət quruculuğu prosesinə start verə bildi.

Amma bu illər Azərbaycan üçün ciddi sınaqlar dövrü idi. Qazanılmış müstəqilliyi qoruyub saxlamaq mümkün olacaqdımı? Zaman göstərdi ki, Azərbaycan xalqının milli ruhu hələ sönməyib, onun layiqli lideri, böyük dövlət xadimi olduğu üçün istənilən çətinliyə qalib gələ bilər. Yeri gəlmişkən deyim ki, bütün bu məqamlar mənim 2023-cü ildə Ukraynada nəşr olunan "Отец Нации" ("Millət atası") monoqrafiyamda geniş şəkildə öz əksini tapıb.

Hər bir dövlətin formalaşmasında görkəmli şəxsiyyətlər böyük rol oynayırlar. Lider cəmiyyəti və dövləti irəli aparmaq üçün daim zirvədə olmalı, bütün imkanlarını toplamağı, ondan düzgün istifadə etməyi bacarmalıdır. Azərbaycan xalqı zəngin tarixə, mədəniyyətə, adət-ənənələrinə sahib olan böyük xalqdır. Amma tarixi proseslər elə getdi ki, son bir neçə əsrdə öz müstəqilliyi uğrunda mübarizə aparan Azərbaycan xalqı keçən əsrin əvvəllərində öz suveren dövlətini yaratsa da onu cəmi 23 ay qoruyub saxlaya bildi. Əsrin sonlarında xalq özünün dövlət müstəqilliyini yenidən bərpa etsə də, hakimiyyət uğrunda mübarizələr nəticəsində suverenliyini yenidən itirmək təhlükəsi ilə qarşılaşdı. Yalnız Heydər Əliyev siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycanda vəziyyət əsaslı şəkildə dəyişdi.

Doxsanıncı ilin ortalarında ölkədə dövlət çevrilişnə bir neçə dəfə cəhd edildi. Heydər Əliyevin məharətli fəaliyyəti ilə bunların qarşısı alındı və ölkədə yeni

Əsas qanunun qəbulu ilə konstitusiya quruluşuna qarşı mübarizə qəti şəkildə dayandırıldı. Ölkədə ictimai təhlükəsizlik və sabitlik bərpa olundu.

Heydər Əliyevin fəaliyyəti təkcə yığılıb qalmış problemlərin həllinə deyil, eyni zamanda, ölkənin gələcək inkişafına və dövlətçiliyinin möhkəmlənməsinə yönəlmişdi. Qarşıda, ölkənin siyasi çaşqınlıq vəziyyətindən çıxarılması və dövlətçiliyin əsaslarının bərpası məsələsi dururdu. Eyni zamanda, işsizliyin azaldılması və dövlətin gələcək taleyi üçün ictimai məsuliyyətin formalaşdırılması üçün əsaslı tədbirlər görülməli idi. Heydər Əliyev bütün bu məsələləri öz nəzarətində saxlayır və həll edirdi.

1993-2003-cü illər müxtəlif təhdid və təhlükələrlə müşayiət olundu, gənc respublikaya təzyiqlər həddən artıq böyük idi. Lakin Heydər Əliyevin siyasi nüfuzu və vaxtında qəbul etdiyi düzgün qərarlar Azərbaycanı bu xətalardan sovuşdura bildi. On il ərzində Azərbaycan genişmiqyaslı iqtisadi islahatlar, ölkənin siyasi sisteminin və ictimai münasibətlərin humanistləşdirilməsi ilə paralel olaraq dövlətçiliyin qurulması, demokratik keçid yolu keçmişdir.

Azərbaycan Silahlı Qüvvələri 1994-cü ilin əvvəllərində işğal olunmuş ərazimizin bir hissəsini Ümummilli liderin məharətli rəhbərliyi ilə düşmən tapdağından azad etdi. Lakin ordu quruculuğunu yaxşılaşdırmaq üçün vaxt lazım idi. 1994-cü il mayın 12-də cəbhədə atəşkəs əldə edildi. O zaman Heydər Əliyevin taktikasını lakonik formada belə ifadə etmək olardı: "Müharibədə qalib gəlmək üçün kifayət qədər güclü və ondan qaçmaq üçün müdrik olmaq lazımdır".

Heydər Əliyev Azərbaycanın rəhbəri kimi öz səriştəli fəaliyyəti ilə çox qısa müddətdə ölkədə sosial gərginliyi aradan qaldırıb, vətəndaş müharibəsinin qarşısını almaqla yanaşı, müstəqil və güclü dövlət quruculuğu prosesinə start verə bildi.

Ölkədə ictimai-siyasi həyatın sabitləşməsi, demokratik ənənələrin və təsisatların yaradılması və təkmilləşdirilməsi ardıcıl şəkildə baş verdi. Dövlət aparatı gücləndirildi, səmərəli dövlət idarəetmə institutları formalaşdırıldı. Qarabağ cəbhəsində atəşkəs rejimi şəraitində iqtisadi inkişafın əsas prioritetləri tərtib edildi, 1994-cü ildən başlayaraq müstəqil dövlətin neft strategiyası yaradıldı. Bunun əsası "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyuldu. Azərbaycanın regional logistika mərkəzi kimi rolu Böyük İpək Yolu layihəsində fəal iştirakı ilə dəyişdi. Bundan əlavə, həyata keçirilən xarici siyasət modeli formalaşdırıldı, müasir ordu yaradıldı.

Yeri gəlmişkən bir fikrimi də demək istəyirəm. Əgər Heydər Əliyev sağ olsaydı, bugünkü Ukrayna böhranının həllində Kiyev şəhərinin fəxri vətəndaşı kimi, o, böyük bir vasitəçi missiyasını öz üzərinə götürərdi. Axı, hərbi əməliyyatların və açıq şəkildə vətəndaş qarşıdurmasının getdiyi bir ölkəni idarə etmək çox çətindir.

***

Ümummilli lider siyasi kursun davamlılığının möhkəm əsasını qoydu. Onun

dövlət quruculuğu və iqtisadi dirçəliş sahəsində intensiv fəaliyyəti nəticəsində ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.

Siyasi liderlər xalqların və dövlətlərin taleyinin formalaşmasında əsas rol oynayırlar. Onlar sosial dəyişikliklərin memarı, milli maraqların keşikçiləri və xalq iradəsinin ilhamvericiləridir. Siyasi lider olmaq təkcə imtiyaz deyil, həm də insandan müdriklik, qətiyyət və öz işinə sonsuz sədaqət və fədakarlıq tələb edən böyük məsuliyyətdir.

Ulu öndər hesab edirdi ki, siyasi lider öz ölkəsinin tarixini, mədəniyyətini, iqtisadiyyatını dərindən bilməlidir. Liderin müdrikliyi uzunmüddətli inkişafa və çiçəklənməyə töhfə verən əsaslandırılmış qərarlar qəbul etmək bacarığında təzahür edir. Keçmişi təhlil etməyi və gələcəyi proqnozlaşdırmağı bilən lider xalqını çətinliklərdən və sınaqlardan qurtara bilər. Əsl lideri adi siyasətçidən fərqləndirən əsas cəhət onun vətəninə və xalqına olan sonsuz sədaqətidir. Belə lider xalqının rifahı üçün öz maraqlarını qurban verməyə də hazırdır.

Liderliyin ən vacib cəhətlərindən biri başqalarını ruhlandırmaq bacarığıdır. Siyasi lider xarizmatik olmalıdır ki, insanları dəyişikliklərin zəruriliyinə inandırsın və onları birgə işləməyə səfərbər edə bilsin. Güclü lider insanları ümumi məqsəd ətrafında birləşdirməyi, onlara inam aşılamağı və çətin anlarda dəstək verməyi bacarmalıdır. Ulu öndər milyonlarla insandan vahid bir millət yaratdı.

***

15 İyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və bu, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə bağlıdır.

Bu gün Azərbaycan bir çox beynəlxalq birlik və təşkilatların üzvüdür. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyev dünya siyasətinə bələdliyi, qətiyyəti, xarizması bütün beynəlxalq və mötəbər tədbirlərdə parlaq çıxışları, verdiyi vədləri yerinə yetirməsi ilə böyük nüfuz qazanıb. Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında 200 illik erməni işğalına son qoyub, Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Bu, Azərbaycan xalqında, dünyanın müxtəlif guşələrində yaşayan bütün azərbaycanlılarda haqlı fəxarət və qürur hissi yaradır. Bütün bu uğurlarımızın bünövrəsi 31 il bundan əvvəl – iyunun 15-də qoyulmuşdur. Bayramımız mübarək olsun!

**Arif QULİYEV,**
**Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, hüquq elmləri doktoru, Universitetin elmi şurasının üzvü, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki;**
**Kamil ƏLİYEV,**
**Bakı şəhər Səbail rayon Ağsaqqallar Şurasının üzvü, hüquqşünas.**

# MİLLİ ŞÜURUN DİRÇƏLDİLMƏSİ, XALQIN ÖZÜNƏ QAYIDIŞ TARİXİ

**Hər bir xalqın tarixində, taleyində Lider faktorunun müstəsna əhəmiyyəti var. Milli Liderlə bağlı tarixi günlər də daşıdığı məna yükü ilə xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən 14 iyul 1969-cu il – Azərbaycan tarixinə sıradan bir təqvim günü deyil, müstəqilliyə gedən yolun, inkişafın, intibahın və yüksəlişin başlanğıcı, xalqın özünə qayıdış tarixi kimi düşüb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP) 1969-cu il 14 iyul plenumunda respublika siyasətinə cavabdeh seçilməsindən düz 55 il ötür. Bəs bu gün özünün ən güclü və möhtəşəm dövrünü yaşayan bir xalq üçün 14 iyul tarixinin, bütövlükdə Ümummilli Liderin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 13 illik mərhələnin – 1969-1982-ci illərin xüsusi əhəmiyyəti nədir? Bu dövr xalqımıza nə verdi? Ümummilli Liderin sovet dövründə 13 illik fəaliyyəti olmasaydı, indiki Azərbaycan necə görünərdi? Yəqin ki, bu barədə çoxumuz düşünmüşük.**

## Xilaskarlıq missiyası: milli şüurun dirçəldilməsi, soykökə qayıdışın başlanğıcı

Ulu Öndərin dövlət xadimi kimi formalaşmasında ötən əsrin 50-60-cı illəri həlledici rol oynayıb. Məhz bu illərdə vəzifə pillələrində yüksəlişi ona imkan verirdi ki, sovet dövlətçiliyinin mahiyyətinə dərindən bələd olsun. Çoxsaylı repressiyalardan, II Dünya müharibəsindən çıxmış sovetlərin çekist sistemindən hakimiyyət birinciliyinə gəlmək, Nərimanov və Bağırovun acı taleyindən sonra 1969-cu ildə Azərbaycana rəhbərlik etmək çox çətin bir missiya idi. Onu da xüsusi vurğalayaq ki, çarizm, cümhuriyyət və sovet dövrü liderlərinin heç biri onun qədər yüksələ, uzun illər zirvədə qala və ikinci dəfə hakimiyyətə qayıda bilmədilər. Həmin illərdə milli kadrlar heç nəyi həll edə bilmirdi, dövlət təhlükəsizliyi orqanlarında isə vəziyyət, sadəcə olaraq, milli mənafelər baxımından faciəli idi. Həmin dövrdə Ulu Öndər Heydər Əliyev müəyyən taktiki addımlarla mənsub olduğu xalq üçün strateji planları həyata keçirməyə çalışdı. Bunlardan birincisi isə xalqı özünə tanıtdırmaq, onun etnokulturoloji həyatını bərpa etmək idi. Dahi şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürdü, ictimai şüurdakı qorxunu aradan qaldırdı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırdı. Hər bir Azərbaycan vətəndaşına belə bir inam aşılandı ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq. Ümummilli Liderimiz Azərbaycan xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratdı.

Heydər Əliyevin 1969-cu ilin iyulunda təhvil aldığı Azərbaycanın elitası kosmopolit və daha çox rusdilli idi. Paytaxt Bakı elitanın formalaması baxımından milli xüsusiyyətlərdən getdikcə uzaqlaşırdı. Ulu Öndər ilk növbədə sosial-iqtisadi alətlərin

köməyi ilə çox qısa bir müddətdə bu prosesin axarını dəyişməyə nail oldu. Ondan öncə elitanın formalaşması prosesi əsasən imperiya mərkəzinə bağlı klientalist bir mühitdə baş verirdi. Belə bir mühitdə millət öz elitasını formalaşdıra bilmir, çünki "sosial lift"lər çalışmırdı. Belə olduğu halda millətin ən layiqli övladları "mədəni surətdə" siyasi idarəetmədən kənarda saxlanılır, rus, erməni və sair qeyri-azərbaycanlı mənşəli elitanı qoruyub saxlayırdı.

Ümummilli Lider yaxşı başa düşürdü ki, hər bir xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək çətin missiyadır, lakin həmin xalqın mövcudluğu və gələcəyi üçün mühüm şərtdir. Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – XX əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq əsrin sonlarına doğru – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurdu.

Beləliklə, 1969-cu il iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi - təqribən on üç illik dövr xalqımızın tarixinə həm də milli özünüdərkin, soykökə qayıdışın başlanğıc dövrü kimi yazıldı. Bu həm də bir liderin milləti getdikcə assimilyasiya olunmaq təhlükəsindən xilas etməsi demək idi. O, milli siyasət həyata keçirməklə sovet liderlərinə məxsus stereotipləri dağıtdı. Zəkası, vətənpərvərliyi və təşəbbüskarlığı ilə respublikamıza düşmən münasibət bəsləyən qüvvələrin cəhdlərinin qarşısını aldı, tərəqqinin sosial-iqtisadi bazasını yaratmaqla yanaşı, siyasi-ideoloji əhəmiyyətə malik olan mühüm işlər gördü. Ulu Öndərin bu xilaskarlıq missiyası ilə bağlı Prezident İlham Əliyev bu sözləri qeyd etmişdir: "Azərbaycan xalqı öz xilasını, öz gələcəyini ancaq Heydər Əliyevdə görürdü və bu münasibətin, bu fikirlərin, əlbəttə ki, çox böyük əsasları vardı. Çünki 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycanda yaşanan inkişaf Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan üçün həlledici anlarda məhz onun qətiyyəti, onun sözü həlledici rol oynamışdır".

### Aqrar əyalətdən inkişaf etmiş sənaye respublikasına doğru

Sovet hakimiyyəti illərində Azərbaycan zəngin potensiala malik olsa da, SSRİ büdcəsini külli miqdarda vəsaitlə təmin etsə də, zəif aqrar respublika, xam neft istehsalçısı kimi tanınır, bir sıra sosial-iqtisadi göstəricilərə görə digər respublikalardan geri qalırdı. Yaranmış vəziyyət əsaslı dönüş, ciddi islahatlar tələb edirdi. Ulu Öndər məhz bu istiqamətdə fundamental strateji tədbirlər görməklə davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Bu dövrdə sənayeləşmə iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi və digər işlər sayəsində bu sahədə mühüm irəliləyiş qeydə alındı. Azərbaycanın qısa müddətdə ittifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşması təsadüfi deyildi.

Bu, eyni zamanda aqrar sektorda da canlanmaya və inkişaf meyillərinə zəmin yaratdı. Kənd təsərrüfatı sənaye təməli üzərində inkişaf etdirildi və istehsal olunan məhsulların orta illik həcmi davamlı olaraq artırıldı.

Eyni zamanda neft sənayesinin inkişafına diqqət artırıldı. Neft hasilatının artırılmasını təmin etməklə, ehtiyatlardan səmərəli istifadə sayəsində bu sahədə sabit və davamlı inkişafa nail olundu.

1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara veridi, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olundu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artdı. Respublikada adambaşına düşən ümumdaxili məhsul istehsalının 2,5, sənaye istehsalının 3, kənd təsərrüfatı məhsullarının 2 dəfə artımına nail olundu.

Həmin illərdə Azərbaycan nəhəng tikinti-quruculuq meydanını xatırladırdı. Görülən işlər nəticəsində Bakının və respublika rayonlarının siması yeniləndi. Yaşayış binalarının, mehmanxanaların, məktəblərin, mədəniyyət saraylarının tikilməsi, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklərin, zavodların, nəhəng sənaye obyektlərinin, iri istehsal komplekslərinin, su anbarlarının, müasir yol infrastrukturunun yaradılması sosial-iqtisadi inkişafa yeni təkan və töhfə verdi. Respublikanın paytaxtı Bakı yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyuldu, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verildi.

1983-cü ildə Bakı-Qroznı neft kəmərinin, 1985-ci ildə Dərin Dəniz Özülləri Zavodunun, Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Sumqayıtda Məişət Kompressorları zavodlarının, 1981-1984-cü illərdə Şəmkir Su-Elektrik Stansiyasının və digər sənaye obyektlərinin tikilib istifadəyə verilməsi sürətlə inkişaf edən Azərbaycanda əhalinin rifahının yaxşılaşmasına ciddi təsir göstərdi. Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verildi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi sayəsində digər ittifaq ölkələrindən fərqli olaraq, SSRİ məkanında iki respublika – Rusiya Federasiyası və Azərbaycan dotasiya olmadan yaşayırdı. Beləliklə, iqtisadi bazanın gücləndirilməsi digər sahələrdə də inkişaf üçün etibarlı zəmin, əlverişli şərait formalaşdırdı.

### Milli kadrların hazırlanması və elmi-mədəni elitanın formalaşdırılması

1969-1982-ci illərdə müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən

milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Təhsil sektorunda ardıcıl və davamlı islahatlar həyata keçirildi. İlk növbədə təhsil sektorunun maddi-texniki bazası yaxşılaşdırıldı. Xüsusi intellektual təbəqənin formalaşdırılması istiqamətində normativ baza yaradıldı və buna müvafiq olaraq praktik müstəvidə əhəmiyyətli tədbirlər görüldü.

Ümummilli Liderin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də bu idi ki, Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlının yüksəkixtisaslı mütəxəssis kimi hazırlanması həyata keçirilmişdir. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər.

Ulu Öndər azərbaycanlı gənclərin Rusiyanın nüfuzlu universitetlərində təhsil almaları üçün əlavə yerlər ayrılmasına nail olurdu və sovet dövründə bu ölkənin ali məktəblərində təhsil alan gənclərimizin sayı artırdı. Əgər 1969-1970-ci tədris ilində təhsil almaq üçün

47 gənc göndərilmişdisə, 1975-ci ildə bu göstərici 14 dəfə artaraq təxminən 700 nəfərə çatmışdı. Bu sahədə artım sonrakı illərdə də davam etdirildi. Əgər 1970-ci ilə qədər təhsil almaq üçün respublikadan kənara göndərilənlər içərisində azərbaycanlılar yalnız 40 faiz təşkil edirdisə, 1976-cı ildə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci ildə 97,6 faizə çatmışdır.

Bundan başqa, 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli Liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb.

Ulu Öndər ölkəmiz üçün hərbi kadrların hazırlanması məsələsini də daima diqqətdə saxlayırdı. Belə ki, milli hərbi kadrları yetişdirmək və Sovet İttifaqının hərbi ali məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək üçün 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Bununla yanaşı, Heydər Əliyev gənclərimizin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu var. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, 44 günlük

Vətən müharibəsində yüksək peşəkarlıq, nümunəvi qəhrəmanlıq, rəşadət və cəsarət göstəriblər.

Ulu Öndər elm və təhsilin xalqın taleyindəki rolunu, təhsildən başlayan yolun elmin zirvələrinə doğru irəlilədiyini çox yaxşı bilirdi. Əsl ziyalıları, müasir inkişafın tələblərinə cavab verən, xalqın dünyada tanınmasına ürəkdən çalışan milli elitanı formalaşdırmaq heç də asan iş deyildi. Ümummilli Lider Heydər Əliyev bəzi ideoloji çətinliklərə baxmayaraq, hələ sovet dövründən etibarən Azərbaycan xalqının önəmli ziyalılarının yetişdirilməsi məsələsinə xüsusi diqqət yetirməyə başlamışdı. Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdə, XX əsrin 70-80-ci illərində Elmlər Akademiyasının alimlərinin fəaliyyəti dünyanın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. İqtisadiyyat və elm sahəsində nailiyyətlərinə görə Azərbaycan Elmlər Akademiyası "Xalqlar Dostluğu" ordeninə layiq görülmüşdü. Bu yüksək mükafatı 1975-ci ildə Ümummilli Lider şəxsən özü təqdim etmişdir. Onun Azərbaycan elminə qayğısı sayəsində Elmlər Akademiyasının daha müasir elmi elitası formalaşmış və dünya elmi arenasında öz yerini tapmışdır. Ulu Öndər xalqın elmi-intellektual potensialının möhkəmləndirilməsinə daim diqqət yetirmişdir.

## Milli kimliyin qorunmasında misli görünməmiş cəsarət nümunəsi

Ümummilli Lider Heydər Əliyev siyasi-ideoloji müstəvidə sovet mühiti və rejimi üçün kifayət qədər cəsarət tələb edən bir sıra addımlar atmışdır. Ulu Öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misli görünməmiş cəsarət, siyasi müdriklik nümayiş etdirdi, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirdi. Bunun davamı olaraq o, yüksəksəviyyəli digər yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazandı. 1978-ci il aprel ayının 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Həmin dövrdə belə bir maddənin əlavə edilməsi çox böyük risk idi. Lakin Ulu Öndər hər bir təhlükəni gözə alaraq milli iradə nümayiş etdirmiş və öz istəyinə nail ola bilmişdi. Təsadüfi deyil ki, bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı ki, bu da bəhs edilən siyasətin milli-ideoloji davamı idi.

Beləliklə, sovet dövründəki siyasi-ideoloji məhdudiyyətlərə baxmayaraq, xalqımızın milli-mənəvi dəyərləri qorundu və zənginləşdirildi, azərbaycançılıq məfku-

rəsinin ictimai fikirdə aparıcı yer tutması məqsədilə əlverişli ictimai-siyasi, elmi-mənəvi mühit formalaşdırıldı. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparıldı, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlandı. Paytaxt Bakıda və digər şəhər və rayonlarda tanınmış mədəniyyət, ədəbiyyat və elm xadimlərinin abidələrinin ucaldılmasına nail olundu. Ulu Öndərin həmin siyasətinin nəticəsi idi ki, 1970-ci illərdə Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin və başqa görkəmli soydaşlarımızın abidəsi qoyuldu.

1976-cı ildə Şuşanın sosial-iqtisadi inkişafı haqqında qərar qəbul ediləndən sonra bu şəhərdə Xan qızı Natəvanın abidəsi ucaldıldı. Bu illərdə Bakıda və başqa şəhərlərdə çoxlu sayda tarix-diyarşünaslıq muzeyləri, Səməd Vurğunun, Cəfər Cabbarlının, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri yaradıldı. Xüsusi bir qərarla repressiya qurbanlarının - Mikayıl Müşfiq və Hüseyn Cavidin ev-muzeyləri yaradıldı.

1970-1982-ci illərdə Heydər Əliyev Azərbaycan mədəniyyət və elm xadimlərinin onlarla nümayəndəsinə Sosialist Əməyi Qəhrəmanı adını verdi. Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Mustafa Topçubaşov, Mikayıl Hüseynov kimi görkəmli Azərbaycan ziyalıları həmin böyük adlara məhz Ulu Öndər Heydər Əliyevin sayəsində layiq görüldü. Bütövlükdə mədəniyyət və incəsənətin – kinematoqrafiya, xalçaçılıq, rəngkarlıq, dekorativ-tətbiqi sənət, heykəltaraşlıq sahələrinin inkişafına da Ulu Öndər Heydər Əliyev yüksək qayğı göstərirdi.

### Ulu Öndərin sovet dövründəki xidmətləri böyük ehtiramla xatırlanır

1982-ci ilin dekabrında Heydər Əliyev SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, bunun ardınca SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə bir çox mühüm sahəyə nəzarət və rəhbərlik edirdi. Ulu Öndər fəaliyyəti ilə təkcə sovet məkanında deyil, onun sərhədlərini aşan böyük nüfuza sahib oldu. Onun xüsusilə Baykal Amur Magistralının (BAM) tikintisinə, magistral xətt boyunca yüzlərcə stansiyanın, şəhərlərin inşasına rəhbərlik etməsi bu gün də böyük hörmət və ehtiramla xatırlanır. Bu yaxınlarda Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşdə bildirdi ki, "Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Baykal-Amur Magistralının tikintisinə kuratorluq edirdi, bu çox çətin layi-

hənin baş tutması üçün əlindən gələni əsirgəmirdi".

Ulu Öndər Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən dünyanın ən mürəkkəb tuneli sayılan və xarici ölkə şirkətlərinin inşa edə bilmədiyi Baykal-Amur Magistralındakı Severomuyski tuneli uğurla tikilib. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisinə başlanılan magistralın 210 kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edilib və onun ətrafında Ulkan qəsəbəsi salınıb. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilib. Qeyd edək ki, Azərbaycandan ilk inşaat dəstəsi bu ərazilərə 1975-ci ilin əvvəlində gəlib. Azərbaycanlıların da iştirakı ilə tikilən və 209 km uzunluqda olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırılıb.

## Dirçəlişdən Qurtuluşa və Zəfərə gedən yol

1969-cu ildən keçən 55 illik tarixi bir dövr Ulu Öndərin sovet dövründə 13 illik fəaliyyəti ərzində gördüyü işlərin möhtəşəmliyini, uzaqgörən strateji düşüncənin coğrafiyasının genişliyini göstərir. Tarix bir daha sübut etdi ki, 44 günlük Vətən müharibəsində Zəfərin qazanılması, həmçinin postmürahibə dövründə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası və təminatı üçün atılmış düşünülmüş addımlar son yarıməsrlik Heydər Əliyev siyasi kursunun parlaq nəticələridir. XX əsrin 60-cı illərində müstəqilliyimizin fundamental əsasları olan nəhəng quruculuq işləri görülməsəydi, müstəqilliyimiz və zəfərimiz də bu qədər möhtəşəm və əbədi olmazdı. Tarix sübut etdi ki, Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu hər iki mərhələ arasındakı, xüsusilə 1985-1993-cü illərdə "dövlət quruculuq xətti" qırılan kimi sovet coğrafiyasının hər yerində – təkcə Ermənistandan deyil, Rusiyadan Orta Asiyaya və Gürcüstana qədər azərbaycanlılara qarşı təzyiqlər və onların kütləvi köçü başlandı.

Xüsusilə qeyd edək ki, 1985-ci ildə SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə gəlməsi, Qorbaçov hakimiyyətinin "beyin komandası"nda ermənilərin üstünlük təşkil etməsi və Moskvadakı yeganə azərbaycanlı Heydər Əliyevin vəzifədən uzaqlaşdırılması "Miatsum" tələblərinin artması ilə nəticələndi. 1993-cü ildə xiyabanlara və çadır şəhərciklərinə bürünən Azərbaycana xalqın təkidi ilə rəhbərliyə dəvət ediləndə də Ulu Öndər Heydər Əliyev hansı tarixi missiya qarşısında olduğunu yaxşı dərk edirdi.

Bu səbəbdən onun 1993-cü il iyunun 15-də Azərbaycan Respublikasına yenidən rəhbərliyə qayıtması xalqın, dövlətin və dövlətçiliyin yenidən Qurtuluşu idi.

**Araz XUDADANOV,**
**Yeni Azərbaycan Partiyası Sabunçu Rayon Təşkilatının sədri**

# DAVAMLI UĞURLARA TƏMİNAT YARADAN İNKİŞAF KONSEPSİYASININ MÜƏLLİFİ

Çoxluğun mənafelərini özündə ehtiva edən ideyaları və idarəçilik keyfiyyətləri ilə sabit dövlətçilik ənənələri formalaşdıran şəxsiyyətlər mürəkkəb siyasi şəraitlərdə məsuliyyəti üzərilərinə götürərək xalqının taleyində misilsiz rol oynayır, fövqəladə missiyaları ilə seçilirlər. Bu günün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz belə fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı təmin edirlər.

Əminliklə deyə bilərik ki, dünya miqyaslı ictimai-siyasi xadim, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin nəinki ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmış, eyni zamanda xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş fenomen şəxsiyyət kimi bu gün ehtiramla yad edilir, anılır.

55 il əvvəl – 1969-cü il iyulun 14-də keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi plenumunun iclasında Ümummilli Liderin Azərbaycan rəhbərliyinə irəli çəkilməsi respublikamızın tarixində yeni siyasi mərhələnin başlanğıcı olmuşdur. Müdrik rəhbər plenumda dərinməzmunlu çıxış edərək qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirmişdi.

Ulu Öndər Heydər Əliyevdən əvvəlki respublika rəhbərləri nomenklatur məmur kimi respublikada mərkəzin siyasətini həyata keçirmiş, bu siyasətin Azərbaycan xalqının mənafeyinə zidd olan məqamlarında lazımi cəsarət və qətiyyət nümunəsi göstərib sözlərini deməmişdilər. Bütün bunlar isə respublikada sosial-iqtisadi tənəzzülün, durğunluğun, bürokratik amillərin, rüşvətxorluq və korrupsiyanın geniş vüsət almasına gətirib çıxarmışdı. İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsində olan respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafının təmin edilməsi üçün işlək proqramlar hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda, iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunda çıxışı zamanı respublika iqtisadiyyatının inkişafında müəyyən çətinliklərin, problemlərin olduğunu vurğulamış, xalq təsərrüfatının bir çox sahələrinin geri qaldığını qeyd etmişdir. Bu qətiyyətli mövqeyi ilə həm də keçmiş rejimin eyiblərini üzə çıxarmış, ictimailəşdirmişdi. Mərkəzin icazəsi olmadan hansısa sahədəki vəziyyətin təhlili, zəhmətkeşlərin hansısa vəzifələr ətrafında səfərbərliyə alınması kommunist mənafeyini xalqa bağlılıq hissindən daha yüksəkdə tutan insanlar üçün, sözün əsl mənasında, möcüzə kimi görünürdü. Fəqət, bu qətiyyətli mövqe dövlətini, xalqını daha yaxşı vəziyyətdə görmək istəyən rəhbərin acınacaqlı vəziyyətlə barışmazlığının bariz ifadəsi idi. Ötən əsrin 60-cı illərinin sonuna doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin dərin kök saldığı

Azərbaycanda siyasi rəhbərliyə seçilən yeni rəhbərin ilk işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət olmuşdur.

Ulu Öndər Heydər Əliyevin qətiyyət və əzmkarlıq hesabına formalaşdırmağa başladığı sənaye potensialı əsasında respublikamız ötən əsrin 70-ci illərində neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektromaqnit avadanlığı, soyuducular, sintetik kauçuk, boru-prokat, şüşə və şüşə qablar və s. istehsalına görə ittifaq miqyasında qabaqcıl mövqelərə çıxmışdı. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də milli iqtisadiyyatın güclü sənaye kompleksi üçün möhkəm təməldir. Yeri gəlmişkən, 1963-cü ildə işə başlayan, "Xəzər" Səhmdar Cəmiyyətinin istehsal obyekti və müstəqil respublikamızda şüşə sənayesinin formalaşmasına mühüm töhfə verən Sumqayıt Şüşə Zavodunun intibah dövrü də məhz Ümummilli Liderin respublikaya birinci rəhbərlik dövrünə təsadüf edir. Bunun nəticəsi olaraq Azərbaycan keçmiş SSRİ-nin bir sıra respublikalarını, habelə Rusiyanın bir çox bölgələrini keyfiyyətli pəncərə şüşəsi ilə təmin edirdi.

Həmin illərdə xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, sivilizasiyaların qovşağında Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdılması Ulu Öndər Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri idi. Xalqına, onun keçmişinə, tarixinə, adət-ənənələrinə, milli dəyərlərinə qəlbən bağlı olan bir şəxsiyyətin vətənpərvər fəaliyyəti imperiya dövründə Azərbaycanda bütün sahələr üzrə intibaha və milli özünüdərkə əsaslı zəmin yaratmışdır.

1970-ci illərdə milliliyə xidmət edən kompleks mədəni-kütləvi tədbirlər həyata keçirilmiş, ədəbi irsə, mədəniyyətə və milli ruhlu ziyalı təbəqəsinə qayğı gücləndirildi. Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə müqəddəs Qurban və Ramazan bayramlarının keçirilməsinə heç bir əngəl yaradılmır, dindarlar bu bayramları sovet rejimi şəraitində qeyri-rəsmi səviyyədə keçirir, dini ayinləri rahatlıqla icra edə bilirdilər.

Həmin illərdə Azərbaycanın tarixinin, ədəbiyyatının, incəsənətinin, milli-mənəvi dəyərlərinin inkişafı üçün meydan açılmış, milli ruhlu ədəbi nümunələr üzə çıxmış, dilimizin inkişafına imkan yaranmışdır. Müdrik respublika rəhbərinin qayğısı ilə o illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır. Məhz Ulu Öndərin fədakar səyləri ilə 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili respublikanın rəsmi dili kimi təsbit edilmiş, 3 cildlik "Azərbaycan dili" kitabı çapdan çıxmış, milli mədəniyyətə geniş yer ayıran 10 cildlik ensiklopediya hazırlanmışdır.

Sovet imperiyasının tərkibində olduğu müddətdə respublikada milli hərbi kadrların hazırlığı məqsədilə hərbi məktəblərin açılması, ölkəmiz üçün zəruri sahələr üzrə pe-

şəkar mütəxəssislərin hazırlanması üçün keçmiş SSRİ-nin ali məktəblərinə tələbələrin göndərilməsi də məhz Ümummilli Liderin adı ilə bağlıdır. Statistik rəqəmlər təsdiqləyir ki, ötən əsrin 70-ci illərinədək Cənubi Qafqaz respublikaları arasında azərbaycanlıların SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müəyyən limit qoyulurdu. Azərbaycanlıların bir qayda olaraq əsasən, ədəbiyyat, musiqi sahələri üzrə ittifaq miqyaslı ali məktəblərdə təhsil almalarına icazə verilirdi. Lakin 1970-ci illərdən başlayaraq, bu istiqamətdə də ciddi dönüş əldə edilmiş, hər il yüzlərlə azərbaycanlı gənc ittifaqın nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və s. kimi mühüm ixtisaslar üzrə təhsil almağa göndərilirdilər.

Ulu Öndər 1982-ci ildən sonra fəaliyyətini Moskvada – keçmiş ittifaqın Nazirlər Soveti sədrinin müavini postunda davam etdirməli olsa da, hər zaman xalqını, vətənini düşünmüş, milli mənafeləri uca tutmuşdur. 1980-ci illərin sonuna yaxın Ermənistanın ərazi iddiaları ilə üzləşmiş Azərbaycanın haqlı mövqeyinin müdafiəsi ilə bağlı verdiyi bəyanatlar, nümayiş etdirdiyi əzmkar mövqe bir daha təsdiqlədi ki, bu prinsipial şəxsiyyəti həqiqəti deməkdən çəkindirmək mümkün deyildir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə süqut ərəfəsində olan sovet rejiminin Azərbaycan xalqına qarşı törətdiyi ağır cinayətə ilk reaksiya da məhz Ulu Öndər Heydər Əliyevdən gəlmişdir. Azərbaycanın ciddi informasiya blokadasına salındığı bir zamanda ailəsi ilə birgə respublikanın Moskvadakı nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən qətiyyətli rəhbər imperiyanın ifşası, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bir sıra prinsipial addımlar atmış, üzləşdiyi təzyiqlərə məhəl qoymadan, cəsarəti, yenilməzliyi ilə Azərbaycana sədaqətini nümayiş etdirmişdir.

Azərbaycan 1991-ci ilin 18 oktyabrında dövlət müstəqiliyini bərpa etsə də, hakimiyyətdə olan naşı qüvvələrin uğursuz siyasəti üzündən respublikanın hər bir vətəndaşının mənafeyinin uca tutulduğu hüquqi, demokratik və qüdrətli dövlətin yaradılması sadəcə xoş ideya olaraq qalmışdı. 1991-1993-cü illərdə respublikada iqtisadi tənəzzül güclənmiş, siyasi böhran dərinləşmiş, cəbhə bölgəsində hərbi uğursuzluqlar artmış, vətəndaş qarşıdurması parçalanma həddinə çatmış, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində acınacaqlı vəziyyət yaranmışdı. 1993-cü ildə xalq ölkəni bu vəziyyətdən çıxaracaq yeganə lideri - Ümummilli Lider Heydər Əliyevin şəxsində görürdü. Həmin ilin iyununda xalqın təkidli istəyi əsasında Bakıya qayıdan Heydər Əliyev Azərbaycan dövlətçiliyini iflasdan, fəlakətdən qurtarmış, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltmişdir. Sonrakı mərhələdə məhz Heydər Əliyevin titanik səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır.

Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi Ümummilli Liderlik zirvəsinə ucalmış Heydər Əliyev müstəqil respublikamızın

özünəməxsus inkişaf modelinin banisi kimi də böyük rəğbətlə xatırlanır. Ulu Öndər Heydər Əliyev özünün dərin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumdaxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Böyük müdriklik və iqtisadi hesablama əsasında müəyyənləşdirilmiş bu iqtisadi inkişaf konsepsiyasının özəyini üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatlar təşkil etmişdir: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadi dirçəlişə nail olmaq. Hər bir mərhələyə uyğun həyata keçirilən iqtisadi islahatlar nəticəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitlik təmin edilmiş, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başlamışdır. Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdur.

Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət etmişdir. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına etibarlı zəmin yaratmışdır.

Ümummilli Lider Heydər Əliyev respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997-2002-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın dinamik sosial-iqtisadi inkişafına təkan verən islahatları 2003-cü ilin 15 oktyabrından Ümummilli Liderin ən layiqli siyasi davamçısı – Prezident İlham Əliyev inamla davam etdirir. Dövlət başçısının ötən 21 ildə əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublikamızın yeni sosial-iqtisadi inkişaf təmayüllərini müəyyənləşdirməklə yanaşı, davamlı uğurlara zəmin yaratmış, hər bir vətəndaşın hə-

yatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Prezident İlham Əliyevin fəaliyyətinə nəzər yetirdikdə aydın olur ki, bu müddətdə konturları hələ Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda isə məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi və siyasi islahatların inamla davam etdirilməsi üzləşdiyimiz ədalətsiz münaqişənin 2020-ci ildə hərb yolu ilə Azərbaycanın maraqlarına uyğun həllinə gətirib çıxarmışdır. 2003-cü ildən bu yolda addım-addım irəliləyən Prezident İlham Əliyev Azərbaycan xalqını illərdir həsrətində olduğu Qələbə sevincinə qovuşdurmuşdur. Hucüm xəttinə əsaslanan xarici siyasət yürüdən rəsmi Bakının xarici siyasətdə müəyyənləşdirdiyi əsas hədəflərdən biri də Ermənistanın təcavüzkarlıq siyasətinin qlobal miqyasda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün doğurduğu təhdidlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olmuşdur. Respublikamız diplomatik fəaliyyət sferasında məhz hücum taktikasından çıxış edərək, Ermənistanın və ermənipərəst dairələrin yalan üzərində qurulmuş saxta təbliğatını ifşa etmişdir.

Azərbaycan son 3 ildə postmüharibə dövrünün yeni reallıqlarını nəinki dünya birliyinə, eləcə də Ermənistana və onu dəstəkləyən bəzi dövlətlərə qəbul etdirməyə nail olmuşdur. Bunun nəticəsidir ki, rəsmi İrəvan Azərbaycanın yekun sülh sazişi üçün irəli sürdüyü 5 prinsipi qəbul edərək birbaşa danışıqlara başlamağa məcbur olmuşdur.

Dövlət suverenliyini təmin etmiş bütöv Azərbaycanda 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində xalqının böyük etimadını qazanan cənab İlham Əliyev ona göstərilən etimadı ötən illərdə fəaliyyəti ilə tam doğrultuşdur. "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı", - deyən dövlət başçısı idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini zəruri sayır.

Ötən 21 ildə Azərbaycanın nail olduğu inanılmaz sosial-iqtisadi nəticələr, yürütdüyü çevik diplomatiya, döyüş meydanında qazandığı ədalətli zəfər fonunda dünya ictimaiyyəti hazırda cənab İlham Əliyevi hətta mümkün görünməyəni reallaşdırmaq qabiliyyətində olan lider kimi qəbul edir. Özünün də vurğuladığı kimi, "Nəyi necə və nə zaman" etməli olduğunu yaxşı bilən Prezident İlham Əliyevin əsl siyasi liderə xas təmkini, real vəziyyəti, geosiyasi konyunkturanı dəyərləndirmək, siyasi proseslərin inkişaf axarını düzgün proqnozlaşdırmaq məharəti, pafosdan, populizmdən uzaq olması qazanılan əlahiddə uğurları şərtləndirən mühüm amillər sırasındadır.

Ümumi şəkildə desək, dövlətimizin başçısının səmərəli iqtisadi siyasəti ötən dövrdə ölkəmizin davamlı tərəqqisinə, xalqın rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına, işsizlik və yoxsulluğun səviyyəsinin xeyli dərəcədə azaldılmasına, çadır düşərgələrinin ləğvinə, ən əsası, Azərbaycanın heç bir

dövlətdən asılı olmayan müstəqil siyasət yürütməsinə zəmin yaratmışdır. Dövlət başçısı İlham Əliyevin gerçəkləşdirdiyi uğurlu diplomatiya respublikamızın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, TAP, TANAP kimi layihələrin reallaşdırılması, 3 süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla gerçəkləşmiş, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənmişdir.

Səmərəli idarəetmə sistemi xalqın mənafeyinə cavab verən strateji əhəmiyyətli qərarların qəbulu ilə yanaşı, konkret zamanda həyata keçirilmiş tədbirlər sistemi ilə bağlı müntəzəm olaraq ictimaiyyətin məlumatlandırılmasını da zəruri tələb kimi önə çıxarır. Səmərəli və şəffaf idarəçiliyi hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş dövlət başçısı İlham Əliyevin idarəçilik konsepsiyasında da bu mütərəqqi prinsip daim önə çəkilir. İdarəçiliyin asanlaşdırılması və bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi strateji xətt olaraq diqqət mərkəzindədir. "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini açır.

Şübhəsiz, 30 ilə yaxın müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən iqtisadi təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biridir. İqtisadçı alim kimi bu qənaətdəyəm ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda suverenliyini təmin etməsi ilə həmin ərazilərin ümumi iqtisadiyyata inteqrasiyası, regional inkişaf prosesi güclənəcəkdir.

Dövlət başçısı İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına müntəzəm səfərləri, həyata keçirilən bərpa və yenidənqurma işlərinin gedişi ilə tanış olması Böyük qayıdış proqramının icrasının hökumət üçün prioritet məsələ olduğunu təsdiqləyir. 16 noyabr 2022-ci il tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" bu istiqamətdə işlərin sistemli, ardıcıl, əhatəli, konkret plan üzrə aparılmasına təminat yaratmışdır. Azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin dirçəldilməsi, əlverişli biznes və sərmayə mühitinin formalaşdırılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq şəxslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi, resursların maya dəyərinin azaldılması və digər mühüm tədbirlər dövlət proqramının əhəmiyyətini daha da artırır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən abadlıq-quruculuq işlərinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva da layiqli töhfələrini verir. Dövlət başçısı İlham Əliyevi işğaldan azad edilmiş ərazilərə səfər zamanı müşayiət edən birinci xanım Mehriban Əliyeva özünəməxsus səmimiyyətlə paylaşımlar edir, ictimai diqqəti erməni vandalizminin ağır fəsadlarına yönəldir. Ey-

ni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihə və tədbirlər barədə ictimaiyyətə müəyyən mesajlar, məlumatlar verir. Birinci vitse-prezidentin göstərişi əsasında Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizin problemlərini diqqətdə saxlayır, onların qayğısına qalır.

Prezident İlham Əliyevin yürütdüyü çevik və hücum xətti üzərində qurulan diplomatiyanın uğurlu təzahürlərindən biri də Azərbaycanın qlobal forumların, tədbirlərin keçirildiyi məkana çevrilməsi, beynəlxalq nüfuzunun artmasıdır. Ölkəmiz regionun iri neft və qaz hasilatçılarından biri kimi müasir dünyanın yeni çağırışlarını əsas tutaraq malik olduğu alternativ enerji mənbələrindən səmərəli istifadə istiqamətində də kompleks tədbirlər həyata keçirir. Bu sahədə rellaşdırılan tədbirlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin nəticəsi olaraq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu ilin noyabrında Azərbaycanda keçirilməsinə qərar verilmişdir.

Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, azad olunmuş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü dövlət siyasətinin təzahürüdür. Rəsmi Bakının "yaşıl enerji"yə keçid strategiyası qısa zamanda Azərbaycanın həm Avropa, həm müsəlman dünyası, həm də Yaxın və Uşaq Şərq ölkələri ilə əlaqələrinə ciddi təkan vermişdir.

Ölkəmiz üçün mühüm siyasi və iqtisadi çağırışlar, eləcə də COP29 kimi qlobal əhəmiyyətli beynəlxalq tədbir ərəfəsində növbədənkənar parlament seçkilərinin təyin olunması da obyektiv reallıqlarla şərtlənir. Əminliklə deyə bilərik ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ölkədə siyasi və iqtisadi islahatların sürətləndirilməsində, hakimiyyətin qanunverici qolunun fəaliyyətinin daha da müasirləşməsində keyfiyyətcə yeni mərhələ açacaqdır. Yeni tərkibli parlamentin qarşısında ölkənin iqtisadi, siyasi, hüquqi cəhətdən daha da möhkəmlənməsinə, inkişaf etməsinə, beynəlxalq əlaqələrinə töhfələr vermək, cəmiyyətin inam və etimadını doğrultmaq kimi mühüm vəzifələr düşür.

Ölkənin ümumi inkişaf mənzərəsi deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyası inamla davam etdirilir. Prezident İlham Əliyev yüksək idarəçilik və praqmatik liderlik keyfiyyətləri sayəsində hər bir mərhələ üçün qarşıda duran hədəfləri dəqiq müəyyənləşdirən, onları mükəmməl yol xəritəsi əsasında reallaşdıran rəhbər kimi xalqının dərin rəğbətini qazanmışdır. Əminliklə demək olar ki, milli mənafeləri önə çəkən bu siyasət qarşıdakı illərdə də inamla davam etdiriləcək, respublikamız qabaqcıl dövlətlər sırasında layiqli yerini tutacaqdır.

**Qüdrət KƏRİMOV,**
**"Xəzər" QSC-nin sədri,**
**iqtisad elmləri doktoru**

# ƏN BÖYÜK AZƏRBAYCANLI

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ilk rəhbərlik etməsindən 55 il ötür. Yarım əsrdən artıq bir dövrü əhatə edən epoxa xalqımızın və dövlətimizin ən şanlı inkişaf mərhələsidir.**

**Adətən, zaman keçdikcə tarixi hadisələrin obyektiv qiymətini vermək daha asan olur. Bu, tarixşünaslığın qəbul etdiyi formuldur. Heydər Əliyevin fenomenal şəxsiyyət ucalığı daimi öyrənilməsi vacib olan zəngin xəzinədir. Elm, əxlaq, mənəviyyat, cəsarət, sədaqət, mərdlik xəzinəsidir…**

Tariximizin Heydər Əliyev dövrünü çoxsaylı istiqamətlərdə, kontekstlərdə təhlil etmək, araşdırmaq olar. Məsələn, Ulu Öndərin böyük qürur hissi ilə səsləndirdiyi "Mən hakimiyyətdə olduğum dövrdə bir qarış torpağımızı güzəştə getməmişəm" fikirinin həyatda necə gerçəkləşdiyinə diqqət edək.

Heydər Əliyevin hakimiyyətə gəldiyi 14 iyul 1969-cu il tarixindən iki ay əvvəl 7 may 1969-cu ildə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Azərbaycan SSR ilə Ermənistan SSR arasında sərhədin qrafik təsvirinin təsdiq edilməsi haqqında (№805-VII) Qərar qəbul edilmişdir. Qərarda deyilirdi: "Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin qrafik təsvirinin dürüstləşdirilməsinə dair Paritet komissiyasının Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunan materiallarını nəzərdən keçirərək qərara alır:

1. Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin göstərilən respublikaların Paritet komissiyası tərəfindən 1:25.000 miqyaslı topoqrafik xəritələrin vərəqələrinə keçirilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunmuş qrafik təsviri bəyənilsin.

2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika sərhədi təsvirinin müvafiq sahələrdə Ermənistan SSR nümayəndələri ilə birlikdə naturaya köçürülməsini bu il noyabırın 1-dək təmin etsin".

Sənədi Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri M.İsgəndərov və katib Z.Şükürova imzalamışdır.

İlk baxışda qərarda qeyri-adi heç nə görsənmir. Lakin bu qərarın altında nələr yatırdı? Bu qərar, əslində, özündə nəyi ehtiva edirdi?

Heydər Əliyev bu qərarla bağlı sonralar deyirdi: "Köhnə xəritələri çıxartmışdılar – 1929-cu ilin, 1930-cu ilin xəritələrini. İki-üç il danışıqlar getdi. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında, həqiqətən, Azərbaycanın Ali Soveti belə bir qərar qəbul etmişdir ki, həmin o sərhəddə olan torpaqlar Ermənistana mənsubdur və Ermənistana verilməlidir. Qərara görə, Tovuzun, Gədəbəyin, Qazaxın, Laçının və Qubadlının kəndlərinin bir hisssəsi Ermənistana verilməli idi. İyun ayında mən Azərbaycana rəhbər seçilən kimi bir ay müddətində bu məsələni təhlil etdim və həmin o qərardan imtina etdim. Moskvadan güclü təzyiq var idi. Deyirdilər ki, artıq qərar qəbul edilib icra etmək lazımdır. Nə qədər cəhd etdilər ki, o qərar həyata keçsin, mən buna yol vermədim".

Araşdırma zamanı ortaya çıxan fakta əsasən acı təəssüf hissi ilə qeyd etməliyik ki, sözügedən "humanist" qərarı imzalayan Məmməd İsgəndərovun qardaşı 1918-ci il-

lərdə ermənilər tərəfindən qətlə yetirilmişdi. Lakin ermənilər tərəfindən ailə faciəsi yaşamış bir insanın vəzifə karyerasını qorumaq, "yuxarıların" yanında yaxşı olmaq məqsədilə belə bir addım atması ağlasığmaz idi. Biz bu cür hadisələrdən tarixi ibrət çıxarmalı və Azərbaycanın ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyan Heydər Əliyevin şəxsiyyətini örnək götürməliyik.

Bəli, Heydər Əliyevin həyat kredosunun məhz Azərbaycanın ərazi bütövlüyü və toxunulmazlığı olması artıq o dövrdə də heç kimdə şübhə doğurmurdu.

Qeyd etməliyik ki, Azərbaycana qarşı daim torpaq iddiaları irəli sürən ermənilərlə profilaktik iş aparan, onları bu zərərli tendensiyadan əl çəkməyə çağıran Heydər Əliyevin tapşırığı əsasında DTK da prosesi nəzarətə götürmüşdü. 1970-ci illərədək erməni millətçiləri "Qarabağ ərazisinin tarixən Ermənistana məxsus olması" məsələsini açıq şəkildə qaldırırdılar. Bu "fəaliyyət"də əsas rol İrəvanın millətçi dairələri tərəfindən istiqamətləndirilən vilayət (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti) ziyalıları və gənclərinin bir hissəsinə məxsus idi. 1972-1974-cü illərdə təkcə vilayətin ərazisində Heydər Əliyevin tapşırığı əsasında Azərbaycan DTK-nın materialları əsasında 35 nəfər erməniəsilli şəxslə profilaktika işləri aparılmış və onlara rəsmi xəbərdarlıq edilmişdi.

Heydər Əliyevin hələ DTK-nın sədri olduğu illərdə Azərbaycan ədəbi mühitində o dövr üçün böyük əks-səda yaratmış "Altmışıncılar nəsli"nin yetişməsində müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev respublikaya rəhbərliyi dövründə fərqli ədəbi estetik görüşə malik yeni ədəbi nəslin formalaşmasına şərait yaratmış, yaradıcılıqlarına yüksək qiymət verərək onlara dövlət mükafatları, təltifləri verilməsini təmin etməklə qorumuşdur.

Heydər Əliyev hansı dövrdə olursa-olsun, Azərbaycan xalqına xidmət edən şəxsləri yüksək qiymətləndirmiş, onlara yüksək dəyər vermişdir. Buna iki nümunə göstərək.

Heydər Əliyev DTX əməkdaşları ilə görüşdə ictimaiyyət tərəfindən tanınmayan bir şəxs – Novruz Rizayev haqqında danışır. Onun sovet dönəmindəki xidmətlərini ictimaiyyətə belə açıqlayır: "Təsəvvür edin, 1920-ci ildən sonra bir dəfə Mircəfər Bağırov bu orqanın başında olub, onun da tərcümeyi-halı və Azərbaycan xalqı qarşısında etdiyi cinayətlər sizə məlumdur. Qısa müddət, 1926-1928-ci illərdə Novruz Rizayev bu orqana rəhbərlik edibdir. Amma onun da başına çox böyük bəlalar gətiriblər, 1938-ci ildə onu həbs edib öldürüblər".

Heydər Əliyev N.Rizayevi vətənpərvər bir ziyalı kimi xarakterizə edərək M.Bağırovun qrupunun məhkəməsi zamanı istintaq materiallarının içərisindən onun 1937-1938-ci illərdə Stalin repressiyasına qarşı yazdığı məktubunun tapılmasını bildirməklə istənilən şəraitdə xalqa xidmət etməyin ən gözəl əxlaq nümunəsi olduğunu vurğulayıb.

Heydər Əliyev bu cür insanlara həmişə hörmət edirdi. Novruz Rizayevin oğlu Kərim Rizayevi himayəsinə alaraq onu yüksək dövlət vəzifəsinə təyin etməklə, onların ailəsinin qayğısına qalmışdır. Qeyd edək ki, Kərim Novruz oğlu Rizayev Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan SSR Əlvan Metallurgiya İdarəsinin rəisi kimi mühüm dövlət vəzifəsi tutmuşdur.

İkinci bir nümunə isə Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən olan M.Rəsulzadə ilə bağlıdır. Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi birinci dönəmdə senzuranın rəisi təyin olunmaq üçün namizədləri diqqətlə araşdırarkən Ulu Öndərə məruzə edirlər ki, bir nəfər yaxşı

namizəd var, ancaq Rəsulzadənin qohumudur, ona görə düşünürük ki, olmaz. Heydər Əliyev tərəddüd etmədən Rəsulzadənin qohumunu həmin vəzifəyə təyin edir. Bu barədə Ulu Öndər Rəsulzadə ailəsi ilə görüşdə özü danışır.

Göstərdiyimiz nümunələr Heydər Əliyevin şəxsiyyətini səciyyələndirən faktlar silsiləsinin, sadəcə, iki məqamıdır.

Heydər Əliyev fenomenindən danışarkən onun müstəqillik ideyalarına bağlılığından bəhs etməmək mümkün deyil. Hələ sovetlər dönəmində Ulu Öndərin Azərbaycan SSR-in dövlət himninə dəyişiklik edərək, mətnə "Respublika" sözü əlavə etdirməsinin maraqlı tarixçəsi var. Heydər Əliyevin Azərbaycan SSR dövlət himnində "diyar" sözünün çıxarılaraq "Respublika" sözü ilə əvəz edilməsi təklifinə komissiya tərəddüdlə yanaşsa da, onun qətiyyəti ilə bu məsələ öz müsbət həllini tapır.

1978-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsinin də maraqlı tarixçəsi var. Rus dilinin hakim dil olduğu sovetlər birliyi dönəmində buna nail olmaq qeyri-real görünürdü. Lakin Heydər Əliyev dühası və cəsarəti bu məsələdə də həlledici rol oynadı. Burada xüsusi vurğulamalıyıq ki, Sov.İKP MK-nın bu sahəyə məsul olan katibi Azərbaycan dilinin dövlət dili kimi konstitusiya layihəsinə salınmasına etiraz edirdi. Hətta bəzi müttəfiq respublikaların rəhbərləri də bu məsələdə Heydər Əliyevə qarşı idilər. Tarixçi-alim M.Qasımlı öz kitabında qeyd edir ki, Ukrayna KP MK-nın birinci katibi Şerbitski Heydər Əliyevə qarşı çıxaraq deyirdi ki, "siz konstitusiyanıza belə bir maddə yazdıqda, gərək biz də dövlət dili haqqında maddə əlavə edək". Buna cavab olaraq Azərbaycanın rəhbəri ona bildirir ki, "sizə heç kim mane olmur, böyük respublikasınız, ölkədə sizin xüsusi çəkiniz vardır, istəsəniz yaza bilərsiniz, kimsə sizə mane olmaz".

Heydər Əliyev L.İ.Brejnevə problemi əhatəli, dərin məntiqi ilə əsaslandırır və bu məsələni Azərbaycan xalqının xeyrinə həll edir. Azərbaycan dilinin konstitusiya layihəsində əksini tapması ilə yanaşı, bu layihənin 73-cü maddəsində yazılan, hüquqi cəhətdən SSRİ-nin federativ dövlətdən unitar dövlətə keçməsinə zəmin yaradan "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir" maddəsi də layihədən çıxarılır.

2 aprel 1978-ci ildə IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-in konstitusiya layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddə yeni redaksiyada verilir: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Heydər Əliyevin bu təşəbbüsü 21 aprel 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur.

Qeyd etməliyik ki, 1921-ci ildə Azərbaycan SSR Konstitusiyasında ana dilimiz haqqında heç bir maddə salınmamışdır. 1937-ci ildə isə Azərbaycan SSR Konstitusiyası layihəsində nəzərdə tutulurdu ki, dövlət dili türk dilidir. Moskvadan tapşırıq gəlir ki, həmin maddə çıxarılsın. Belə də olur, sonra isə bu məsələ tamamilə unudulur.

Ulu Öndər Heydər Əliyev "xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir" söyləyərək bu məsələdə müstəsna xidmətlərinin olmasına baxmayaraq, bu tarixi uğuru xalqımızın böyük qələbəsi kimi qiymətləndirirdi. Əlbəttə, Heydər Əliyevin ana dili məsələsində prinsipial, qəti və barışmaz mövqe tutması rus dilinin tam əleyhinə getməsi demək deyildi. O yaxşı başa düşürdü ki, SSRİ xalqlarının elmi, mədəni tərəqqisi, dünyaya çıxışı əsasən rus dili vasitəsilə həyata keçirilir. Dünyanın ən son elmi və mədəni nailiyyətləri ölkədə məhz ilk olaraq rus dilinə, sonra isə milli dillərə çevrilirdi. Buna görə də Ulu Öndər azərbaycanlıların ikinci dil kimi rus dilini mükəmməl bilmələrinin tərəfdarı kimi çıxış edirdi. Böyük rəhbər azərbaycanlıların yalnız ana dili çərçivəsində məhdudlaşıb qalmasının da əleyhinə idi.

Heydər Əliyevin ana dilinə münasibətində Azərbaycan ədəbi dilinin saflığının qorunması və inkişaf etdirilməsi xüsusi yer tuturdu.

Ümummilli Lider ana dilinin saflığına çalışaraq bunu alim, şair, yazıçılardan, bütövlükdə, ziyalılardan qətiyyətlə tələb edirdi. Azərbaycanın rəhbəri, hətta rəsmi toplantılarda bu məsələ barədə öz prinsipial mövqeyini açıq-aydın, birbaşa bildirirdi.

Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev ana dili haqqında uca səslə, çəkinmədən deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi, mədəni tərəqqisi mümkün deyildir. ...Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəşrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

Ulu Öndərin sovetlər dönəmində inkişaf etdirdiyi müstəqllik konsepsiyası onun sonrakı fəaliyyətinin də ana xəttini təşkil edirdi. Çünki Heydər Əliyevin dövlətçilik və müstəqillik təfəkkürü tarixi şüura əsaslanırdı. O, ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan Ali Sovetinin iclasında ilk çıxışlarından Azərbaycanın müstəqil yaşaya bilməyəcəyi ilə bağlı irəli sürülən diletant fikirləri rədd edərək müstəqillik konsepsiyası irəli sürdü. Bu isə əsrin əvvəllərində iki qrupa ayrılmış Azərbaycan ziyalılarının kəskin dilemması qarşısında müstəqillik ideyalarının tərəfdarlarının milli düşüncəsinin davamı idi.

Heydər Əliyevin müstəqilliklə bağlı bu düşüncələri məhz yuxarıda qeyd etdiyimiz kimi, tarixi şüura əsaslanırdı. Ulu Öndər hələ Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işlədiyi dövrdə Azərbaycan Respublikasının müstəqilliyi ilə bağlı ilk və kəskin addımları atmaqla Azərbaycanın müstəqillik tarixinin ən böyük şəxsiyyətinə çevrildi.

17 noyabr 1990-cı il gününün müstəqillik tariximizdə müstəsna rolu var. Ölkəmizin həyatında dönüş nöqtəsi sayılan həmin əlamətdar hadisə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1990-cı ilin iyulunda Naxçıvana qayıdışı və buradakı fəaliyyəti, milli dövlətçiliyimizin bərpası istiqamətində atdığı tarixi addımlar Azərbaycanın müstəqillik tarixinin qızıl səhifələridir. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında Ulu Öndərin tə-

şəbbüsü ilə müstəqil Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində məsələlər müzakirə olundu, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu.

Bununla əlaqədar Ümummilli Lider Heydər Əliyevin öz əli ilə yazdığı Ali Məclisin Qərarında deyilirdi:

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.

2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".

Bundan sonra yeni qəbul olunmuş bayraq zala gətirilir, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ayulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi ucaldılır.

Odövrkü naşı səriştəsiz siyasətçilər qısqanclıq üzündən Azərbaycan xalqının istəyinin əksinə olaraq Heydər Əliyevin dövlət rəhbəri kimi fəaliyyətinə maneələr yaradırdılar. Lakin çox keçmədi ki, bir həqiqət hər kəsə aydın oldu: Müstəqil Azərbaycanın işıqlı gələcəyi yalnız Ulu Öndərin adı ilə bağlıdır.

Bundan sonra Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət və xalqın haqlı tələbi ilə Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi təmin olundu. Ulu Öndərin ölkəmizə rəhbərlik etməsi Azərbaycanın siyasi həyatının qızıl dövrüdür. Heydər Əliyev ideoloji olaraq müstəqillik konsepsiyasını dövlətin siyasi prioritetinə çevirdi.

Böyük dövlət adamı Heydər Əliyevin müstəqil dövlət konsepsiyasının əsasını aşağıdakılar təşkil edirdi:

1) Dövlət müstəqilliyi;
2) Demokratiya, siyasi plüralizm, şəffaflıq;
3) Hüququn aliliyi;
4) Sosial ədalət.

Heydər Əliyev hər bir çıxışında tarixi məsuliyyəti dərk etməyə, azadlıq və istiqlaliyyətimizin əldə olunmasında bütün gücümüzü səfərbər etməyə çağırırdı: "Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma

torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Tarix sübut edir ki, milli ideologiya xalqların özünüdərk prosesində və dünya xalqları içərisində öz yerini müəyyənləşdirməsində əsas faktordur. Dövlət xalqın qalxanıdır. Dövlət olmadan xalq özünü realizə edə bilməz. Dövlət-Xalq vəhdətini yaratmaq üçün isə hökmən ideologiya lazımdır. Heydər Əliyevin dövlətçilik təfəkkürü bunu realizə etməyə imkan verdi və məhz bu təfəkkürlə o, azərbaycançılıq ideologiyasını yarada bildi.

Heydər Əliyev irsini ən yaxşı əxz etmiş siyasətçi, peşəcə tarixçi diplomat olan Prezident İlham Əliyev demişdir: "Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq... Azərbaycanda bu siyasətin alternativi yoxdur".

Heydər Əliyevin ən böyük uğurlarından biri də özünün layiqli siyasi varisini yetişdirməsidir. Məhz Heydər Əliyevin siyasi varisi Müzəffər Ali Baş Komandan 200 illik məğlubiyyət sindromuna 44 günə son qoyaraq bizə ən böyük zəfəri yaşatdı.

Qarşıdakı aylarda isə biz dünyanın ən mötəbər tədbirlərindən birinə – COP29-a evsahibliyi edəcəyik. Bu barədə Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüşdə çıxış edən cənab Prezident İlham Əliyevin nitqində son nailiyyətlərimiz də öz əksini tapmışdır: "Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq. Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a evsahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq. Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib. Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm".

Azərbaycan xalqı öz gələcək inkişafını yalnız Heydər Əliyev siyasi kursunun davam etməsində və Müzəffər Ali Baş Komandan İlham Əliyevin parlaq fəaliyyətində görür. Ötən 55 ilin misilsiz hadisələri, şərəfli məqamları isə bu həqiqəti ən aydın şəkildə isbat edir.

**Sadiq QURBANOV,**
**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri**

# AZƏRBAYCANIN ZAMANI QABAQLAYAN ENERJİ SİYASƏTİ

## *Enerji diplomatiyası, milli təhlükəsizlik və xarici siyasət*

Enerji diplomatiyası – beynəlxalq münasibətlərin əsası, xarici siyasət və milli təhlükəsizliklə sıx bağlı olan mürəkkəb sahədir. Bu əlaqə xüsusən enerji diplomatiyasının nisbətən yeni sahə kimi milli xarici siyasətə inteqrasiyasında açıq müşahidə olunur.

Xarici siyasət min illər ərzində bəşər sivilizasiyasını müşayiət etsə də, enerjinin bu sahəyə müdaxiləsi son 150 ildə baş vermişdir. Lakin həmin zaman kəsiyində enerji və xarici siyasət çoxsaylı nöqtələrdə kəsişmişdir və onlar qarşılıqlı əlaqədə olan elementlərə malikdirlər. Xarici siyasət öz növbəsində milli təhlükəsizlik konsepsiyası ilə sıx bağlıdır və ondan asılıdır. 29 iyun 2004-cü ildə qəbul olunmuş "Milli təhlükəsizlik haqqında" qanunda yazılıb ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir.

Üç konsepsiya – milli təhlükəsizlik, xarici siyasət və enerji təhlükəsizliyi bir-biri ilə bağlılığı olan quruluşa malikdir. Burada milli təhlükəsizlik ən ümumi anlayışdır, milli təhlükəsizliyin risklərinin beynəlxalq aspektlərini əhatə edən xarici siyasət ondan bir pillə aşağıda durur. Miqyasına görə ən aşağıda isə enerji diplomatiyası dayanır. Xarici siyasət milli təhlükəsizliyi təmin edən alətdir. Milli təhlükəsizlik isə birbaşa enerji diplomatiyası ilə əlaqədardır. Milli təhlükəsizliyin əhatə etdiyi çoxsaylı təhlükələrə geniş spektrli risklər, o cümlədən iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi, fiziki təhlükəsizlik, ətraf mühit, ərzaq, miqrasiya, kibertəhlükəsizlik və s. daxildir.

Dövlətin iqtisadi təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Milli təhlükəsizlik iqtisadi təhlükəsizliklə yanaşı, dövlətin xarici-siyasi, daxili-siyasi, hərbi, informasiya, şəxsi, sosial, mənəvi, ekoloji və təhlükəsizliyin digər növlərini də birləşdirir. İqtisadi təhlükəsizliyin təmini dövlətin funksiyası kimi yaranmışdır. O, digər sahələrə təsirinə görə aparıcı rola malikdir.

Enerji diplomatiyasına gəldikdə, o, enerji təhlükəsizliyinin təmininə yönəlmiş inkişaf edən diplomatiya sahəsidir. Enerji özünün milli təhlükəsizlik və iqtisadiyyata güclənən təsiri nəticəsində diplomatiya və xarici siyasət sahəsinə daxil olmuşdur. Enerji hər bir işi yerinə yetirmək qabiliyyəti olmaqla iqtisadiyyatı qidalandırır. Onun fasiləsiz axını həm ölkə iqtisadiyyatının inkişafı, həm də istehsal olunmuş məhsulların ixracı, beynəlxalq iqtisadi münasibətlərin daimiliyi üçün zəruri ehtiyaclardan biridir.

Dünyadakı dəyişən vəziyyət bəzi amilləri meydana çıxarmış, bu isə enerji təhlükəsizliyi və enerji diplomatiyasının milli təhlükəsizliyin gündəliyində daha vacib yer tutmasına səbəb olmuşdur. Çünki müasir istehlakçı və müasir iqtisadiyyat enerjidən kəskin surətdə asılıdır. Nəticədə bu gün iqtisadiyyat və energetikanı bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Hətta enerji iqtisadiyyat və hakimiyyət üçün sinonimə çevrilmişdir. Təsadüfi deyil ki, enerji ehtiyatlarına əlçatanlıq hazırda müharibələrin nəticələrini müəyyən edən faktorlardan biridir. Dövlətlər enerji ehtiyatlarına malik olmalarından özlərinin siyasi və geo-

siyasi məqsədlərinə çatmaq üçün fəal istifadə etmək imkanı qazanmışlar. Neft-qaz istehsalçıları qlobal biznesdə ən gəlirli və təsir imkanına malik şirkətlər hesab olunurlar.

Söz ki enerjidən düşdü, qeyd edək ki, enerji diplomatiyası enerji ehtiyatlarına və bazarlarına çatımlılığı genişləndirməyə yönəlmiş diplomatik fəaliyyətdir. Bu, siyasətə, xarici hökumətlərin qərar və davranışına təsiretmə sistemidir. Enerji diplomatiyasının məqsədi iqtisadi və enerji təhlükəsizliyini təmin etməkdir.

Enerji təhlükəsizliyi müxtəlif dövlətlər üçün müxtəlif anlam kəsb edə bilər. İnteqrasiya rejimlərinin müxtəlifliyini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, həm tarixi, həm də konseptual cəhətdən enerji milli xarici siyasətə iki yolla – təhlükəsizlik və iqtisadiyyat yolları ilə daxil edilmişdir. Enerji təchizatı və ona əlçatanlıq bir çox dövlətin milli təhlükəsizliyi üçün həlledici amil olduğuna görə enerji onların milli siyasətinə təhlükəsizlik yolu ilə daxil olmuşdur. Bu cür dövlətlər enerji ehtiyatları olmayan və bu səbəbdən idxaldan asılı olan ölkələrdir.

Enerji məsələləri həm də iqtisadiyyatla bağlı olmaqla iqtisadi diplomatiyanın təsir dairəsinə düşür. Məlumdur ki, bir çox ölkənin iqtisadiyyatının əsasını enerji ehtiyatları təşkil edir. Enerji ehtiyatlarından səmərəli istifadə, xüsusən bərpaolunan enerji ehtiyatlarının istehsalı müasir dövrdə özünün aktuallığı ilə diqqəti cəlb edir və iqtisadi inkişaf üçün mühüm perspektivlər yaradır. Bundan əlavə, müasir dövr iqtisadi təhlükəsizliyin təmin olunmasını hər bir müstəqil dövlətin əsas vəzifələrindən biri kimi şərtləndirir. Beynəlxalq vəziyyətdə zaman-zaman baş verən dəyişikliklər dünya birliyi ölkələrinin siyasi, iqtisadi və hərbi münasibətləri sahələrində yeni yanaşmalara yol açır. Həmin yanaşmalar milli təhlükəsizliyin təminində, o cümlədən iqtisadi münasibət və proseslərdə dəyişikliklər tələb edir, eləcə də müharibələrin tam aradan qalxmadığı günümüzdə iqtisadi təhlükəsizlik sahəsində praktiki addımlar atılması zəruriliyini meydana çıxarır. Beləliklə, hazırkı dövrdə dövlətlərin hər birinin ilkin vəzifələrindən biri iqtisadi təhlükəsizliyi, başqa sözlə desək, daxili sabitliyi, ölkənin beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin etməyə nail olmaqdır. İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksəkkeyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur. İqtisadi təhlükəsizliyin əsas göstəriciləri – ümumi daxili məhsulun artımı, iqtisadiyyatın quruluşu və rəqabət qabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borcların səviyyəsi və s. hesab edilir.

Məlumdur ki, SSRİ-nin süqutu 15 müstəqil dövlətin yaranmasına və vahid iqtisadi məkanın parçalanmasına səbəb oldu. Keçmiş sovet dövründə müttəfiq respublikalar arasında formalaşmış iqtisadi əlaqələrin pozulması gənc müstəqil ölkələrdə iqtisadiyyatı iflic vəziyyətinə saldı. 1989-cu ildən başlamış geriləmə prosesi müstəqilliyin ilk üç ilində daha da dərinləşdi.

1991-ci ildə müstəqilliyini bərpa edərək bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan Azərbaycan da böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşdı. 1991-1993-cü illərdə Azərbaycanın siyasi mənzərəsini hakimiyyət uğrunda mübarizə, silahlı qruplaşmalar və qarşıdurmaların artması, keçmiş dağlıq Qarabağ problemi, Azərbaycan torpaqlarının işğalı kimi hakimiyyətsizlik əlamətləri xarakterizə edirdi. Xaos, qarışıqlıq, hərc-mərclik

inkişafın deyil, tənəzzülün əlamətləri idi. Milli iqtisadiyyatın dirçəldilməsi üçün isə ictimai-siyasi sabitlik yaradılmalı, iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstək verilməsi təmin olunmalı idi. Bu cür siyasi təkan olmadan iqtisadi quruculuq sahəsində uğurlar əldə etmək mümkün deyildi.

Belə bir dövrdə xalqın tələbi və seçimi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın neft strategiyasını müəyyən və inkişaf etdirdi. Bu siyasət dövlət müstəqilliyinin qorunması və gücləndirilməsinə yönlənmişdir. Ulu Öndərin rəhbərliyi altında qəbul edilən radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynadı. "Əsrin müqaviləsi" əsasında Azərbaycanda kifayət qədər iri həcmdə neft istehsalına nail olunması istər praktiki, istərsə də hüquqi gözləntisi olan məsələ idi. Heydər Əliyevin müdrikliyi onda idi ki, neft istehsalına hələ xeyli müddət qalmasına baxmayaraq, onun daşınması marşrutu da müəyyən edildi. Əslində, məsələlərin həllinə bu cür uzaqgörənliklə yanaşmaq Heydər Əliyevə xas olan xüsusiyyət idi. Hər işin vaxtında həlli uğurun təmini üçün əsas yaradırdı.

Cənab İlham Əliyev həmin dövrlərin çətinliklərini xatırlayaraq sonralar demişdi: "Hamımız yaxşı xatırlayırıq ki, 1991-1993-cü illərdə yaranmış xaos, anarxiya iqtisadiyyata da böyük zərbələr vurmuşdu. Demək olar ki, iqtisadiyyatımız tamamilə dağılmışdı, böhran içində idi. ... Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. Azərbaycana böyük həcmdə sərmayə qoyulubdur, yeni infrastruktur yaradılıbdır, neft kəmərləri tikilibdir və tikilməkdədir. Bir sözlə, neft strategiyası bizə imkan verir ki, bu gün də, gələcəkdə də neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək Azərbaycanı hərtərəfli inkişaf etdirək, xalqımız üçün gözəl şərait yaradaq".

Heydər Əliyevin neft strategiyasının uğurlu və səmərəli nəticələri Azərbaycanın sosial-iqtisadi inkişafına təkan verən mühüm amil olmaqla dünyada neft siyasətinin formalaşdırılmasında xüsusi əhəmiyyət kəsb etdi. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 8 dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə idi. "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirdi, regional əhəmiyyətli, qlobal xarakterli yeni əməkdaşlıq platformalarının yaranmasını təmin etdi. Bu müqavilə həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində çox mühüm rola malik idi. 1994-cü ildən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanması Azərbaycanın beynəlxalq əməkdaşlıq və enerji sahəsində böyük uğurlarına yol açdı.

Amma bu, təməl idi və o, Azərbaycan iqtisadiyyatının tam inkişaf yoluna çıxması üçün önəmli rol oynadı. Cənab İlham Əliyev neft strategiyasının həmin cəhətlərini nəzərə alaraq demişdir: "Heydər Əliyevin neft strategiyası davam etdiriləcəkdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri 2005-ci ildə istismara veriləcəkdir. Ondan sonra Azərbaycan ildə 50 milyon ton neft ixrac edəcəkdir. Bu da ölkəyə milyardlarla dollar valyuta gətirəcəkdir. Bu vəsaitlə Azərbaycanın hər bölgəsi, iqtisadiyyatın hər bir sahəsi inkişaf edəcəkdir".

**Vüsalə MURADXANLI,**
**Vəkillər Kollegiyasının üzvü**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN FƏALİYYƏTƏ BAŞLAMASINDAN 26 İL KEÇİR

– birinci, gömrük orqanları icraedici və sərəncamverici orqan kimi, yüksək dövlət orqanlarının (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Nazirlər Kabineti) qərarlarını icra etmək üçün, gömrük işi ilə əlaqədar normativ aktlar qəbul etmək hüququna malikdir. Bu normativ aktlar mallar və nəqliyyat vasitələrinin, habelə vətəndaşların gömrük sərhədini keçməsi ilə əlaqədar verilir ki, bu da, gömrük orqanlarının inzibati hüquqi fəaliyyətdə iştirakı deməkdir;

– ikinci, malların keçirilməsi ilə əlaqədar, gömrük orqanlarının vəzifəli şəxsləri ilə xarici iqtisadi fəaliyyətin (XİF) iştirakçıları arasındakı gömrük, inzibati, cinayət, dövlət, beynəlxalq, maliyyə, mülki və sair sahələrdəki hüquqi münasibətlərin tənzimlənmiş normalarla qorunması, gömrük orqanlarının inzibati-prosessual, cinayət-hüquqi və cinayət-prosessual kimi hüquq-mühafizə formalarından istifadə etmək səlahiyyətinin olması, onun hüquq-mühafizə orqanı sayılmasını zəruri edir. Gömrük işi sahəsində XİF iştirakçıları ilə gömrük işçiləri arasındakı münasibətləri tənzimləyən xeyli sayda normativ aktlar vardır ki, bunlar da dövlət idarəetmə mexanizminin bir hissəsi sayılır. Gömrük orqanları ilə XİF iştirakçıları arasındakı münasibətlər, həddən çox mürəkkəb xarakter daşıması ilə yanaşı, beynəlxalq, dövlət, inzibati, iqtisadi,

mülki, əmək, maliyyə, torpaq, nəqliyyat, dəniz, hava, cinayət, cinayət-prosessual, hərbi və sair hüquq sahələrinin tənzimlənmə sferalarına da aiddir.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti dövlət fəaliyyətinin bir sahəsi olub, gömrük hüquq münasibətləri sferasında dövlətin daxili və xarici funksiyalarını yerinə yetirərkən ortaya çıxır. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin məqsədi gömrük işi sahəsində dövlət, inzibati, iqtisadi, mülki və digər hüquq sahələrinin normalarının tətbiqi, icrası, istifadəsi və onlara riayət olunmasıdır. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti müxtəlif formalarda həyata keçirilir: inzibati-hüquqi; inzibati-prosessual; cinayət-hüquqi; cinayət-prosessual; əməliyyat-axtarış və s.

Gömrük orqanları hüquq-mühafizə orqanı kimi müəyyən vəzifələrin daşıyıcısıdır. Bu sırada aşağıdakıları fərqləndirə bilərik [8]:

1) qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyini təmin etmək;

2) gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların (fauna) və bitki növlərinin (flora), başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

3) milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

4) insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhədindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq və s.

Göstərilən vəzifələrin icrası ilə bağlı gömrük orqanları hüquq-mühafizə orqanı kimi müəyyən hüquqlara malikdir:

1. Malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirməsini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar təşkil etmək;

2. Təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

3. Cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

4. Müvafiq qanunvericiliyə uyğun olaraq, inzibati xətalarla bağlı işlər üzrə icraat aparmaq, bu işlərə baxmaq və inzibati xətalar törətmiş şəxsləri məsuliyyətə cəlb etmək, habelə gömrük işi sahəsində hüquqazidd əməllər törədilməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq;

5. Gömrük işi sahəsində cinayətlərin qar-

şısını almaq, belə cinayətləri törətmiş, habelə onların törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması və ya təqib edilməsi məqsədi ilə idarə, müəssisə və təşkilatlara (xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat, rabitə vasitələri istisna edilməklə) məxsus olan rabitə və nəqliyyat vasitələrindən son zərurət vəziyyətində istifadə etmək;

Müstəqil surətdə, yaxud digər hüquq-mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək və s.

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması, gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması və işlərə baxılması, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi, habelə gömrük orqanlarının təhlükəsizliyini təmin edən tədbirlərin görülməsi barədə müvafiq müddəalar gömrük qanunvericiliyində (GM, maddə 17-20) təsbit edilmişdir [2, s.40-41]. Həmin maddələrin məzmununa nəzər salaq.

Maddə 17. Gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması. Gömrük orqanları gömrük işi sahəsində cinayətlərə dair işlər üzrə təhqiqat və istintaq orqanlarıdır. Gömrük orqanları tərəfindən təhqiqat və istintaqın aparılması və bu zaman yerinə yetirilən prosessual hərəkətlər Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir.

Eyni zamanda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 207-209-cu maddələrində nəzərdə tutulmuş cinayət işləri üzrə və 206-cı maddədə nəzərdə tutulmuş cinayətə dair iş üzrə isə bu işə başladıqda ibtidai istintaqının aparılmasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir [4]. İbtidai istintaqı gömrük orqanlarının səlahiyyətinə aid olan cinayətlər aşağıdakılardır [3, s.165-168]:

1. Qaçaqmalçılıq (CM, maddə 206);
2. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma (CM, maddə 206-1);
3. Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının ərazisinə qaytarılmaması (CM, maddə 207);
4. Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama (CM, maddə 208);
5. Gömrük ödənişlərinin ödənilməsindən yayınma (CM, maddə 209).

Gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə aşağıdakı malların keçirilməsi qaçaqmalçılıq hesab olunur:

a) narkotik vasitələrin, psixotrop, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv və partlayıcı mallar;

b) silahlar, partlayıcı qurğular və onlar üçün sursatı (soyuq, yivsiz ov silahları və onların patronlarından başqa);

c) nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, həmin silahların hazır-

lanması üçün istifadə oluna biləcək material və avadanlıqlar, strateji əhəmiyyətli xammalın;

d) Azərbaycan Respublikasından çıxarılması üçün müvafiq qaydalar müəyyən edilmiş ölkədə yaşayan xalqların və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların;

e) külli miqdarda, yaxud dövlət orqanının vəzifəli şəxsi tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə, yaxud gömrük nəzarətinin müəyyən formalarından azad olunmuş ayrı-ayrı malların və nəqliyyat vasitələrinin keçirilməsi üçün müvəkkil edilmiş şəxs tərəfindən, yaxud kontrabanda ilə məşğul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən keçirilən digər malların;

f) Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmış Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların qüvvədə olan qanunvericiliyə müvafiq olaraq qaytarılması məcburi olan hallarda və müəyyən olunmuş müddətdə geri qaytarılmadıqda da qaçaqmalçılıq sayılır və cinayət qanunvericiliyi ilə cəzalandırır.

Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması ilə bağlı qeyd edə bilərik ki,təhqiqat ilkin istintaqın forması kimi qaldırılası cinayət işi üzrə mövcud qanunvericilikdə müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir. Təhqiqat orqanları ilk olaraq cinayətin baş verdiyini aşkarlayır, iş qaldırır, cinayətin izlərinin aşkar edilməsi üçün vacib hərəkətlər edir, şübhəli şəxsi saxlayır və cinayətin qarşısını alırlar. Əgər aparılan təhqiqat işi, həmin iş üzrə ilkin istintaqı vacib edirsə, onda təhqiqat işi müstəntiqə verilir. Əks halda, təhqiqat orqanı işin istintaqını axıra çatdırmalıdır. Yadda saxlamaq lazımdır ki, ilkin istintaqın vacib olduğu işlərdə, təhqiqat işi ümumi xarakter daşıyır, daha doğrusu, təhqiqat orqanları, yalnız "isti izlər üzrə" vacib istintaq hərəkətləri lazım gəldikdə və müstəntiqin işə başlaya bilmədiyi halda təhqiqat aparırlar. Əgər cinayət işini müstəntiq qaldırıbsa və icraata özü qəbul edibsə, onda təhqiqat aparılmır, təhqiqat orqanları isə müstəntiqin tapşırığı ilə əməliyyat-axtarış, nadir hallarda isə, istintaq hərəkətlərində iştirak edirlər. Gömrük orqanları aşağıdakı cinayət işləri üzrə təhqiqat və istintaq orqanı sayılır (CPM, maddələr 38, 45 və 47) [4, s.60, 68-70]:

1. Qaçaqmalçılıq (CM, maddə 206);

2. İncəsənət, tarixi və arxeoloji sərvət sayılan əşyaların Azərbaycan ərazisinə gətirilməməsi (CM, maddə 207);

3.Gömrük ödənişlərinin ödənilməsindən yayınma (CM, maddə 209).

Gömrük orqanları sistemində təhqiqat və ibtidai istintaq işlərini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məsul şəxsi apara bilər. Təhqiqat aparan şəxs, qəbul etdiyi qərarın istintaq hərəkətləri baxımından əsaslığına, qanunauyğunluğuna və vaxtında aparılmasına görə məsuliyyət daşıyır. Təhqiqatçı aşağıdakı hallarda işin istintaqında iştirak edə bilməz:

1) əgər o, zərərçəkmiş, şikayətçi, cavabdeh, müstəntiqdirsə, habelə həmin işdə ekspert, mütəxəssis və tərcüməçi kimi iştirak edirsə;

2) əgər o, zərərçəkmişin, şikayətçinin, cavabdehin və ya onların nümayəndələrinin, habelə şübhəli şəxslərin və ya onların nümayəndələrinin qohumudursa;

3) əgər o, bu və ya digər dərəcədə, bilavasitə və ya dolayısı ilə aparılan işdə maraqlıdırsa.

Respublikamızın gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların, avadanlıqların, strateji əhəmiyyətli xammalın, mədəni sərvət olan əşyaların və s. qaçaqmalçılıq yolu ilə keçirilməsi, bundan başqa incəsənət, tarixi və arxeoloji sərvət olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycana qaytarılmaması, şərti maliyyə vahidinin iki min mislindən yuxarı olan məbləğdə gömrük ödənişlərinin ödənilməsindən yayınma və s. kimi hallar cinayət xarakterli hesab olunurlar.

Cinayət-Prosessual Məcəllənin 214-cü maddəsinin mahiyyətindən aydın olur ki, təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:

a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;

b) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Buradan belə bir nəticəyə gəlmək olar ki, ibtidai instintaq geniş mənada iki formada – ibtidai istintaq və təhqiqat formasında aparılır. İbtidai istintaqın aparılmasını nizamlayan cinayət-prosessual qanunvericiliyinin normaları, kiçik istisnalarla, demək olar ki, eynilə təhqiqatın gedişatını da nizamlayır. Təhqiqat müstəqil şəkildə çox az miqdarda cinayət işlərində ibtidai istintaqın əvəzində aparılır. Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsində deyildiyi kimi, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir. CPM-in 214-3-cü maddəsinə müvafiq olaraq, bu kateqoriyalı cinayət işləri üzrə cinayətin əlamətləri mövcud olduqda təhqiqat orqanı cinayət işini başlayır və cinayət-prosessual qanunvericiliyini rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, habelə cinayət törətməkdə şübhə edilən şəxsi tapmaq məqsədi ilə əməliyyat-axtarış tədbirləri və təxirəsalınmaz istintaq hərəkətləri aparır. Təxirəsalınmaz istintaq hərəkətləri dedikdə, gömrük orqanlarının təhqiqatçıları tərəfindən baxışın, axtarışın, götürmənin, şəxsi müayinənin, şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsi, zərər çəkmiş şəxsin və şahidlərin dindirilməsi və digər hərəkətlərin həyata keçirilməsi başa düşülür [12]. Cinayət-Prosessual Məcəllənin 236.1-ci maddəsinə müvafiq olaraq, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə gömrük orqanlarının təhqiqatçısı və müstəntiqi hadisə yerinin, binaların, sənədlərin, əşyaların və digər predmetlərin baxışını aparır. Cinayətin mühakimə icraatında, bir qayda olaraq, predmetlərin və sənədlərin baxışı müvafiq istintaq hərəkətləri aparılarkən (hadisə yerinin baxışı, axtarış, götürmə) həyata keçirilir. Baxış nəticəsində predmet və ya sənəd barədə əldə edilən məlumatlar həmin istintaq hərəkəti protokolunda qeyd edilir. Predmetin və ya sənədin yerindəcə baxışını aparmaq mümkün olmadıqda, müstəntiq onları qəbul etməsi barədə müvafiq akt tərtib edərək, qablaşdırır və möhürləyir.

CPM-in 242-246-cı maddələrində axtarış və ya götürmənin bir istintaq hərəkəti kimi mahiyyəti, məqsədi və iş üçün əhəmiyyəti geniş şərh edilmişdir. Bu normativ hüquqi aktda göstərilmişdir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və

ya istehsalat binasında, digər yerdə, yaxudhər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə müstəntiq axtarış apara bilər. Axtarış və ya götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər. Axtarış və götürmə zamanı, CPM-in 244.1-ci maddəsinin tələbinə görə azı 2 (iki) hal şahidlərinin iştirakı məcburidir. Şəxsi müayinə, cinayət-prosessual qanunda verilmiş şərhə görə, məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq tərəfindən aparılır. Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsinin tələbinə görə gömrük orqanları CM-in 206 və 207-ci maddələri ilə qaldırılmış cinayət işləri üzrə təhqiqatı 10 (on) gün müddətində, amma CM-in 209-cu maddəsi ilə qaldırılmış cinayət işi üzrə təhqiqatı tam şəkildə aparmağa səlahiyyətlidirlər.

Azərbaycan Respublikasının gömrük orqanları törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən cinayətlər haqqında ərizə və məlumatlara baxanda, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi surətdə riayət etməlidirlər. Belə ki, CPM-in 207.1.2-ci maddəsinə müvafiq olaraq, gömrük orqanlarının təhqiqatçıları və müstəntiqləri zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) aldıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar isə 20 (iyirmi) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlamanı apararaq nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edir.

Maddə 18. Gömrük orqanları tərəfindən gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması və işlərə baxılması. Bu maddənin məzmununda göstərilir ki, gömrük orqanları tərəfindən gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması, həmin işlərə baxılması və bu zaman yerinə yetirilən prosessual hərəkətlər, inzibati xətalar törətməyə görə tətbiq edilən inzibati tənbehin növləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir [5; 6].

Gömrük qaydalarının pozulması şəxsin qanunazidd əməlləri (hərəkət və ya hərəkətsizliyi) nəticəsində törədilmiş aşağıdakı qayda pozuntularıdır:

1) mal və nəqliyyat vasitələrinin gömrük sərhədini (gömrük rejimərinin tətbiqi də daxil olmaqla) keçməsi ilə bağlı pozuntular;

2) onlara gömrük nəzarəti ilə əlaqədar;

3) bu mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı;

4) gömrük ödənişlərinin qoyulması və ödənilməsi ilə əlaqədar;

5) gömrük güzəştlərinin verilməsi və onlardan istifadə ilə bağlı pozuntular.

Qeyd etməliyik ki, hüquq pozuntularının əlamətləri olan - subyekt, obyekt, subyektiv tərəflər və obyektiv tərəf bütünlükdə gömrük qaydalarının pozulmasının tərkib elementləri sayılır. Azərbaycan Respublikasının İnzibati

Xətalar Məcəlləsinin 258-ci, 260-cı, 261.2-ci, 263-cü, 264-cü, 265.0.1-ci, 265.0.3-265.0.5-ci, 266-cı maddələrinin adında, habelə 266.1-266.3-cü, 267-ci, 268-ci, 269-cu, 272-ci, 273-cü, 275-ci, 276-cı, 277-ci, 282.2 ci, 287-ci, 288-ci, 291-ci, 292-ci və 326-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357.0.3-cü maddəsinə müvafiq olaraq, müəyyən edilir ki, həmin Məcəllənin 258-291-ci, 293-295, 292 ci və 326 maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır. İXM-in XXXVII fəsli "Gömrük qaydaları əleyhinə olan inzibati xətalar" adlanır [5, s.292-307]. Belə ki, İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan və inzibati məsuliyyətə səbəb olan əməl inzibati xəta adlanır. Qəsdən və ya ehtiyatsızlıq üzündən törədilməsindən asılı olmayaraq, hər bir hərəkət və hərəkətsizlik inzibati məsuliyyətə səbəb olduğu təqdirdə inzibati xəta sayılır.

Gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və onlara baxılmasının mərhələləri barədə qeyd etməliyik ki, göstərilən mərhələlər bir neçə etapdan keçsə də, bu iş üzrə inzibati icraatın sərbəst prosessual hissəsi olaraq, bir-biri ilə çox bağlıdır və özünəməxsus prosessual funksiyaları, məqsəd və tapşırıqları vardır. Gömrük qaydalarının pozulması haqqında iş üzrə inzibati proses aşağıdakı mərhələlərdən ibarətdir:

1) işin başlanması və onun inzibati istintaqı;

2) işə baxılma və gömrük qaydalarının pozulması işi üzrə qərarın çıxarılması;

3) gömrük qaydalarının pozulması haqqında iş üzrə şikayətvermə, protest və qərara yenidən baxma;

4) gömrük qaydalarının pozulması üzrə Azərbaycan Respublikası gömrük orqanlarının qoyduğu məsuliyyətin icrası.

GM-in növbəti maddəsi belə adlanır: Maddə 19. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti. Burada göstərilir ki, gömrük orqanları təhqiqatının və istintaqının aparılması səlahiyyətlərinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirirlər. Gömrük orqanlarında əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və əməliyyat-axtarış fəaliyyətini tənzimləyən digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir [9, s.110-111].

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun I maddəsinə görə, əməliyyat-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu Qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir. II maddəyə əsasən, əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir. III maddədə isə əməliyyat-axtarış fəaliyyətinin aşağıdakı vəzifələri sadalanır [7, s.52]:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;

3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;

5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Göstərilən bu vəzifələrdən ilk üçü bilavasitə gömrük orqanlarının işi ilə əlaqədar ola bilir. Belə ki, "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının I maddəsinə əsasən, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının daxili işlər, ədliyyə (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), fövqəladə hallar nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilir:

– poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasını Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, beynəlxalq göndərişlərin yoxlanılmasını həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirirlər.

Mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edə bilər. Gömrük orqanlarının əməliyyat bölmələrinin əməliyyat-axtarış fəaliyyətinin istiqamətləri Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış fəaliyyətini aşağıdakı istiqamətlərdə aparırlar:

1) gömrük orqanlarının şəxsi təhlükəsizliyini təmin etmək üçün aparılan əməliyyat axtarış fəaliyyəti;

2) gömrük işi sahəsində qaçaqmalçılıq və digər cinayətlərlə mübarizə məqsədi ilə aparılan əməliyyat-axtarış fəaliyyəti.

Qeyd etməliyik ki, gömrük orqanlarında həyata keçirilən əməliyyat-axtarış fəaliyyəti ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi məşğul olur.

GM-də təsbit olunmuş digər maddə isə – Maddə 20. Gömrük orqanlarının təhlükəsizliyini təmin edən tədbirlər adlanır. Sözügedən maddədə müəyyən olunmuşdur ki, gömrük orqanlarının, onların vəzifəli şəxslərinin təhlükəsizliyini təmin etmək üçün gömrük orqanları qanunvericiliklə nəzərdə tutulmuş qaydada zəruri tədbirlər həyata keçirirlər. Gömrük orqanları bu tədbirlərin həyata keçirilməsi üçün digər hüquq-mühafizə orqanları, eləcə də başqa dövlətlərin gömrük xidmətləri ilə qarşılıqlı əməkdaşlıq edirlər.

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycan Respublikasında hüquq-mühafizə orqanı kimi Dövlət Gömrük Komitəsinin fəaliyyəti həm elmi-nəzəri kontekstdə, həm də praktik cəhətdən mühüm əhəmiyyətə malikdir.

**İstifadə edilmiş mənbələr**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, 52 s.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2014, 232 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, 348 s.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, 784 s.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, 392 s.
6. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Kərimov B.C. Bakı,"Hüquq Yayın Evi" nəşriyyatı, 2016, s.369-472.
7. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, 84 s.
8. Gömrük hüququ. Dərslik / Kol.müəlliflər: Novruzov Q.N.,Qəmbərov H.D., Hüseynova F.E. Bakı,"Zərdabi Nəşr" MMC nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 592 s.
9. Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Kol.müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, "Kooperasiya" nəşriyyatı, 2015, 816 s.
10. Qəfərov M.Ş., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik (Əlavə və dəyişikliklərlə 3-cü nəşr). Bakı, Qanun Nəşriyyatı, 2012, 600 s.
11. Əliyev E.Ə. Polis hüququ. Dərslik.Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr. Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 s.
12. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası Daxili İşlər Orqanlarının Əməliyyat-Axtarış Fəaliyyəti Kafedrası "Cinayət-axtarış hüququnun əsasları" fənni üzrə tədris Proqramı / Tərtib edənlər: F.Muradov, N.Salmanzadə. Bakı, "Mütərcim" TNP Mərkəzi, 2015, 32 s.
13. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi – www.customs.gov.az
14. URL: www.e-qanun.az


## ПРАВООХРАНИТЕЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ ГОСУДАРСТВЕННОГО ТАМОЖЕННОГО КОМИТЕТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ:

### правовые аспекты и законодательные основы


**Назрин Натиг кызы Керимли,**
**Академия Государственного Таможенного Комитета Азербайджанской Республики, Юридический факультет, студентка IV курса.**
Электронная почта: kerimlinezrin879@gmail.com



В статье рассматривается деятельность Государственного таможенного комитета как правоохранительного органа Азербайджанской Республики. Особое внимание уделено функциям, правам и обязанностям указанного государственного учреждения, а также его законодательной базе. Отмечается, что в целях выполнения своих функций таможенные органы взаимодействуют с другими государственными ор-

ганами, юридическими и физическими лицами, в том числе правоохранительными органами.

**Ключевые слова:** правоохранительная деятельность, таможенные органы, законодательные основы таможенной службы, функции таможенных органов, правовые аспекты, нормативные правовые акты.

## LAW ENFORCEMENT ACTIVITY OF THE STATE CUSTOMS COMMITTEE OF THE REPUBLIC OF AZERBAIJAN: legal aspects and legislative bases

**Nazrin Natig girl Karimli,**
**Academy of the State Customs Committee of the Republic of Azerbaijan, Faculty of Law, 4th year student.**
E-mail: kerimlinezrin879@gmail.com

The activity of the State Customs Committee as a law enforcement body in the Republic of Azerbaijan is reviewed in the article. Special attention is paid to the functions, rights and duties of the mentioned state institution, as well as its legislative basis. It is noted that customs bodies interact with other state bodies, legal entities and individuals, including law enforcement agencies, in order to fulfill their functions.

**Key words:** law enforcement activity, customs bodies, legislative bases of customs service, functions of customs bodies, legal aspects, normative legal acts.

## AZERBAYCAN CUMHURİYETİ DEVLET GÜMRÜK KOMİTESİ'NİN YASAL UYGULAMA FAALİYETİ: yasal yönler ve yasal dayanaklar

**Nazrin Natig kızı Karimli,**
**Azerbaycan Cumhuriyeti Devlet Gümrük Komitesi Akademisi Hukuk Fakültesi 4. sınıf öğrencisi.**
E-posta: kerimlinezrin879@gmail.com

Makalede Azerbaycan Cumhuriyeti'nde kolluk kuvvetleri organı olarak Devlet Gümrük Komitesi'nin faaliyetleri gözden geçirilmektedir. Söz konusu devlet kurumunun görev, hak ve görevleri ile mevzuat dayanaklarına özel önem verilmektedir. Gümrük organlarının, görevlerini yerine getirmek amacıyla kolluk kuvvetleri de dahil olmak üzere diğer devlet kurumları, tüzel kişiler ve bireylerle etkileşimde bulunduğu belirtilmektedir.

**Anahtar kelimeler:** kolluk kuvvetleri, gümrük organları, gümrük hizmetinin yasal dayanakları, gümrük organlarının işlevleri, hukuki yönler, normatif hukuki düzenlemeler.

DOI: 10.5281/zenodo.14281962

# BEYNƏLXALQ HÜQUQ SUBYEKTLƏRİNİN TURİZM MÜNASİBƏTLƏRİNDƏ İŞTİRAKININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**İsgəndərli Soltan Dilsuz oğlu,**
**BDU Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının magistrantı.**
e-mail: xalillisona@gmail.com

*Tədqiqat işində beynəlxalq hüquq subyektlərinin turizm münasibətlərində iştirakının hüquqi tənzimlənməsi məsələsi nəzərdən keçirilir. Qeyd edilir ki, beynəlxalq turizm iştirakçılarının hüquqlarını səmərəli şəkildə tənzimləmək üçün müxtəlif aspektləri, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi, mədəni irsin qorunması, turizm regionlarının təhlükəsizliyinin və davamlı inkişafının təmin edilməsini nəzərə almaq lazımdır. Beynəlxalq turizmin inkişaf dinamikasının davamlı monitorinqi və təhlili, həmçinin pandemiya və ya ekoloji fəlakətlər kimi yeni çağırış və təhdidlərə vaxtında reaksiya verilməsi də bu sahədə iştirakçıların hüquqlarının tənzimlənməsinin mühüm aspektlərindəndir.*

**Açar sözlər:** beynəlxalq hüquq subyektləri, turizm münasibətləri, hüquqi tənzimlənmə, mədəni irs, turizm regionlarının təhlükəsizliyi, turizm-hüquq normaları, beynəlxalq turizm hüququ.

**Tədqiqat mövzusunun aktuallığı.** Qloballaşma və beynəlxalq turizmə diqqətin artması nəzərə alınaraq bu sahədə iştirakçıların hüquqlarının tənzimlənməsi xüsusiə həmiyyət kəsb edir. Turist axınının artması və bu sahədə beynəlxalq müqavilə və sazişlərin sayının artması həm dövlətlərə, həm də beynəlxalq hüququn digər subyektlərinə aid hüquqi məsələlərin diqqətlə təhlilini və həllini tələb edir.

Beynəlxalq turizm iştirakçılarının hüquqlarını səmərəli şəkildə tənzimləmək üçün müxtəlif aspektləri, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi, mədəni irsin qorunması, turizm regionlarının təhlükəsizliyinin və davamlı inkişafının təmin edilməsini nəzərə almaq lazımdır. Beynəlxalq turizmin inkişaf dinamikasının davamlı monitorinqi və təhlili, həmçinin pandemiya və ya ekoloji fəlakətlər kimi yeni çağırış və təhdidlərə vaxtında reaksiya verilməsi də bu sahədə iştirakçıların hüquqlarının tənzimlənməsinin mühüm aspektlərindəndir.

Turizm sahəsində milli qanunvericiliyin beynəlxalq standartlara və normalara uyğunlaşdırılması da mühüm aspektdir. Bu, beynəlxalq turizmin hüquqi tənzimlənməsində ziddiyyətlərin və münaqişələrin aradan qaldırılmasına kömək edir və turizm sənayesinin iştirakçıları üçün daha proqnozlaşdırıla bilən və sabit mühit təmin edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatın məqsədi mövcud təcrübənin və hüquqi bazanın təhlili əsasında turizm münasibətlərində subyektlərin iştirakının beynəlxalq-hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaqdır. Əsas vəzifələr aşağıdakılardan ibarətdir:

1. Dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında münasibətləri tən-

zimləyən əsas hüquqi prinsipləri və mexanizmləri müəyyən etmək üçün turizm sahəsində mövcud beynəlxalq müqavilə və sazişlərin təhlili.

2. Xarici turistlərin ölkəyə gəlməsi, qalması və təhlükəsizliyi ilə bağlı müxtəlif ölkələrin milli qanunvericiliyinin, habelə xarici şirkətlər tərəfindən turizm biznesinin aparılması qaydalarının öyrənilməsi.

3. Turizm sahəsində mövcud beynəlxalq və milli qanunvericilik bazalarının effektivliyini və çatışmazlıqlarını onların əlavə və ya dəyişdirilməsi ehtiyacını müəyyən etmək üçün qiymətləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Elmi yenilik beynəlxalq hüququn subyektlərinin iştirakı ilə turizm münasibətlərinin hüquqi tənzimlənməsinin hərtərəfli təhlili və onun optimallaşdırılması və təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasındadır. Tədqiqatın elmi yeniliyi onun beynəlxalq hüququn subyektlərinin iştirakı ilə turizm münasibətlərinin hüquqi tənzimlənməsinin təhlilinə kompleks yanaşmasında özünü göstərir. Ayrı-ayrı aspektlərin və ya fərdi qaydaların təhlili ilə məhdudlaşan əvvəlki tədqiqatlardan fərqli olaraq, bu tədqiqat beynəlxalq səviyyədə turizmi tənzimləyən geniş norma və prinsipləri əhatə etməyə çalışır.

Əsas elmi müddəalar aşağıdakıları əhatə edir:

1. Turizm münasibətlərinin səmərəli tənzimlənməsi istehlakçıların hüquqları, mədəni irsin qorunması, qeyri-qanuni miqrasiya və terrorizmlə mübarizə kimi müxtəlif aspektlərin hərtərəfli təhlilini və nəzərə alınmasını tələb edir.

2. Turizm sahəsində milli qanunvericiliyin və beynəlxalq norma və standartların uyğunlaşdırılması zərurəti. Bu,vahid hüquqi məkanın yaradılmasına kömək edir və turizm sənayesinin bütün iştirakçılarının maraqlarının daha səmərəli müdafiəsini təmin edir.

3. Turizm sektorunda istehlakçıların hüquqlarının, o cümlədən məlumatalmaq hüququnun, xidmətlərin təhlükəsizliyinin və hüquqların pozulması halında kompensasiya tələb olunmasının təmin edilməsi.

4. Turizmin dayanıqlı inkişafını təmin etmək üçün turizm bölgələrində mədəni irsin qorunması və mühafizəsi mexanizmlərinin işlənib hazırlanmasının vacibliyi.

Beynəlxalq turizm konsepsiyası və onun xüsusiyyətləri barədə qeyd etməliyik ki, beynəlxalq turizm xaricdən gələn ziyarətçilərin müxtəlif ehtiyaclarını ödəməyə yönəlmiş bir sıra turizm xidmətləri və malların tədarükünü əhatə edən çoxşaxəli bir işdir. Beynəlxalq turizm xarici ölkələrə gedən şəxslərin orada qaldıqları müddətdə heç bir biznes fəaliyyətində iştiraketməmələrini nəzərdə tutan bir prosesdir.

Beynəlxalq Əmək Təşkilatı (BƏT) mütəxəssislərinin fikrincə, turizm aşağıdakı kimi müəyyən edilə bilər:

– fərdlərin subyektiv şüuruna əsasən tənzimləndiyi üçün insandan asılı olan bir prosesdir;

– iqtisadi fəaliyyət formasıdır. Belə ki, turizm sektoru müxtəlif xarici səfərləri təşkil edən çoxsaylı şirkətlərin fəaliyyət sahəsidir;

– turistlərə xidmət göstərmək və onlara müxtəlif mal və xidmətlər təklif etmək üçün istehsalın təşkil edildiy isənaye sahəsidir.

Bu gün turizm fəaliyyətinə müxtəlif təriflər səsləndirilir.Turizm, bir insanın adi yaşayış yerindən başqa ölkəyə və ya eyni ölkə daxilində fərqli bir bölgəyə müvəqqəti səyahətini əhatə edir. Bu səfərlər, adətən, təyinat yerində ödənişli işlər yerinə yetirmədən əyləncə, istirahət, sağlamlıq, yaşayış, kəşfiyyat və ya təhsil məqsədi ilə həyata

keçirilir. Eyni zamanda, turizm insanların unikal təcrübələrə can atmaqla müxtəlifliyə olan istəklərini təmin etmək üçün vacib bir vasitə kimi qəbul edilir.Turizm insanların müxtəlif mədəniyyətlər, adət-ənənələr və təbii mənzərələrlə qarşılıqlı əlaqədə olması üçün geniş imkan yaradır [11, s.5].

Turizm sözü bir çox dillərdə çox uzun müddətdir istifadə olunur. "Grand Tour" ifadəsi sözün gəldiyi yerdir və ilk olaraq gənc zadəganların XVII və XVIII əsrlərdə öyrənmək üçün getdikləri səyahəti nəzərdə tuturdu. 1800-cü illərdə bucür səyahətlər digər insan qrupları arasında populyarlaşdı. Səfərlər insanlara müxtəlif həyat yollarını göstərmək məqsədi daşıyırdı.Yüzillərdir ki, turizmin əsas məqsədi insanları başqa ölkələrə gətirmək və orada yaşayan insanları tanımaq və anlamağa kömək etmək olmuşdur.Turistlər üçün ən vacib şeylər aşağıdakılardır:

1. Adətən, yaşadığınız yerdən fərqli bir yerə köçmək.Turizm insanların normal yaşadıqları yerlərdən başqa yerlərdə qaldıqları səyahət növüdür.

2. İnsanların qısa müddətdə yerdəyişməsi. Ən çox yayılmış səyahət növü iki-üç gün davam edən həftə sonu səfərləridir. Sonra yeddi-səkkiz gün davam edən qısa səfərlər və nəhayət, oniki gün və ya daha çox davam edən səfərlər gəlir.

3. Müvəqqəti qalmaq üçün başqa bir yer tapmaq. Bu yer sabit və ya uzun müddətli qaldığımız evdən başqa yer olmalıdır. İşlə (maaşla) heç bir əlaq əsi olmamalıdır. Bu detalı nəzərə almaq vacibdir, çünki işləyən birinin davranışı turistdən fərqlidir və onu turizm adlandırmaq olmaz. Başqa bir qayda budur ki, ziyarətçilər eyni yerdə ardıcıl 12 aydan çox qala bilməzlər. Əgər kimsə bir yerdə bir ildən çox qalırsa və ya qalmağı planlaşdırırsa, o şəxs turizm səbəbi ilə daimi sakin olduqları üçün turist deyil.

4. Başqa əraziyə və ya ölkəyə qayıtmaq üçün adi evi tərk etmək. Daimi yaşadığınız ərazi daxilində səyahət etmək, hərgün işə getmək kimi turizm sayılmır. Ölkə daxili səyahətlərə dair məlumatlara görə, bəzi qrup insanlar hərgün müəyyən vaxt və məsafə üçün işə getməli olurlar. Beləliklə, kiçik bir şəhərdə işləmək üçün səyahət 20-30 dəqiqə çəkir və bir neçə kilometr uzunluğundadır. Böyük bir şəhərdə bu, üç saata qədər çəkəbilər və uzunluğu 50 ilə 100 km arasındadır. Kiçik bir kənddə yaşayan biri üçün 70 km- lik yoluzundur. Demək olar ki, bu məsafə böyük şəhərlərin şəhər sərhədləri daxilindədir.

5. Getdiyi yerdə gəlir götürmək məqsədinin olmaması. Bu qayda əsasən deyir ki, səfərin əsas səbəbi səfər yerindəki mənbə tərəfindən ödənilən bir şey etmək olmamalıdır. Yox, hansısa ölkəyə başqasının yanında işləməyə gələnə turist deyil, işçi deyilir. Bu, həm ölkə daxilində turizmə, həm də ölkələr arasında səyahətə aiddir.Eyni ölkədən kimsə pula başagələn və həmin yerdə (və ya ölkədə) ödənilə biləcək bir işi görmək üçün başqa yerə (və ya ölkəyə) gedirsə, həmin şəxs hə min yerin turisti deyildir.

Yuxarıda göstərilən xüsusiyyətlərə və amillərə nəzər salsaq, turizmin aşağıdakı əlamətlərini qeyd edə bilərik [30]. Bu səfərlər, istər iş, istərsə də zövq üçün olsun, insanları normal yaşadıqları və işlədikləri yerlərdən uzaqlaşdırır. Şəhərin başqa yerlərində alış-verişə gedən şəhər adamı evindən çıxmadığı üçün turist deyil.

Beləliklə, turizm insanların daimi və ya uzun müddət yaşamadıqları və işlərinin bir-biri ilə əlaqəli olmadığı yerlərdə səyahət edərkən və qaldıqları zaman sahib olduqları əlaqələr, hadisələr və fəaliyyətlər məcmusudur. Bütün dünyada ölkələr arasında turizm

çox vacib amildir. Hər il təxminən 500 milyon insan tətil üçün başqa ölkələrə gedir. Beynəlxalq turizm istirahət üçün geniş istifadə olunan bir yoldur və eyni zamanda, dünya iqtisadiyyatının çox sürətlə inkişaf edən bir sahəsidir. Amma xarici turizmin artımı ilə bağlı statistik məlumatlar həmişə düzgün olmur, çünki nə qədər turistin gəlib-getdiyini izləmək çətindir. Turistlərin hərəkət etməsi üçün vahid normal yol yoxdur, ona görə də ölkələr arasında statistik məlumatları müqayisə etmək çətindir.

Xarici turizm çox qeyri-müəyyən və mürəkkəb olduğu üçün onun ümumi axışını və dünyaya necə təsir etdiyini yaxşı təsəvvür etmək çətindir [31]. Hazırda turizm beynəlxalq ticarətin böyük bir hissəsidir. Bu, bir çox ölkənin ixrac etdiyi əsas məhsullardan biridir və iqtisadi artım üçün əsas məqsəddir. Beynəlxalq turizmə təsir edən bir çox həm müsbət, həm də mənfi amillər mövcuddur. Bu amilləri qlobal iqtisadi artımın ümumi tendensiyalarında görmək olar. Keçdiyimiz illərdə beynəlxalq turizm sahəsi görünməmiş artım templərinin şahidi oldu. Burada görkəmli turizm istiqamətləri əhəmiyyətli maliyyə gəlirləri verdi.

Beləliklə, 2007-ci ildə beynəlxalq turistlərin sayı təxminən 900 milyon nəfər olmuşdur. Son illərdə beynəlxalq turizm 730 milyard ABŞ dolları həcmində əhəmiyyətli gəlir əldə edərək, ev sahibi ölkələrin iqtisadi rifahına əhəmiyyətli dərəcədə töhfə verib. Qeyd edək ki, 2019-cu ildə bu rəqəmlər ikiqat artaraq, 1,458 milyon nəfərə çataraq, nəzərəçarpacaq dərəcədə artım göstərib və ümumilikdə 1,478 milyard dollar təşkil edib [22, s.38]. Beynəlxalq turizmin dövlətlərin iqtisadi artımına töhfə verməkdə əhəmiyyətli potensialını nəzərə alaraq, turizm sənayesi daxilində müasir problemlərin həllinə yerli icmaların və digər maraqlı tərəflərin cəlb edilməsinin vacibliyini etiraf etmək vacibdir. Müxtəlif dövlətlər daxili səyahətləri təşviq etmək və həvəsləndirmək yolu ilə xarici turizmin trayektoriyasını yönləndirməyə fəal şəkildə çalışırlar.

Beləliklə, beynəlxalq turizmin sənaye sahəsi kimi vəziyyətinin araşdırılması, ölkəyə gəlmə və daxili turizmin inkişafı üçün strategiyaların formalaşdırılması, ölkənin sosial-iqtisadi tərəqqisində müstəsna əhəmiyyətə malikdir. Hər bir ölkədə turizmin inkişafı proqramı inteqrasiya olunmuş strategiya prinsiplərinə uyğun hazırlanır. Bu proqramlar milli, regional və beynəlxalq amilləri nəzərə alır. Proqramın belə hazırlanması həm yerli, həm də beynəlxalq amillərdən istifadə etməyə imkan verir. Digər tərəfdən, çoxmillətli turizm müəssisələrinin fəaliyyəti yerli əhalinin həyat səviyyəsini yaxşılaşdırmağa çalışır. İnsanlara yeni imkanlar verilir və onların bir çox yaradıcı məhsulları üçün yeni bazar yaranır. Bunun nəticəsidir ki, turistlərin əksəriyyəti getdikləri xalqların milli adət-ənənələri, xalq yaradıcılığı nümunələri ilə maraqlanır. Bundan əlavə, beynəlxalq turizm insanlar arasında mədəni, siyasi və iqtisadi əlaqələri inkişaf etdirməklə yanaşı, həm də dostluq və həmrəyliyi inkişaf etdirməyə kömək edir. Bu faktor vasitəsilə bölgədə beynəlxalq əlamətlər milli xüsusiyyətlərlə gücləndirilir [3, s.9]. Beynəlxalq turizm ölkənin iqtisadi, sosial və mədəni inkişafına müxtəlif yollarla töhfə verən mühüm sektordur və aşağıda göstərilən əsas funksiyaları yerinə yetirir.

1. Xarici valyuta qazancları: beynəlxalq turizm ölkəyə valyuta gətirir. Xarici turistlər yaşayış, yemək, alış-veriş və digər turizm xidmətləri üçün yerli valyutadan istifadə edirlər və bu, ölkənin valyuta ehtiyatlarını

artıra bilər. Valyuta gəlirləri ölkənin beynəlxalq ticarət balansına və iqtisadi sabitliyinə töhfə verir.

2.Turizm xidməti şəbəkəsinin genişlənməsi: turizm yerli biznesin genişlənməsini dəstəkləyir. Otellər, restoranlar, turoperatorlar, bələdçilər və nəqliyyat təminatçıları kimi turizm xidmətləri göstərən müəssisələr turistlərin artan tələbatı ilə böyüyür.

3. Məşğulluğun artması: turizm sektoru bir çox insana iş imkanları təqdim edir. Otellərdə, restoranlarda, hava limanlarında və turistik məkanlarda minlərlə insan işləyir. Turizm işsizliyi azalda və yerli əhalinin gəlirlərini artıra bilər.

4. Mədəni mübadilə: turizm müxtəlif mədəniyyətlərin qarşılaşmasına imkan verir və mədəni mübadilələri təşviq edə bilər. Turistlər yerli adət-ənənələr, yeməklər, incəsənət və mədəniyyətlə tanış olurlar. Bu, mədəni anlayışı artırır və insanların dünyagörüşünü zənginləşdirir.

5. İnfrastrukturun inkişafı: Turizm ölkəninin frastrukturunun inkişafına töhfə verə bilər. Yeni hava limanları, yollar, mehmanxanalar və turizm obyektləri tikilir ki, bu da, ümumi infrastrukturun yaxşılaşmasına səbəb olur.

Bununla belə, turizmin bəzi mənfi təsirləri də ola bilər, xüsusən də, ətraf mühitə təsirlər, mədəni aşınma və qiymət artımları kimi problemlər. Buna görə də, turizmin idarə edilməsi və davamlı turizm təcrübələri bu mənfi təsirləri minimuma endirmək üçün vacibdir [3, s.55].

Ümumiyyətlə, beynəlxalq turizm ideyasına müasir baxışların tədqiqi üç əsas yanaşmanı ortaya qoyur.

1. Beynəlxalq turizm daimi yaşayış yerindən (ərazisindən) əməkhaqqı almaq və peşəkar fəaliyyətlə məşğul olmaqdan asılı olmayan, insanların sərbəst hərəkət sistemi kimi görünür. Bundan əlavə, beynəlxalq turizmində insanların transsərhəd hərəkəti kimi göründüyü nümayiş etdirilir.

2. Beynəlxalq turizm qlobal iqtisadiyyatın bir sahəsi kimi, belə yerdəyişmə nəticəsində yaranan tələblərə uyğun olaraq, yaradılan geniş əmtəə və xidmətlər sahəsidir. O, əsasən, beynəlxalq iqtisadi qarşılıqlı fəaliyyətə yönəldilməsi ilə seçilir.

3. Beynəlxalq turizm fəaliyyəti beynəlxalq turizm biznesində subyektlərin xarici iqtisadi fəaliyyəti kimi müəyyən edilir.

Turizmə, bəzən, aşağıda göstərilən sahələr kontekstində baxılır:

– sosial təcrübə;
– asudə vaxt fəaliyyəti;
– tələb forması;
– mədəni tədbir;
– iqtisadiyyatın öyrənilməsi.

Amma geniş mənada turizm ideyasına da müxtəlif aspektlərdən baxılır.Yəni vurğulanır ki, “turizm” ideyası üç əsas şəkildə özünü göstərməyə meyillidir:

1) insanın aktiv istirahəti və sağlamlığının yaxşılaşdırılması üçün faydalı olan səyahətlər vasitəsilə asudə vaxt keçirmə sistemi və məlumatları, eləcə də turizmi inkişaf etdirən əsas xüsusiyyətlər kimi təhsil və mədəniyyət sahələri haqqında daha çox öyrənmək və s. bu kateqoriyaya aiddir;

2) bir ölkədə hərəkət etmək, səyahət etmək fikri turizm məlumatlarını izləməküçün istifadə olunur və eyni zamanda, miqrasiya forması kimi görünür;

3) turizmi mürəkkəb sosial və iqtisadi vəziyyət kimi təsvir edən və əslində nə ilə bağlı olduğunu göstərən terminlər qrupu.

Bir sıra müəlliflər beynəlxalq və xarici turizm anlayışlarını birləşdirirlər. Xarici turizm, bəzən, beynəlxalq turizmin alt hissəsi

kimi qəbul edilir. İ.A.Çebotarevanın fikrincə, beynəlxalq münasibətlər sahəsi bir sıra turizm xidmətlərinin istehsalı, satışı və istehlakından təsirlənir. Bu xidmətlər fərdlərin istirahət məqsədləri üçün öz ölkələrindən başqa ölkəyə mütəşəkkil müvəqqəti köçürülməsini nəzərdə tutur.

Qeyd etmək vacibdir ki, bu fəaliyyətlər beynəlxalq hüququn prinsip və normaları ilə tənzimlənir və gəlir əldə etmək üçün nəzərdə tutulmur. Beynəlxalq münasibətlərin bu xüsusi təzahürü beynəlxalq turizm fəaliyyəti sferasında hüquqi tənzimləmə dairəsinə daxil olur [2, s.29].

Dövlət sərhədlərini keçmək üçün turist icazəsinin alınması beynəlxalq turizmin vacib hissəsidir və onu unikal edən proseslərdəndir. Dil maneəsi nə qədər böyükdürsə, insanların ölkələr arasında sərbəst hərəkət etməsi bir o qədər çətinləşir. Bunun turistlərin qeydiyyatı ilə heç bir əlaqəsi yoxdur, lakin turistlərin müxtəlif ölkələrdə olduqları zaman bir-birləri ilə necə danışdıqlarına böyük təsir göstərir. Çünki xarici turizm daxili turizmdən çox fərqlidir.

